ARTİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

# ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİNİN PEDAQOJİ ƏSASLARI

Bakı – 2023

Kitab Azərbaycan Respublikasının Təhsil İnstitutu Elmi Şurasının 19 oktyabr 2021-ci il tarixli (protokol №3) qərarı ilə nəşr olunur.

Elmi redaktor: **Ənvər Abbasov,**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent, Əməkdar müəllim

Nəşrə hazırlayanlar: **İntiqam Cəbrayılov,**
pedaqogika üzrə elmlər doktoru,
professor, Əməkdar müəllim

**Bibixanım İbadova,**
pedaqogika üzrə fəlsəfə doktoru,
dosent, Əməkdar müəllim

**Şagird nailiyyətlərinin qiymətləndirilməsinin pedaqoji əsasları (metodik tövsiyə). Bakı: "CN POLİGRAFİYA", 2023, 100 səh.**

Kitabda şagird nailiyyətlərinin qiymətləndirilməsinin nəzəri məsələləri, eyni zamanda fənlərin tədrisində istifadə olunan qiymətləndirmənin üsul və vasitələrinə dair metodik tövsiyələr, praktik nümunələr verilmişdir.

Kitabdan məktəb rəhbərləri, müəllimlər, metodistlər təhsil sahəsində fəaliyyət göstərən mütəxəssislər, tələbələr, doktorant və dissertantlar da istifadə edə bilər.

**©ARTİ, 2023**

## MÜNDƏRİCAT

Səh.

**Elmi redaktordan**................................................................ 5

**I. ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ SİSTEMİ**
*(İntiqam Cəbrayılov, Nigar Muradova, Könül Mikayılova)*............ 6

**1.1.** Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin mahiyyəti ........................................................................... 6

**1.2.** Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin məqsədi ............................................................................... 8

**1.3.** Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin prinsip və vəzifələri ....................................................................... 13

**II. ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MONİTORİNQİNİN TƏŞKİLİ MEXANİZMLƏRİ**
*(İntiqam Cəbrayılov, Nigar Muradova, Könül Mikayılova)*............ 16

**2.1.** Şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin təşkili zəruriliyi ..................................................................... 16

**2.2.** Şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin komponentləri ........................................................................ 18

**2.3.** Şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin praktik əhəmiyyəti ................................................................. 29

**III. FƏNLƏRİN TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏNİN ÜSUL VƏ VASİTƏLƏRİ** ............................................................... 39

**3.1.** Azərbaycan dili dərslərində şagirdlərin diaqnostik qiymətləndirilməsinin üsul və vasitələri
*(Ənvər Abbasov, Humay Alıkişiyeva)* ........................................... 39

**3.2.** Ümumtəhsil məktəblərinin ədəbiyyat dərslərində diaqnostik qiymətləndirmə mexanizmləri (*Asya Bəkirova*)........................... 46

**3.3.** İngilis dilinin tədrisində qiymətləndirmədə istifadə olunan üsul və vasitələr (*Fərida Heydərova*) ......................................... 51

**3.4.** İbtidai siniflərdə riyaziyyat dərslərində summativ qiymətləndirmə mexanizmləri (*Humay Cəbiyevа*)...................... 57

**3.5.** Ümumtəhsil məktəblərində fizika fənnindən summativ qiymətləndirmə mexanizmləri *(Əlişah Gərayev)* ........................ 65

**3.6.** Ümumtəhsil məktəblərində kimyanın tədrisi zamanı diaqnostik qiymətləndirmənin mexanizmi *(Akif Əliyev)* ............. 75

**3.7.** Coğrafiya fənni üzrə məktəbdaxili qiymətləndirmə mexanizmləri *(Təranə İsmayılova*) ............................................ 79

**3.8.** Texnologiya fənninin tədrisində formativ qiymətləndirmə mexanizminin hazırlanması *(Natiq Axundov)*............................. 86

**3.9.** Musiqi dərslərində şagirdlərin fəaliyyətlərinin formativ qiymətləndirilməsi *(Sevda Alxasova)*.......................................... 94

## Elmi redaktordan

Ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin qiymətləndirilməsi "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələblərinə uyğun olaraq aparılır. Təlim-tərbiyə işinin gedişini, inkişafını və keyfiyyətini izləmək, onu vaxtında, düzgün istiqamətləndirmək baxımından şagirdlərin gündəlik fəaliyyətinin və əldə etdiyi nailiyyətlərinin qiymətləndirilməsi mühüm əhəmiyyətə malikdir.

Fənlər üzrə təhsil proqramlarının 10 ildən çox müddətdə tətbiq olunmasına baxmayaraq şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsində istifadə olunan üsul və vasitələrin hazırlanmasında müəllimlər çətinlik çəkir. Bunu nəzərə alaraq müəllimlərə metodik kömək məqsədilə institutda məktəbdaxili qiymətləndirmənin aparılması mexanizminə aid Azərbaycan dili, ədəbiyyat, ingilis dili, riyaziyyat, fizika, kimya, coğrafiya, texnologiya, musiqi fənləri üzrə metodik tövsiyə hazırlanmışdır.

Metodik tövsiyələr hazırlanarkən Təhsil Nazirliyinin "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası"nın tətbiqinə dair tövsiyələr" (2019) sənədinə də istinad edilmişdir.

Kitab müəllimlər, metodistlər, təhsil mütəxəssisləri, eləcə də təhsil tədqiqatçıları üçün nəzərdə tutulmuşdur. Onu oxuyan arzu və təkliflərini bildirən hər kəsə əvvəlcədən təşəkkürümüzü bildiririk.

# I. ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ SİSTEMİ

## 1.1. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin mahiyyəti

Təhsil standartlarının tətbiqinin effektivliyinə, obyektivliyinə, keyfiyyətinə, profesionallığına nəzarət qiymətləndirmə vasitəsilə aparılır. Bu baxımdan təhsil standartları əsasında qiymətləndirmə standartları formalaşır. Qiymətləndirmə fəaliyyətin spesifik sferasıdır ki, bir sıra amillər əsasında həyata keçirilə bilər, o cümlədən:

- effektiv və yüksək nəticələr əldə etmək üçün proqramla əlaqəli ictimai maraqların nəzərə alınması;

- müəllimin fəaliyyətinin şagirdlərin tələbatına uyğun olub-olmaması, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etmək imkanının yaradılması və s.

Bu baxımdan Təhsil İslahatı Proqramının da tələblərindən irəli gələrək Qiymətləndirmə Konsepsiyası mahiyyət etibarı ilə bu tələblərin ödənilməsinə xidmət edir.

“Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası” 13 yanvar 2009-cu ildə təsdiq edildi. Qiymətləndirmə Konsepsiyası təhsilin keyfiyyətinin müyyənləşdirilməsinə, təlim və tədris prosesinin təkmilləşdirilməsinə, eləcə də təhsildə nailiyyətlərin qiymətləndirilməsi problemlərinə dair ən etibarlı konseptual sənəddir.

Konsepsiyada məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmə sistemlərinin hazırlanması üzrə əsas prinsiplər, məqsədlər, komponentlər göstərilməklə tətbiq mexanizmləri təqdim edilib, zəruri fəaliyyətlər təsvir olunub, gözlənilən nəticələr proqnozlaşdırılıb.

Beynəlxalq qiymətləndirmə ölkəni təmsil edən şagirdlərin təlim göstəriciləri əsasında təhsilin vəziyyəti barədə təsəvvür əldə etmək, müvafiq məlumatları təhlil etməklə problemləri aşkara çıxarmaq, onların həlli yollarını müəyyənləşdirmək, perspektiv inkişaf istiqamətlərini proqnozlaşdırmaq və digər ölkələrlə müqayisə etmək məqsədilə aparılır.

Milli qiymətləndirmə təhsil prosesinin təşkili, planlaşdırılması, aparıldığı şərait haqqında toplanmış məlumatlar vasitəsilə kurikulumun keyfiyyətini və təhsil sistemində baş verən dəyişiklikləri dəyərləndirmək məqsədilə ümumi orta

təhsilin bir pilləsindən digərinə keçid mərhələsində, 4-5 ildən bir həyata keçirilir. Milli qiymətləndirmə sistemi və təhsil standartlarının məqsədi məktəb təhsilinin yüksək səviyyədə təşkilinə və cəmiyyətin dinamik inkişafına xidmət göstərməkdir. Təbii ki, təhsil sistemində aparılan bu dəyişikliklər daha dərin nəzəri və praktik əsaslar üzərində qurularaq, müxtəlif kateqoriyadan olan təhsil işçilərinin elmi, pedaqoji, metodik və mədəni səviyyəsini yüksəldəcək.

Məktəbdaxili qiymətləndirmə dövlət təhsil standartlarının monitorinqini həyata keçirir, bilik, bacarıqları məzmun standartlarına əsasən ölçür və təlim nailiyyətlərini qiymətləndirir. Məktəbdaxili qiymətləndirmə aşağıdakı istiqamətlərdə həyata keçirilir:

1. **Şagird nailiyyətinin qiymətləndirilməsi**. Məktəb səviyyəsində müəllimlər və məktəb rəhbərləri tərəfindən həyata keçirilir. Bu mərhələdə şagirdlərin nailiyyətləri formativ (müntəzəm, davamlı), mikrosummativ (bəhs və bölmələr üzrə) və makrosummativ (yarımilliklər üzrə) formalarda yazılı və şifahi qiymətləndirilir.

2. **Kurikulum üzrə qiymətləndirmə**. Şagirdin təlim nəticələrinin müvafiq məzmun standartlarına uyğunluğunu müəyyənləşdirimək məqsədilə aparılır.

3. **Ümumi təhsil pillələri üzrə yekun qiymətləndirmə** mərkəzləşmiş qaydada aparılan buraxılış imtahanları formasında həyata keçirilir və müvafiq təhsil sənədi verilməsi ilə başa çatır.

Məktəbdaxili qiymətləndirmənin həyata keçirilməsində diaqnostik, formativ və summativ qiymətləndirmə növlərindən istifadə olunur.

Qiymətləndirmə bir prosesdir. Bu prosesdə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq öz əksini tapır. Bu proses eyni zamanda zəncirvari bir prosesdir ki, burada əlaqəliliyin izlənilməsi və təmin edilməsi mütləqdir. Ona görə də qiymətləndirmə prosedurları ardıcıl qurulur və vəhdət təşkil edir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinin mahiyyəti ondan ibarətdir ki, təlimə təsir edən amillərin, vasitələrin aşkarlanaraq aradan qaldırılması mümkün olsun. Məktəbdə şagird nailiyyətlərinin qiymətləndirilməsi aşağıdakılara xidmət edir:

– şagirdlərin bilik, bacarıq və vərdişləri hansı səviyyədə mənimsədiklərini müəyyənləşdirməyə;

– müəllimlərin hazırlıq səviyyəsi və pedaqoji fəaliyyətinə dair məlumatların əldə olunmasına;

– təlimin məzmununun, metodlarının və səmərəliliyinin müəyyənləşdirilməsinə və təkmilləşdirilməsinə;

– idarəetmə texnologiyalarında yol verilən nöqsanların və ya qabaqcıl təcrübələrin öyrənilərək yayılmasına;

– ictimaiyyətin təhsilə münasibətinin öyrənilməsinə;

– qərarların qəbuluna, təhsil standartlarında müəyyən dəyişikliklərin edilməsinə.

Pedaqoji prosesdə şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemi təlimin və təhsilin inkişaf mexanizminin izlənməsidir. Bu mexanizmin köməyilə tədris prosesinin keyfiyyətini, müəllimin və bütövlükdə məktəbin fərdi məsuliyyətini müəyyən etmək mümkündür.

## 1.2. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin məqsədi

İstənilən sahədə qiymətləndirmənin tətbiqi aid olduğu sahənin məqsədlərindən irəli gəlir. Təhsil sahəsində də aparılan bütün növ qiymətləndirmələr məhz təhsilin məqsədindən irəli gəlir. Təhsilin məqsədi dövlət qarşısında məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirməkdir. Eləcə də geniş dünyagörüşünə malik, təşəbbüskar və yenilikləri qiymətləndirən, nəzəri və praktik biliklərə yiyələnən, ictimai həyata və səmərəli fəaliyyətə səmərə verə biləcək kadrlar hazırlamaqdır. Təhsilin bu kimi məqsədlərindən irəli gələn dövlət təhsil standartları təhsilalanların təhsil səviyyəsini dövlətin, ictimaiyyətin tələbi kimi müəyyənləşdirir və standartlar bu tələblərdən irəli gələrək təkmilləşdirilir.

Təhsil standartlarının tətbiqinin effektivliyinə, obyektivliyinə, keyfiyyətinə qiymətləndirmə böyük təsir göstərir. Ona görə də məzmun standartlarının əsasında qiymətləndirmə standartları formalaşır. Qiymətləndirmə fəaliyyətin spesifik sferasıdır ki, bir çox faktorlar əsasında həyata keçirilə bilər. Effektiv və yüksək nəticələr əldə etmək üçün proqramla əlaqəli ictimai maraqlar nəzərə alınır. Düzgün həyata keçiriləcək qiymətləndirmə müəllimin fəaliyyəti, bu

fəaliyyətin şagirdlərin tələbatına uyğun olub-olmaması, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməkdir.

Qiymətləndirmə standartlarının yaradılması təşəbbüsünü ilk dəfə 1988-ci ildə Avropada Volfqanq Bevel irəli sürüb və bir sıra Amerika standartlarını (Qiymətləndirmə tədqiqatları cəmiyyəti 1982-ci il və Təhsildə qiymətləndirmə standartları 1981-ci ilə aiddir) professional diskussiyaya cəlb edib. Lakin uzun illər ABŞ istisna olmaqla, Avropada qiymətləndirmə standartlarının işlənməsinə, yeniləşdirilməsinə və klassifikasiya olunmasına əhəmiyyət verilməyib. Halbuki, mütəxəssislər qiymətləndirmə standartlarından və prinsiplərindən istifadəni nailiyyətlərin yüksəldilməsinə və təhsilin keyfiyyətinə nəzarətə yardımçı olan bir vasitə hesab edirdilər. Hal-hazırda isə standartların yenilənməsi və klassifikasiyası prosesi Avropada daha uğurla həyata keçirilir (əsasən İsveçrə, Almaniya, Fransa və Böyük Britaniyada).

Almaniyada 1990-cı illərdə qiymətləndirmə ayrıca bir fəaliyyət sahəsi kimi inkişaf etməyə başladı. Belə ki, 1997-ci ildə "Alman Qiymətləndirmə Cəmiyyəti" - DeGEval (Die Deutsche Gesellschaft für Evaluation) qiymətləndirmə standartlarının yaradılması və formalaşdırılması sahəsində fəaliyyətə başladı. Qiymətləndirmə standartlarının hazırlanması üçün komissiya təşkil olundu ki, bu komissiya 2001-ci ildə "Qiymətləndirmə standartları"nı işləyib hazırladı. Bu standartlar dörd əsas standart qrupuna malikdir: yararlılıq, keçirilənlərin mürəkkəblik dərəcəsi, ədalətlilik və dəqiqlik.

DeGEval qiymətləndirmə standartları tətbiq olunduqdan sonra bir neçə məsələ mübahisə doğurdu. Məsələn, ictimaiyyətin qiymətləndirmə standartlarının tətbiqində rolu, yaxud meta-qiymətləndirmə aparılmalıdırmı? Buna görə də DeGEval meta-qiymətləndirmədən imtina etdi.

1980-cı ilin sonu 1990-cı ilin əvvəllərində İsveçrədə qiymətləndirmə standartlarının hazırlanma prosesi sürətlə inkişaf etdi. Bu sahədə 1996-cı ildə "İsveçrə Qiymətləndirmə Cəmiyyəti" - ilk fəaliyyətə (SEVAL - Schweizerische Evaluations gesellschaft) başladı ki, qiymətləndirmənin keyfiyyət standartlarını müzakirə etsin. 1999-cu ildə işçi qrupu tərəfindən standartın ilk nüsxəsi hazırlandı və 2001-ci ildə İsveçrənin qiymətləndirmə standartları qəbul olundu. SEVAL Avropada ilk qiymətləndirmə standartını təqdim edən ictimaiyyət hesab edildi.

SEVAL-ın təqdim etdiyi sənəd 27 ayrı-ayrı standartdan ibarətdir ki, onlar da dörd qrupa bölünür: faydalılıq; keçirilənlərin ağırlıq dərəcəsi; elastiklik - dəyişikliklərin aparılması mümkünlüyü, korreksiyası; dəqiqlik. Bu sənəd alman, fransız, ingilis dillərinə tərcümə olunub.

"Böyük Britaniyanın qiymətləndirmə cəmiyyəti" - UKES (UK Evaluation Society)1994-cü ildə yaradıldı və onlar Şimali Amerika təcrübələrinə istinad edərək 2003-cü ildə "Qiymətləndirməyə təcrübədə rəhbərlik" adlı sənəd hazırladı. Bu sənəd qiymətləndirənlər üçün 19 hissədən, sifarişçilər üçün 18 hissədən, qiymətləndirmədə iştirak edənlər üçün 7, özünüqiymətləndirənlər üçün isə 17 hissədən ibarətdir. Sadalanan hissələr qiymətləndirməyə təcrübədə rəhbərlik etmək üçün xırda detallara qədər aydınlıq gətirir. Bu səbəbdən də Böyük Britaniyanın qiymətləndirmə standartları digər standartlardan ayrı-ayrı şəxslərin fəaliyyətilə bağlı göstərişlərin verilməsi baxımından beynəlxalq qiymətləndirmə cəmiyətinin diqqətini cəlb edir.

Fransada standartlar 1990-cı ilin əvvəllərində elmi şuraya "Fransız qiymətləndirmə cəmiyyəti" - SFE (Society French Evaluation) tərəfindən "Təcrübədə qiymət keyfiyyətinin artırılması üçün qiymətləndirmə standartları" kimi təqdim olundu. 2003-cü ildə isə SFE "Dövlət siyasətinin və proqramının qiymətləndirmə xartiyası" adlı sənəd imzaladı. SFE tərəfindən təqdim olunan xartiya qısa təsvir olunmuş altı əsas qiymətləndirmə prinsiplərindən ibarətdir.

Bütün qeyd olunan qiymətləndirmə standartları təhsil prosesini izləmək, yol verilən nöqsanları vaxtında aşkarlayaraq aradan qaldırmaq və təkmilləşdirmək məqsədini daşıyırdı.

Bu gün dünya ölkələrində şagird nailiyyətlərinin qiymətləndirilməsi "Qiymətləndirmə Beynəlxalq Assosasiyası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı" tərəfindən müqayisəli tədqiqatlar vasitəsilə TIMSS, PİSA, PİRLS kimi qiymətləndirmə layihələri tərəfindən həyata keçirilir. Bu layihələrdə 60-dan çox ölkə iştirak edir. PİRLS layihəsi ibtidai təhsilin son mərhələsində həyata keçirilir.

PİRLS (ingl. Progress in International Reading Literacy Study)- Oxu bacarığının inkişafı üzrə beynəlxalq tədqiqat 5 ildən bir keçirilir. Azərbaycan məktəbliləri ilk dəfə 2010-cu ildə (IV siniflər) sınaq tədqiqatında iştirak edib. PİRLS 6 səviyyə üzrə aparılır.

Bundan başqa, digər beynəlxalq qiymətləndirmə layihələri vardır ki,

bunlardan PİSA (ingl. Programme for International Student Assessment) – Beynəlxalq şagird qiymətləndirilməsi proqramı - funksional savadlılıq sahəsində 15 yaşlı şagirdlərin təhsil nəticələrinin qiymətləndirilməsi üzrə 3 ildən bir keçirilir. Oxu savadlılığı, riyaziyyat və təbiət elmləri üzrə test yoxlama işləri aparılır. Azərbaycan məktəbliləri ilk dəfə 2006-cı ildə PISA layihəsində iştirak ediblər. Tədqiqat nəticəsində dünyanın 57 ölkəsindən 400 minə yaxın şagirdin oxu, riyaziyyat və təbiət elmləri üzrə bacarıqları qiymətləndirilib. Bu reytinqdə ölkəmiz oxu və qavrama üzrə 54-cü, riyaziyyat üzrə mənimsəməyə görə 4-cü, müvəffəqiyyət göstəricisinə görə isə 32-ci yeri tutub.

TIMSS (ingl. Trends in Mathematics and Science Study) - Riyaziyyat və təbiət elmləri sahəsində təhsilin keyfiyyətinin qiymətləndirilməsi 4 ildən bir keçirilir. Azərbaycan 2010-cu ildə TIMSS-in IV- VIII siniflər üzrə sınaq tədqiqatında, 2011-ci ildə isə əsas mərhələdə iştirak edib.

Tədqiqatlar layihəsi, yetkinlərin biliyini qiymətləndirmək üçün PIAAC **(Programme for the International Assessment of Adult Competences)**- Beynəlxalq Yetkinlik Qiymətləndirmə Proqramı, kompüter biliklərinin qiymətləndirilməsi üçün ICCS (The Institute of Communications and Computer Systems) – "Rabitə və Kompüter Sistemləri İnstitutu", TALIS (Teaching and Learning International Survey)–"Tədris və Öyrənmə üzrə Beynəlxalq Sorğu", ICILS (International Computer and Information Literacy Study) – "Beynəlxalq Kompüter və İnformasiya savadlılığının öyrənilməsi" və s. misal göstərmək olar.

"Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nda milli kurikulum sənədi çərçivəsində idarəetmənin, səmərəli əməkdaşlığın, iqtisadi rəqabətin, milli-mənəvi dəyərlərin təmin edilməsi məqsədilə şagirdlərin təhsil nailiyyətlərinin hesabını aparır, təhsil pillələri üzrə buraxılış imtahanlarının ədalətliliyini və şəffaflığını təmin edir, kurikulumun məzmun standartlarının təkmilləşdirilməsini və inkişafını prioritet sahə kimi nəzarətdə saxlayır.

Azərbaycan Respublikasının ümumtəhsil sistemində qiymətləndirmə konsepsiyasında şagird nailiyyətlərinin qiymətləndirilməsi aşağıdakı məqsədlərdən irəli gəlir:

- şagird nailiyyətinin (və ya geriləmələrinin) izlənilməsi (monitorinqi);
- təlim prosesində qərarların qəbulu;

- şagirdin təlim nəticələrinin qiymətləndirilməsi;

- kurikulumun qiymətləndirilməsi.

Qiymətləndirmənin məqsədi öncədən müəyyənləşdirilir və ölçülə bilən xüsusiyyətlər qiymətləndirilir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi əsasən aşağıdakı məsələləri ehtiva edir:

- məktəblilərin bilik, bacarıq və vərdişlərinin mövcud vəziyyəti;

- şagirdlərin müstəqilliyinin və fəallığının mövcud vəziyyəti;

- dərslik, dərs vəsaiti və digər tədris materialları ilə işləmək bacarığı;

- aldığı informasiyaları təhlil etmək, qavrayaraq tətbiq etmək bacarığı.

Qeyd olunanları nəzərə alaraq ümumi şəkildə şagird nailiyyətlərinin qiymətləndirilməsini aşağıdakı kimi təqdim etmək olar: (cədvəl 1.2.1.)

Şagird nailiyyətlərini qiymətləndirməyin əsas məqsədi deklarativ, prosedural, kontekstual biliklər səviyyəsi öyrənilməklə müvəffəqiyyət və geriliyi müəyyənləşdirməkdir.

Deklarativ biliklər bilavasitə yaddaşa əsaslanır, zəruri informasiyaların, təriflərin, terminlərin mənimsənilməsini nəzərdə tutur, ona görə də bu proses "bilmə" və "anlama" fəaliyyətləri ilə əlaqədar olur.

Prosedural biliklər əldə etdiyi biliklərin tətbiq etmə bacarığına əsaslanır.

Kontekstual biliklər isə tədqiqatçılıq, yaradıcılıq fəaliyyəti ilə bağlıdır.

Bu məqsədlərdən irəli gələrək Azərbaycan Respublikasında şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində aşağıdakı nəticələr əldə olunmuşdur:

– şagird nailiyyətlərinin qiymətləndirilməsində uzunmüddətli strategiya nəzərdə tutulmuşdur;

– buraxılış imtahanları üzrə yeni sistem yaradılmış və şagirdlər beynəlxalq qiymətləndirmə layihələrində iştirak edirlər;

– şagird nailiyyətlərinin qiymətləndirilməsi istiqamətində təlimatlar, metodik vəsaitlər, idarəetmə və maddi-texniki təchizat planları hazırlanmışdır;

– qiymətləndirmə nəticələri həm ölkədaxili, həm də dünya ölkələri səviyyəsində müqayisə olunur və nəticələr təhlil olunur.

### 1.3. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin prinsip və vəzifələri

Qiymətləndirmə zamanı yalnız informasiyanın mənimsənilməsi deyil, həm də məktəblilərin cəmiyyətin həyatında iştirakı və fəal vətəndaş mövqeyi qazanması üçün zəruri olan qabiliyyətlərin əldə edilməsi, habelə insan hüquqlarının, demokratik cəmiyyətin dəyərlərinin formalaşdırılması məsələləri nəzərə alınmalıdır. Əgər biliklər – dərsin məzmunu, əsas faktlar və terminlərin, səbəb-nəticə əlaqələrinin ümumiləşdirilməsi əsasında, yaxud bacarıqlar – araşdırmalar (tənqidi təhlil), kommunikasiya, qərarların qəbul olunmasında iştiraketmə, eləcə də fərdi və kollektiv fəaliyyətin təşkil xüsusiyyətlərinə görə qiymətləndirilirsə, dəyərlər - ədalət, bərabərlik, azadlıq, sülh, ləyaqət və demokratiya kimi anlayışların şagirdlər tərəfindən qəbul edilməsi baxımından qiymətləndirilir.

Beynəlxalq Şəbəkədə "Qiymətləndirmə proqramı"nda qiymətləndirmə prinsipləri 5 əsas cəhəti özündə birləşdirir:

1. Qiymətləndirmə proqramının əsasında dəqiq və etibarlı informasiya xüsusi yer tutur;

2. Qiymətləndirmə prosesi səriştəliliklə yerinə yetirilməlidir;

3. Qiymətləndirmə proqramının mütəxəssisləri bütün qiymətləndirmə prosesində dəqiqliyə və aşkarlığa təminat verir;

4. Qiymətləndirmə proqramının mütəxəssisləri insanların təhlükəsizliyinə və ləyaqətinə hörmət edir, professional fəaliyyətdə bir-birinə inanır;

5. Qiymətləndirmə proqramının mütəxəssisləri ictimai maraq və tələblər üzrə məsuliyyət daşıyır.

Amerika assosasiyasının təqdim etdiyi "Qiymət qoyanlar üçün rəhbər prinsiplər" adlı sənəddə də qiymətləndirmənin effektivliyinə təsir edən beş əsas prinsip verilib:

1. Qiymətləndirmə prosesində işlənən informasiyanın dəqiqliyi və etibarlılığı;

2. Yerinə yetirilən qiymətləndirilmənin səlahiyyətliliyi;

3. Qiymətləndirmə prosesinin dəqiqliyi və açıqlığı, informasiya bağlantısının bərabərliyi;

4. Şəxsiyyətin hüquq və azadlığına hörmət;

5. İctimaiyyətin firavanlığı mövqeyindən irəli gələn maraqların müəyyənləşdirilməsi və bu maraqlar qarşısında məsuliyyət.

Azərbaycan təhsil sistemində bütün növ qiymətləndirmənin aparılmasında aşağıdakı prinsiplərə əməl olunması nəzərdə tutulub:

– məqsədəuyğunluq – məqsəd və hərəkətin düzgün seçilməsi;

– nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi, hərəkətlərin daxili bağlılığı;

– toplanmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması. Seçilmiş hərəkətin reallığı, effektivliyi və hərəkətin qarşıya qoyulmuş məqsədə cavab verməsi;

– qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;

– təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

Qiymətləndirmə prinsipləri qiymətləndirmənin inkişafetdirici baxımdan həyata keçirilməsini təmin edən əsas meyardır. Ona görə də dünya təcrübəsində də qiymət verənlər üçün bu prinsiplərin düzgün tətbiqi və vaxtında həyata keçirilməsi olduqca əhəmiyyətli hesab olunur.

Şagird nailiyyətlərinin qiymətləndirilməsində məqsədəuyğunluq, qarşılıqlı dəyərləndirmə, müvafiqlik və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır:

- məqsədəuyğunluq prinsipi nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşmanı təmin edir;

- qarşılıqlı dəyərləndirmə prinsipi nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsidir: sinifdaxili indikatorlar vasitəsilə - müəllimin peşəkarlıq səviyyəsi, təlimin məzmunu, irəliləyişlərin, qiymətləndirmələrin koordinasiya səviyyəsi, təlim üçün ayrılmış vaxt, şagirdin tələblərini ödəyən resurslar və tədris vasitələrinin keyfiyyəti; bilavasitə təhsil sistemi ilə bağlı indikatorlar vasitəsilə - dövlət standartları, tədris proqramları, adambaşına düşən təhsil xərcləri; digər indikatorlar vasitəsilə - məişət problemləri ilə bağlı məsələlər;

- müvafiqlik və etibarlılıq prinsipləri toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyini və etibarlılığını təmin edir (validlik və relevantlıq);

- inkişafyönümlülük prinsipi təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunu təmin edir;

- şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsipi qiymətləndirmə sahəsində maraqlı tərəflər arasında qarşılıqlı əməkdaşlığı və şəffaflığı təmin edir.

Bu prinsiplərdən irəli gələrək şagird nailiyyətlərinin qiymətləndirilməsində aşağıdakı vəzifələr həyata keçirilmişdir:

- ölkədə kurikulum hazırlanmasını və qiymətləndirmə fəaliyyətini bir-biri ilə əlaqələndirən tam milli sistem yaradılmışdır;

- qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilir;

- təhsilin keyfiyyəti haqqında obyektiv məlumatları əldə etmək məqsədi ilə səmərəli idarəetmə üçün məktəbdaxili və milli qiymətləndirmə sistemlərinin yaradılıb, ölkənin beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirakı təmin edilir.

# II. ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ MONİTORİNQİNİN TƏŞKİLİ MEXANİZMLƏRİ

## 2.1. Şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin təşkili zəruriliyi

Bu gün ümuni təhsilin ən vacib prioritetlərindən biri onun keyfiyyətinin tənzimlənməsi sisteminin təmin edilməsidir. Bu baxımdan, Azərbaycanda təhsil fəaliyyətinin monitorinqi və qiymətləndirilməsinin əsasları hazırlanmışdır. Bunu milli təhsillə bağlı bütün dövlət sənədləri sübut edir.

Mövzunun aktuallığını təsdiq edən mühüm amillərdən biri hazırda qiymətləndirmə problemi ilə bağlı geniş müzakirələrin aparılmasıdır (yerli ümumi məktəb təhsilinin təkmilləşdirilməsi üçün qiymətləndirmə sisteminin yenilənməsində bir sıra əsas məsələlər: məktəbdaxili qiymətləndirmədə yeni qaydalar, müəllimlərin diaqnostik qiymətləndirilməsi, şagird nailiyyətlərinin monitorinq yolu ilə formativ qiymətləndirilməsi, hər bir fənnin bölməsi daxilində kiçik summativ qiymətləndirmə və digər oxşar problemlər).

Yuxarıda göstərilən problemlər konkret suallar doğurur (Nəyi qiymətləndirməliyik? Hansı miqyasda? Nəticələri harada qeyd etməliyik? Kim qiymətləndirməlidir? Son qiyməti necə təyin etməli? Şagird təlim nailiyyətlərinin qiymətləndirilməsi, yeni təhsil standartlarının tətbiqi ilə necə dəyişməlidir?). Bu istiqamətdə olan bu və digər suallar monitorinqin dövlət təhsil standartının tələblərinə uyğun olaraq şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsinin ən optimal vasitələrindən biri olduğunu deməyə əsas verir.

**Monitorinq strategiyası - planlaşdırılan nəticələrin qiymətləndirilməsidir. Buna görə planlaşdırılan nəticəni məktəbin hədəfləndirdiyi planlaşdırılan nəticələrin qiymətləndirmə sistemini (bilik, qabiliyyətlər, fərdi keyfiyyətlər və s.) formalaşdırmaq üçün əsas kimi götürülməsi vacibdir. Həm də planlaşdırılan nəticələrin daha yaxşı qiymətləndirmə səviyyəsini necə müəyyənləşdirmək strategiyasını yaratmaq vacibdir. Əlbəttə ki, bütün bunlar, məktəbin hədəfinə uyğun olaraq planlaşdırılan nəticələrin qiymətləndirilməsinin monitorinqini tələb edir.**

Azərbaycan pedaqoji elmində indiki mərhələdə bu məsələ daha da aktuallaşmışdır. Respublikada müxtəlif tədris proqramları çərçivəsində monitorinqin ümumi nəzəri və praktik əsaslarını, problemlərini və qiymətləndirmə

metodlarını əhatə edən bir çox tədqiqat işləri, dərsliklər, tədris vəsaiti, məqalə və tezislər mövcuddur və bu məsələlər azərbaycanlı alim-pedaqoqların elmi əsərlərində öz əksini tapmışdır (R.T. Qəndilov, Ə.M. Abbasov, A.N. Abbasov, İ.H. Cəbrayılov, İ A. Cavadov, E.B. Bəylərov, T.B. Qardaşov, Z. Zeynalov, R. Həsənov, T. Hacıyeva və b.).

Azərbaycan elmi və pedaqoji ədəbiyyatının təhlili göstərir ki, çoxsaylı elmi nəşrlərə baxmayaraq, hazırda respublikanın orta məktəblərində təhsil prosesinin keyfiyyətinin yüksəldilməsi üçün zəruri şərt kimi şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin təşkili mexanizminin yenilənmiş strukturu mövcud deyildir.

Bu baxımdan, təkmilləşdirilmiş bir monitorinq modelinə ehtiyac duyulur.

Yerli və xarici pedaqoji ədəbiyyatın təhlilini ümumiləşdirərək, monitorinqin əsas göstəricilərini üç cəhətdən müəyyən edə bilərik: 1) fərdin fənlər üzrə təhsil nailiyyətləri; 2) təhsildən məmnunluq; 3) tədris prosesində iştirak dərəcəsi. Əlbəttə, bu üç göstərici dövlət təhsil standartının tələblərinin yerinə yetirilməsini qiymətləndirir. Buradan belə nəticə çıxır ki, monitorinq müəyyən bir fənnin izlənilməsinin dövlət tələblərinin istənilən nəticəsinə uyğunluğunu müəyyən etmək üçün xüsusi təşkil olunmuş prosedurdur.

Yuxarıdakı üç monitorinq göstəricisindən birinci göstəricini nəzərə alırıq. Niyə? Ona görə ki, bu göstərici şagird**lərin** nailiyyətlərə münasibətini iki qrupa bölməyə əsas verir:

- birinci qrup tədris prosesinin məzmununa xüsusi maraq göstərməyən şagirdlərin sayını artırır. Bu, təhsil sisteminin əsasını - şagirdlərin öyrənməyə həvəsləndirilməsi tələbini ifadə edir;

- ikinci qrup, əksinə, öz məqsədlərini və özünüinkişaf prosesini quran şüurlu şagird**lərin** sayını artırır. Burada şagirdlər fərdi təhsil yollarının əsas istehlakçısına çevrilir, yəni hər biri ayrı-ayrılıqda fərdi potensialın reallaşması üçün müstəqil yolla hərəkət edir. **Deməli, monitorinqin əsas məqsədi müşahidələr və təhlillər əsasında müəyyən fənlər üzrə** şagird**lərin fəaliyyətlərini izləməklə bilik nailiyyətlərindən geriqalma səbəblərini müəyyən etməkdir, onların təlim nailiyyətlərinin inkişafını təmin etməkdir, həm də tədris prosesinə metodik dəstəyi verməkdir.**

**Monitorinq mexanizmi standart metodikaya əsaslanır. Həmin metodika üç əsas komponent (mərhələ) üzrə qurulmuşdur: hazırlıq, praktik və analitik. Bu metodikadan istifadə edərək müəllim hər bir şagirdin nailiyyətləri barədə obyektiv, hərtərəfli və dolğun məlumat alır, müəllim-şagird və müəllim-sinif səviyyəsində tədris prosesini idarə edir, öz tədris metodikasını təkmilləşdirir.**

## 2.2. Şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin komponentləri

Məlumdur ki, şagird **nailiyyətlərinin qiymətləndirilməsinin monitorinqinin quruluşunu prosedurlar təşkil edir. Hər bir prosedur ayrı-ayrılıqda vacib komponent kimi çıxış edir və bütövlükdə mərhələli prosesin mexanizmini yaradır.**

Monitorinq şagird nailiyyətlərinin qiymətləndirilməsində tədris prosesinin idarə olunması üçün mühüm pedaqoji vasitədir. Monitorinqin dəyəri ondan ibarətdir ki, şagirdin hətta kiçik irəliləməsi diqqətdən yayınmır. Qiymətləndirmə onun üçün mənalı və daha konkret olur. Şagird nailiyyətlərinin qiymətləndirilməsində orta məktəblər üçün aparılan monitorinq eyni zamanda diaqnostika və ekspertizadır, bunun əsasında hər bir şagird və **bütün** sinif üçün təlim motivasiyasının inkişafını müşahidə etmək mümkündür.

Şagird nailiyyətlərinin qiymətləndirmə prosesini təşkil edən monitorinqin əhəmiyyətli komponentlərini müəyyənləşdirmək üçün məsələyə diaqnostika və ekspertiza mövqeyindən yanaşaq. Niyə? Çünki bu istiqamətdə monitorinqin nəzəri-praktik əsaslarını düzqün vurğulamaq üçün diaqnostika və ekspertiza ilə müqayisə etmək tövsiyə olunur (cədvəl 2.2.1.).

Cədvəldən (2.2.1.) aydın olur ki, qiymətləndirmə prosesində monitorinq, diaqnostika və ekspertizanın müəyyən komponentlərinin oxşarlığı vardır. Amma, diaqnostika və ekspertizadan fərqli olaraq monitorinq daha çox dövlət norma və standartlarına yönəldilmişdir. Buna görə də monitorinqin məlumatlarının müqayisəsi və ölçülməsi təhsil standartı üzərində qurulur.

**Cədvəl 2.2.1.** Qiymətləndirmədə monitorinq, diaqnostika və ekspertiza mövqelərinin mahiyyəti.

| **Qiymətləndirmə əsaslarının qısa təsviri:** | | |
|---|---|---|
| ***monitorinqdə*** | ***diaqnostikada*** | ***ekspertizada*** |
| Monitorinqin əsası standartlara əsaslanır, onun effektivliyi müəyyən olunmuş standartların düzgünlüyündən çox asılıdır. Monitorinqin əsas problemlərindən biri onun göstəricilərinin ölçülməsidir. | Diaqnostika xüsusi hazırlanmış texnologiyalara, texnikaya və test tapşırıqlarına əsaslanır. Diaqnostik nəticələr istifadə olunan metodlardan asılıdır: onların inkişaf dərəcəsindən, keyfiyyətindən və tədqiq olunan obyektlə əlaqəsindən asılıdır. | Keyfiyyətli ekspertiza mütəxəssislərin subyektiv fikirlərinə əsaslanır. Effektiv ekspertizanın həyata keçirilməsində iştirak edən mütəxəssislərin səriştəsi ilə müəyyən edilir. |

Beləliklə, bu üç fərqli anlayışı bir-biri ilə əlaqələndirilməklə, hər birinin ayrı-ayrılıqda xüsusi fərqliliyini aşkar etməyə imkan verir. Onların spesifik xüsusiyyətlərinin müqayisəli xarakteristikasını təqdim edirik (cədvəl 2.2.2).

**Cədvəl 2.2.2.** Monitorinq, diaqnostika və ekspertizanın özünəməxsus tərəfləri.

| ***Monitorinq*** | ***Diaqnostika*** | ***Ekspertiza*** |
|---|---|---|
| *Anlayışlarının mahiyyəti:* | | |
| "Monitorinq" – latın dilində "monitor" - nəzarət edən deməkdir. | "Diaqnoz" - yunan dilində "diagnostics" tanımaq deməkdir. | "Ekspertiza" – latın dilində"ekspert" təcrübəli deməkdir. |
| *Pedaqoji tərif:* | | |
| Monitorinq pedaqoji sistemin fəaliyyəti haqqında məlumatların toplanmasının, saxlanmasının, işlənməsinin və yayılmasının təşkili, vəziyyətinin davamlı izlənilməsini və inkişafının proqnozlaşdırılmasını təmin edən bir sistemdir. | Diaqnostika müxtəlif pedaqoji hadisələrin tanınması və bunun üçün lazımi parametrlərin istifadəsinə əsaslanaraq müəyən bir anda vəziyyətlərini müəyyənləşdirmək prosesidir. | Ekspertiza ekspert rəyi və ya pedaqoji bir prosesin ya hadisənin qiymətləndirilməsi şəklində kollektiv rəy əldə etmək üçün lazım olan prosedurların məcmusudur. |
| *Funksiyaları:* | | |
| - məlumatlı;<br>- təxmini;<br>- idarəetmə;<br>- oriyentasiya;<br>- düzəldici. | - inteqrativ;<br>- diaqnostik;<br>- ekspertli;<br>- məlumatlı;<br>- praqmatik. | - ekspert;<br>- aydınlaşdırıcı;<br>- qoruyucu;<br>- inkişaf etməkdə olan;<br>- təxmini. |

**Cədvəl 2.2.2-nin davamı**

| | | |
|---|---|---|
| *Prinsiplər:* | | |
| - davamlılıq;<br>-məlumatların müqayisəsi;<br>-məlumatın obyektivliyi;<br>- adekvatlıq;<br>- uzaqgörənlik;<br>- kollegiallıq;<br>- fənlərarası;<br>- humanistləşmə. | - bütövlük;<br>- əsas əlaqə;<br>- obyektivlik;<br>- determinizm;<br>- analiz və sintez. | - eko məntiqi;<br>-dialoq və əməkdaşlıq;<br>- konstruktivlik;<br>-yaradıcılıq və çeviklik;<br>-çox yönlü və plüralizm;<br>- məxfilik. |
| *Metodlar* | | |
| - tədris prosesinin təbii şəraitdə öyrənilməsi üsulları (müşahidə, söhbət, anket, sənədlərin təhlili, fəaliyyət məhsulları, müəllimin iş təcrübəsi və s.), xüsusi dəyişdirilmiş şərait (tədqiqat nəticələrinin sınaq və eksperimental təsdiqlənməsi);<br>- keyfiyyət təhlili və nəticələrin kəmiyyətlə işlənməsi metodları;<br>- fərdi və qrup ekspert qiymətləndirmələrinin metodları;<br>- reytinq metodu. | - passiv metodlar (müşahidə, anket, test, müsahibə, sənədlərin təhlili);<br>- aktiv (diaqnostik təcrübə, vəziyyət yaratmaq, müəyyən vəziyyətlərin təhlili). | - tədqiq olunan obyekt haqqında məlumat toplama üsulları;<br>- ekspert rəylərinin işlənməsi üsulları (qrup ekspert qiymətləndirmələri və komissiyaları). |

Beləliklə, cədvələ (2.2.2.) söykənərək, diaqnostikanın və ekspertizanın qiymətləndirilməsinin müəyyən komponentlərindəki oxşar nöqtələrin şərhinin köməyilə monitorinqin komponentlərini (mərhələlərini) əks etdiririk (cədvəl 2.2.3.).

***Qeyd****. Yerli və xarici elmi-pedaqoji ədəbiyyatlarda monitorinqin "komponentləri" əvəzinə bir çox müəllif "mərhələləri" və ya "dövrləri" nəzərdə tutur. Nəticə etibarilə, monitorinq komponentləri şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində onun mexanizminin təşkili mərhələləri və ya dövrləri deməkdir.*

**Cədvəl 2.2.3.** Monitorinqin təşkili və aparılması komponentlərinin təkmilləşdirilməsi.

| **Monitorinqin komponentləri (mərhələləri)** | **Komponentlərin məzmunu** |
|---|---|
| **1-ci komponent-məqsədyönlülük:** | - monitorinqin məqsəd və vəzifələri;<br>- xüsusi monitorinq xüsusiyyətlərinin müəyyən edilməsi;<br>- monitorinq meyarlarının və göstəricilərinin bölgüsü;<br>- monitorinq formasının seçimi. |
| **2-ci komponent - dizayn:** | Necə? Nə vaxt? Nə üçün? (monitorinqin məqsəd və vəzifələri). |
| **3-cü komponent - qiymətləndirmə və statistika:** | - monitorinqin obyekti haqqında məlumatın toplanması;<br>- əldə olunan məlumatların sistemləşdirilməsi və qiymətləndirilməsi. |
| **4-cü komponent - proqnozlaşdırma:** | - monitorinqin nəticələrinə əsasən proqnoz və təlimatların verilməsi. |

Cədvələ (2.2.3.) görə belə bir nəticəyə gəlirik ki, şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində monitorinq məqsədəuyğun və məqsədyönlüdir. Niyə? Ona görə ki, "şagird nailiyyətlərinin monitorinqindən alınan məlumatlar vasitəsilə məktəb fəaliyyətinin hazırkı vəziyyətini sistemli və obyektiv şəkildə proqnozlaşdırmaq mümkündür. Bundan başqa, monitorinq faktiki vəziyyətin müntəzəm şəkildə qiymətləndirilməsi nəticəsində alınan informasiyanın toplanması və təhlil edilməsi yolu ilə həyata keçirilir, həmçinin, monitorinq təkcə təkliflərə deyil, problemlərin həlli üçün konkret addımlara da aiddir".

Azərbaycan və rus elmi-pedaqoji ədəbiyyatında mövcud olan təhsildə monitorinq qiymətləndirməsi ilə bağlı pedaqoji mövqeləri nəzərdən keçirək (cədvəl 2.2.4.).

**Cədvəl 2.2.4.** Təhsildə monitorinqin qiymətləndirilməsinə dair pedaqoji mövqelər.

| Müəlliflər: | Monitorinq nəzərdə tutur: | Açar sözlər: |
|---|---|---|
| Belkin A.S. | *Pedaqoji prosesin əsaslandırılmış tədqiqi.* | Pedaqoji proses. |
| Kukuev A.P. | *Müşahidə, idarəetmə və nəzarət daxil olmaqla hədəf izləmə prosesi.* | Müşahidə, nəzarət, idarəetmə, hədəf təyinetmə. |
| Kalney V.A. | *Tədris prosesinin məqsədinin qoyulması və tədris materialının şagirdlər tərəfindən mənimsəmə səviyyəsinin dinamikasında nəzarəti və onun tənzimlənməsini nəzərdə tutan monitorinq və diaqnostik tədbirlər sistemi.* | Nəzarət, diaqnoz, hədəf təyin etmə, əks əlaqə. |
| Şişov S.E. | *Müasir şəraitdə təhsilin keyfiyyəti sisteminin yaradılması (meyarlar və qiymətləndirmə metodları, təlim, təhsil və inkişaf proseslərinin səmərəliliyini izləmək sisteminin təşkili); məktəblərdə təhsilin inkişafı üçün müasir cəmiyyətə və dövlət tələblərinə uyğun olan real nəticələrin təmin edilməsi üçün zəruri və əhəmiyyətli idarəedici mexanizmi.* | Məktəbdə təhsilin, təhsilin qiymətləndirilməsi meyarları və metodları. Standartlar. |
| Kovalenko V.İ., Reshetnikov P.İ. | *Müxtəlif diaqnostik prosedurlardan istifadə etməklə tədris prosesinin gedişatı və nəticəsinin, eləcə də gələcək mütəxəssislərin peşəkar və fərdi inkişafının uzun və məqsədyönlü şəkildə izlənməsi prosesi.* | Hədəfləndirmə, izləmə, diaqnostika. |
| Bershadsky M.E., Guzeev V.V. | *Təhsil sistemi və ya onun ayrı-ayrı elementləri haqqında məlumatların toplanması, işlənməsi, saxlanması və yayılması sistemi, istədiyi zaman obyektin vəziyyətini qiymətləndirməyə və inkişafının proqnozunu verməyə imkan verən məlumatı idarəetmə dəstəyinə yönəldilmiş bir sistemi.* | İdarəetmə, proqnoz, sistem, məlumat dəstəyi. |
| Gorb V.G. | *Universitetdə tədris prosesinin gedişi və nəticələri haqqında elmi əsaslı məlumat əldə etmək və tədris funksiyalarını yerinə yetirmək üçün pedaqoji fəaliyyətin texnologiyasını.* | Pedaqoji texnologiya, tədris prosesi. |
| Andreyev V.İ. | *Təhsil sisteminin fəaliyyətinin və özünü inkişaf meyllərinin səmərəliliyinin keyfiyyəti və kəmiyyət xüsusiyyətlərinin, o cümlədən məqsədləri, məzmunu, forması, metodları, didaktik və texniki vasitələri, təlim, tərbiyə və şəxsin və komandanın özünü inkişaf şərtləri və nəticələrinin sistematik diaqnostikasını.* | Sistem diaqnostikası, təhsil sistemi, hədəf təyinetmə. |
| Hacıyeva T. | *Təhsilin keyfiyyətini daim izləməyə imkan verən daxili idarəetmə prosesidir. Təhsil fəaliyyətinin güclü və zəif tərəflərini müəyyənləşdirən və gözlənilən nəticələrə nail olmaq üçün əməli təkliflər verən mexanizmi.* | Monitorinqin komponentləri. |

**Cədvəl 2.2.4-ün davamı**

| | | |
|---|---|---|
| Əhmədov A.E., Şərifov T., Abbasov E.M. | *Şagirdlərin tədris fəaliyyətindəki irəliləyişin, hərəkətlərinin tempində dürtüselliyə ehtiyac duyulduğu, alternativ metodların və düzgün tədris istiqamətlərinin müəyyənləşdirilməsində ehtiyac duyulan prosesi (formativ qiymətləndirmə).* | Formativ qiymətləndirmə, alternativ tədris metodlarını axtarmaq. |
| Cəbrayılov İ.H. | *Şagirdlərin uğurlarını qiymətləndirən bir proses təkcə təhsil biliklərinin, bacarıqlarının səviyyəsini deyil, həm də mənavi keyfiyyətlərinin və liderlik qabiliyyətlərinin səviyyəsini.* | Tələbə biliyinin qiymətləndirilməs, diaqnostikası. |
| Cavadov İ.Ə. | *Şagird fəaliyyətinin qiymətləndirilməsində, ümumi təhsil anlayışı nəzərə alınmaqla, şagirdlərin təhsil nailiyyətlərinin nəticələri barədə sistemli şəkildə məlumatlandırılmasında şəffaflığı təmin edən bir prosesi.* | Təhsilin inkişaf səviyyəsini qiymətləndirmə prosesi. |
| Bəylərov E.B. | *Təhsil standartlarına uyğun olaraq bütün fənlər üzrə şagird nailiyyətlərinin qiymətləndirilməsi, eləcə də təhsilin keyfiyyətini yüksəltmək üçün tədrisin pedaqoji problemləri sahəsində qiymətləndirməni.* | Bütün fənlər üzrə şagird biliklərinin qiymətləndirilməsi. |

Azərbaycanlı və rus alim-pedaqoqların təhsildə monitorinq qiymətləndirməsinə dair mülahizələrini təhlil edərək şagird nailiyyətlərini qiymətləndirmə mexanizminin təşkili üçün əsas komponentlərin nəzəri-praktik əsaslarını müəyyənləşdirmək olur (cədvəl 2.2.5.).

**Cədvəl 2.2.5.** T. Hacıyevaya görə *monitorinqin üç əsas komponentləri*.

| **Komponentlər** | **Onların şərtləri** |
|---|---|
| *1. Məlumat toplanması.* | Təhsil keyfiyyətinin monitorinqi yalnız etibarlı məlumatların toplanması sayəsində həyata keçirilə bilər. Belə məlumatların mənbəyi müxtəlif ola bilər: əsasən, qiymətləndirmə, bəzən isə hər hansı bir sorğunun və ya tədqiqatın nəticələri və s. Əsas məqsəd təhlil obyekti ola biləcək məlumatların toplanmasıdır. |
| *2. Məlumatların təhlili.* | Məlumatların təhlili elə həyata keçirilməlidir ki, bu təhlil problemlərin aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsinə kömək etsin. |
| *3. Görülən tədbirlər.* | Monitorinq nəticəsində görülən tədbirlərə ehtiyat tədbirləri, islahedici tədbirlər və gücləndirici tədbirlər aiddir. Tədbir görmədən məlumat toplamaq və ya toplanan məlumatları yalnız təhlil etmək tədqiqat baxımından əhəmiyyətli ola bilər. |

Bununla deyə bilərik ki, şagird biliyinin adi qiymətləndirilməsindən monitorinqin fərqli bir xüsusiyyəti var. O xüsusiyyət ondan ibarətdir ki, monitorinq

təlimin istənilən dövründə şagird nailiyyətlərinin səviyyəsini qiymətləndirməyə imkan verir, vəziyyətini müəyyən edir və onların inkişafı üçün proqnoz verən məlumatları tez bir zamanda toplayır, işləyir, saxlayır və yayır. Belə ki, monitorinqin nəticələrindən proses davam edərkən prosesin səmərəliliyində, müəyyən düzəlişlərin edilməsində istifadə etmək mümkündür.

Monitorinqi şagirdlərin biliklərinin mənimsəmə dərəcəsini müəyyənləşdirən üç bloka (səriştənin komponentlərinə) bölmək olar. Şagirdlərin bilik səriştələrinin formalaşma səviyyəsi onların nailiyyətlərinin səviyyələrini əks etdirir (cədvəl 2.2.6.).

**Cədvəl 2.2.6.** S.N. Kornevə görə üç monitorinq blokları (komponentləri).

| Bloklar (komponentlər) | Onların xarakteristikası |
|---|---|
| *1. İdrak komponenti (bilik və anlayış)* | Yetkinliyin idrak komponenti iki parametrlə təmsil olunur: deklarativ bilik (terminologiya, qaydalar və s. bilikləri əks etdirən Nə?) və prosedur bilik (Necə?) |
| *2. Fəaliyyət komponenti (biliklərin praktik və operativ tətbiqi)* | Fəaliyyət komponenti, müəyyən bir səriştənin formalaşma səviyyəsini müəyyənləşdirməyə imkan verən fəaliyyətlərin həyata keçirilməsini izləmək üçün müəyyən bir səriştəyə xas olan tələbələrin fəaliyyət növlərini əks etdirir (necə fəaliyyət göstərir: bilik, bacarıq). |
| *3. Şəxsi komponent (şəxsi keyfiyyətlər, münasibətlər, dəyər yönümləri)* | Fərdi komponent şagirdlərin müəyyən səriştəyə xas olan fərdi keyfiyyətlərinin təzahürünü əks etdirir. |

Cədvəli (2.2.6.) təhlil edərək, bu nəticəyə gələ bilərik ki, monitorinq şagirdləri müəyyən bir mövzu biliklərinə həvəsləndirir. Burada müəllim monitorinqdən istifadə edərək şagirdlərin səriştələrinin səmərəliliyini intensiv və effektiv şəkildə yoxlayır (bilikləri və oxuduqları mövzunu başa düşmə dərəcəsi, biliklərini praktikada tez tətbiq etmək bacarığı, müəyyən bir mövzuda tapşırıqları müstəqil həyata keçirmək bacarığı). Beləliklə, müəllim monitorinq vasitəsilə şagirdlərin nailiyyətlərinin inkişaf prosesini izləyərək düzəldir və proqnozlaşdırır. Əsas odur ki, şagirdlərin fənlər üzrə biliklərə marağını formalaşdırmaq üçün məlumat əldə edir, öyrənilən mövzu sahəsində ən yaxşı nailiyyətlərə həvəslərini artırır.

Monitorinq alqoritmini ali məktəblər mövqeyindən nəzərdən keçirək. Onların hər biri ayrıca bir komponenti təmsil edir, vəhdətdə prosedurları əks etdirən vahid bir mexanizm təşkil edir (cədvəl 2.2.7.).

**Cədvəl 2.2.7.** V.I Gorbuya görə monitorinq dövrləri (komponentləri) .

| **Birinci dövr (komponent) - təcrübəli axtarış** |
|---|
| *Əsas məqsəd*:<br>Nəzəri əsaslandırma, praktik həyata keçirilməsi və əsas monitorinq prosedurlarının pedaqoji əhəmiyyətinin və ya effektivliyinin sübutu.<br>*Quruluş xarakteristikası*.<br>Təcrübəli axtarış komponenti, bir qayda olaraq, aşağıdakı mərhələləri əhatə edir: hazırlıq, uyğunlaşma, ilkin diaqnostika, əsaslı-texnoloji, yekun diaqnostika. |
| ***İkinci dövr (komponent) - konstruktiv təşkilati*** |
| *Əsas məqsəd*:<br>Universitetin tədris fəaliyyəti praktikasında pedaqoji cəhətdən səmərəli və effektiv monitorinq prosedurlarının həyata keçirilməsini təmin etmək aşağıdakı mərhələlərdən ibarətdir: normativ, təşkilati, elmi və metodiki.<br>*Quruluş xarakteristikası*.<br>Normativ mərhələdə universitetin tədris prosesində pedaqoji monitorinq texnologiyasının tətbiqi üçün müddəalar və təlimatlar hazırlanır. Bu sənədlər tədris prosesinin bütün fənləri üçün məcburi olan fakültə iclasının müzakirəsinə təqdim olunur.<br>Təşkilat mərhələsinin əsas məqsədi qəbul edilmiş normativ sənədlərin icrasını təmin etməkdir. Bu, əsas vəzifəsi monitorinqin təşkili və aparılması olan iş planlarına dəyişikliklər və dəqiqləşdirmələr etmək üçün universitetin struktur bölmələri arasında funksiyaların yenidən bölüşdürülməsini tələb edir.<br>Monitorinq nəticələri ilə işləmə səviyyəsi elmi əsaslarla monitorinq nəticələrini təqdim edən və bununla da universitetdə tədris prosesinin yaxşılaşdırılması üçün tövsiyələr hazırlayan elmi və metodik konfransların keçirildiyi elmi-metodik mərhələ ilə müəyyən edilir. |

Cədvəlin (2.2.7.) məzmununun şərhinə əsaslanaraq, şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində məktəb monitorinqinin təşkili mexanizminin nəzəri-praktik əsaslarını ümumiləşdirə bilərik. Həmin əsasları model şəklində əks etdirmək olar. "Şagird qiymətləndirməsində məktəbdaxili monitorinqin təşkili" adlanan bir modellə (cədvəl 2.2.8.) tanış olaq. Bu model qiymətləndirmə monitorinqinin işində mərhələ kimi çıxış edən komponentlərin quruluşunu göstərir. Hər bir mərhələ fərdi olaraq təhsil prosesinin vəziyyətini proqnozlaşdırmağa imkan verir, düzəlişləri və tədris fəaliyyətinin uğurunu qiymətləndirməyə kömək edir.

Cədvəlləri (2.2.7.) və (2.2.8.) təhlil edərək, "Şagird qiymətləndirməsində məktəbdaxili monitorinqin təşkili" adlanan modeldə sistemli monitorinq formalaşdıra bilərik.

**Cədvəl 2.2. 8.** "Şagird qiymətləndirməsində məktəbdaxili monitorinqin təşkili" modeli.

<table>
<tr><td colspan="3">Koordinasiya mərhələsi:<br>Şagirdlərin təhsili və tərbiyəsini yaxşılaşdırmaq üçün pedaqoji prosesin keyfiyyətinə nəzarət üçün şərait və istiqamətləri tənzimləyən məktəbin pedaqoji şurası (direktor, tədris və tərbiyə işləri üzrə direktor müavinləri, fənn müəllimləri, məktəb sosioloq-psixoloqu, valideyn komitəsi, məktəb mütəxəssisi, şagird komissiyası) yaradılır.</td></tr>
<tr><td colspan="3">Təşkilat mərhələsi:<br>- qəbul edilmiş normativ sənədlərin icrasını təmin edir;<br>- məktəbin struktur komissiyaları arasında funksiyaları bölüşdürür;<br>- təyin olunmuş məsul şəxslərin iş planlarına dəyişikliklər və aydınlıq gətirir;<br>- monitorinqin təşkili və aparılması üçün əlavə ekspert qrupları yaradır.</td></tr>
<tr><td>Hazırlıq mərhələsi:</td><td>Praktik mərhələ:</td><td>Analitik mərhələ:</td></tr>
<tr><td>- monitorinqin məqsədini, obyektini, istiqamətini müəyyənləşdirir;<br>- məlumat toplamaq üçün vahid alət dəsti, meyarlar və onların göstəriciləri, məlumatların və cavabdeh şəxslərin təqdim edilmə müddəti hazırlanır.</td><td>- məlumat toplamaq və sistemləşdirmə üsullarını özündə cəmləşdirir (müşahidə, sənəd təhlili, dərsə davamiyyət, anket, test, ekspert görüşləri).</td><td>- məlumatları emal və təhlil edir;<br>- tövsiyələr verir;<br>- idarəetmə qərarı təqdim edir.</td></tr>
<tr><td colspan="3">Şagird öyrənməsinin qiymətləndirmə meyarı:<br>- akademik göstəricilər (təhsil standartı nəzərə alınmaqla);<br>- təhsil prosesi zamanı əldə olunan ünsiyyət bacarıqlarının (fərdi əldə etmə) ustalığı;<br>- müvəffəqiyyət əldə etməyə və ona qoşulmağa hazır olmağa yönəlmiş təhsil fəaliyyətlərinin motivlərinin formalaşdırılması.</td></tr>
<tr><td colspan="3">Elmi-metodik mərhələ:<br>- elmi-metodik seminar və konfranslar keçirir;<br>- sübutlara əsaslanan monitorinq nəticələrini təqdim edir;<br>- məktəbdə tədris prosesinin təkmilləşdirilməsi üçün tövsiyələr hazırlayır.</td></tr>
<tr><td colspan="3">Şagirdlərin özünü inkişaf prosesi mərhələsi:<br>- öz təhsil nailiyyətlərinin dinamikasının əksetdirmə bacarıqlarını və özünə hörmətini artırır;<br>- təqdimat yolu ilə şəxsi akademik uğurlarını nümayiş etdirir. Təhsil nailiyyətlərinin nəticələri şagird portfoliosunda qeyd olunur ("Müvəffəqiyyət gündəliyi", "Hesab gündəlikləri", "Özünüqiymətləndirmə gündəliyi", "Uğurlar gündəliyi").</td></tr>
</table>

Niyə? Ona görə ki, sistemli monitorinqin strukturuna iki əsas komponent daxildir:

1) Nəticələndirən (şagird nailiyyətinin meyarları və göstəriciləri təhsilin müxtəlif pillələrində təlim nəticələrinin keyfiyyətini izləməyə imkan verir);

2) Proseslədirən (şagird nailiyyətinin meyarları və göstəriciləri, məktəbdə oxumaq üçün yaradılan şəraitin keyfiyyətini: tədris fənlərinin keyfiyyətini, maddi-texniki bazanın keyfiyyətini və s. izləməyə imkan verir).

Sistem monitorinqi reytinq kimi bir üsul irəli sürür. Məktəblərin reytinqini

artırmaq üçün müəyyən bir bölgənin digər ümumtəhsil məktəbləri arasında reytinq monitorinqinin aparılmasının böyük əhəmiyyəti var.

*Sual*. Məktəb reytinqi nəyi əks etdirir?

*Cavab*. Məlumdur ki, şagirdlər yüksək nailiyyətlərin, müəllimlər isə tədris metodikasının keyfiyyətinin qiymətləndirilməsinə səy göstərirlər. Bu mövqedən, monitorinq vasitəsilə məktəb reytinqi onlar üçün kəmiyyət xüsusiyyətləri və son göstəricilərin hesablanması üçün bir alqoritm tapır. Nəticə olaraq, məktəb reytinqi müəyyən bir məktəbin pedaqoji işin uğurlarının dövlət standartına nə dərəcədə uyğun gəldiyini təqdim edən bir göstəricidir. Nümunə olaraq, "Məktəb keyfiyyətinin qiymətləndirilməsinin monitorinqi" adlanan məktəblərarası tematik layihəni təqdim edirik (cədvəl 2.2.9.). Bu layihənin məqsədi - orta məktəblərin reytinqini şagird nailiyyətləri və fənn tədrisinin keyfiyyəti üzrə müəyyən etməkdir.

**Cədvəl 2.2.9.** Məktəblərarası reytinq monitorinqi.

| **Məktəb keyfiyyətinin qiymətləndirilməsinin monitorinqinin tematik layihəsini təqdim edirik:** | |
|---|---|
| 1. "Oldu - oldu" dinamikasında əlaçı şagirdlər və ən yaxşı müəllimlərin sayı.<br>2. Müəyyən bir mövzu üçün tədris metodikasının obyektivliyi, əsaslılığı və etibarlılığı.<br>3. İştirak edən məktəblər üçün pedaqoji resurs:<br>- fənn müəllimləri üçün məlumat;<br>- şagirdlər üçün məlumat;<br>- müəyyən bir fənn üzrə "şagird nailiyyəti" nin rəqabət hissəsi (bilik və bacarıqlar). | |
| *Layihənin məqsədləri:* | - "İlin ən yaxşı məktəbi" adını qazanmaq;<br>- məktəbin təlim prosesinin keyfiyyətini müəyyən bir fənn üzrə tədris metodikasını nümayiş etdirmək;<br>- şagirdlərin yüksək nailiyyətlərini göstərmək. |
| *Layihənin əsas məsələləri:* | - yalnız təhsil nailiyyətlərinin idrak (bilik) və fəaliyyət (bacarıq) komponentlərinə deyil, həvəsləndirici-dəyər (hazırlıq və münasibət) komponentlərinə də diaqnostikanı qoymaq;<br>- şəxsiyyətyönümlü yanaşma tətbiq etmək (motivlərə istiqamətlənmə, şagird ehtiyacları və şəxsi təcrübə);<br>- stimullaşdırıcı funksiya vermək, gələcəkdə nailiyyətlərinin böyüməsini təmin etmək;<br>- tədris prosesinin iştirakçılarına akademik intizamın inkişafındakı uğurları möhkəmləndirmək və boşluqları doldurmaq üçün iş istiqamətlərinə rəhbərlik etmək;<br>- şagirdin öz nailiyyətləri üzərində düşünmək istəyini, bilik və bacarığını inkişaf etdirmək. |

Beləliklə, bu cür məktəblərarası reytinqlər orta məktəblər üçün şagird nailiyyətlərinin və müəllimlərin tədris metodikasının keyfiyyətinin yüksəldilməsində, həm də təlim prosesinin məhsuldarlığının artırılmasında böyük praktik əhəmiyyət daşıyır.

Cədvəllərin (2.2.8.) və (2.2.9.) məzmununu təhlil edərək, monitorinqin alət dəstlərini ümumiləşdirmək mümkündür. Bu alətlər vasitəsilə şagird nailiyyətinin qiymətləndirilməsi mexanizmi səmərəli şəkildə təşkil edilir (sxem 2.2.1).

**Sxem 2.2.1.** Monitorinq alətləri - onun komponentlərinin əsası kimi




Sxem (2.2.1.) göstərir ki, bu alətlərdən istifadə edərək, bütün monitorinq nəticələri müqayisə olunur. Belə bir müqayisə, məsələn, şagirdlərin akademik göstəricilərinin həqiqi qabiliyyətləri ilə uyğun gəlməməsinin səbəblərini müəyyən etməyə imkan verir. Həmçinin, nailiyyətlərin dinamikasını izləməklə müəllimlərə intensiv və effektiv kömək edir. Şagirdlərə lazım olan fənlər barədə tam məlumat əldə etmək imkanı yaranır. Şagirdlərin öz nailiyyətlərini inkişaf etdirmək üçün motivasiyası yüksəlir.

Beləliklə, bu məzmunun elmi-nəzəri və praktik əsaslarını ümumiləşdirərək, aşağıdakı nəticəyə gəlirik:

- hər bir komponent monitorinqin tərkib hissəsidir. Komponentlər monitorinq prosedurlarını əks etdirir və bütövlükdə onun mexanizmini təşkil edir. Şagird nailiyyətlərinin qiymətləndirmə monitorinqini həyata keçirməyə imkan verən komponentlərin rolu aşağıdakılardan ibarətdir:

• tədqiq olunan obyektin vəziyyətini göstərir;

• fənn biliklərinin göstəricələrini nəticələndirir;

• akademik nailiyyətlərin nəticələrinin dəyişməsini kəmiyyətcə müəyyənləşdirir və inkişaf istiqamətlərini proqnozlaşdırır;

• nailiyyətlərin irəliləyişində optimal pedaqoji imkanları irəli sürür.

## 2.3. Şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin praktik əhəmiyyəti

Məktəb təhsilinin keyfiyyəti dövlət standartının tələblərinə uyğun olaraq şagirdlərin nailiyyəti ilə müəyyən edilir. Əlbəttə ki, keyfiyyəti müəyyənləşdirməyin açarı monitorinqdir.

**Bu gün məktəb praktikasında şagird nailiyyətlərinin qiymətləndirilməsində aparılan monitorinq xüsusi yer tutur. O, şagirdlərin inkişaf səviyyəsini vaxtaşırı izləyir və bu istiqamətdə nəticələrin qiymətləndirilməsi və proqnozlaşdırılması prosesini həyata keçirir, lazımi məlumatları obyektiv və sərfəli şəkildə təmin edir, içində baş verən bütün dəyişiklikləri tez bir zamanda ortaya qoyur. Əldə edilən məlumatlar həm şagird, həm də müəllim fəaliyyətində uğur qazanmaq üçün faktik materialdır.**

Ümumtəhsil məktəbləri üçün monitorinqin praktik əhəmiyyəti onu da vurğulayır ki, istənilən tədris dövründə "şagird fəaliyyətinin qiymətləndirilməsini izləməklə əldə edilmiş məlumatlar əsasında məktəbin fəaliyyətinin real vəziyyətini sistemli və obyektiv proqnozlaşdırmaq mümkündür" və əlbəttə ki, bu kimi suallara (Şagirdin təhsilində məktəbin təhsil keyfiyyəti necədir? Dövlət standartlarına uyğun olaraq onu necə tez müəyyənləşdirmək olar? Bu sahənin keyfiyyətini necə idarə etmək olar?) cavab almaq üçün monitorinq məqsədəuyğun və məqsədyönlüdür. Bu baxımdan, şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsində monitorinq effektiv vasitə kimi təsdiqlənmişdir. Beləliklə, demək olar ki, şagird nailiyyətlərinin keyfiyyətini yüksəltmək üçün məktəbdaxili daimi nəzarəti saxlayan monitorinq xidməti lazımdır.

Məktəbdə monitorinq xidməti aşağıdakı üç aspektdə əsas vəzifələrini həyata keçirir:

1) *didaktik aspekti* (şagirdlərin fənn bilikləri səviyyəsi vurğulanır, həqiqi vəziyyəti də qiymətləndirilir);

2) *təlim aspekti* (tədris materialının mənimsənilməsi ilə bağlı bütün işlər aktivləşdirilir, geri bildirim imkanlarından istifadə olunur, təlim materialının çatışmazlıqları üzərində iş aparılır);

3) *tərbiyə aspekti* (nəzarət mövcudluğu şagirdlərin akademik fəaliyyətini təşkil edir və istiqamətləndirir).

*Sual:* Məktəbdaxili monitorinq xidməti təşkilinin texnologiya alqoritmi necə ola bilər?

*Cavab*. Məktəbdaxili monitorinq xidmətinin təşkili texnologiyası aşağıdakı ardıcıl addımların alqoritminə əsaslanır: "1-ci addım - qiymətləndirmə monitorinqi prosedurunun seçimi və hədəf parametrlərinin təyin edilməsi; 2-ci addım - mövzuların müəyyənləşdirilməsi və qiymətləndirmə prosedurundakı rolu (qiymətləndirmə prosedurunun həyata keçirilməsində müəllimlərdən kimlərin cəlb ediləcəyi respondentlər, ekspertlər kimi); 3-cü addım - monitorinq məzmununun seçilməsi, yəni qiymətləndirmə prosedurunun obyektləri və qiymətləndirmə vasitələrinin inkişafı; 4-cü addım - qiymətləndirmə proseduru metodunun seçimi; 5-ci addım - qiymətləndirmə prosedurunun vaxtının əlaqələndirilməsi; 6-cı addım - qiymətləndirmə monitorinqi prosedurunun həyata keçirilməsi; 7-ci addım - qiymətləndirmə prosedurunun nəticələrinin emalı və təhlili; 8-ci addım - monitorinq nəticələrinə əsasən qərar qəbul edilməsi."

Məktəbdaxili monitorinq xidmətinin təşkilati mexanizmini nəzərdən keçirək. Necə? Aşağıdakı dörd hərəkətdən ibarət olan ayrıca qiymətləndirmə proseduru nümunəsi:

*Birinci hərəkət* - qiymətləndirmə prosedurunun seçilməsi və məqsədlərinin müəyyənləşdirilməsidir. Tutaq ki, məktəbdə tədrisin keyfiyyəti və şagirdlərin nailiyyətləri barədə məlumata ehtiyacı var. Bununla əlaqədar olaraq qiymətləndirmə proseduru kimi "Məktəbdə tədris fənlərinin keyfiyyətinin monitorinqi"nin seçilməsi tövsiyə olunur. Belə bir hərəkətin məqsədi məktəblərdə tədris fənlərinin və şagirdlərin nailiyyətlərinin səviyyəsini müəyyənləşdirməkdir.

*İkinci hərəkət* onun subyektlərini müəyyənləşdirir. Subyektlər, ilk növbədə, şagirdlərin özləri, eləcə də valideynləri olmalıdır, onlar mütəxəssis kimi çıxış edirlər. Bu, şagirdlər və onların valideynləri tərəfindən məktəbin rəhbərliyinə inam nümayiş etdirmək, müəllimlərin işlərinə daha ciddi münasibət göstərmək, şagirdlərin nailiyyətlərinin inkişafı üçün şərait yaradır.

*Üçüncü hərəkət* monitorinq məzmununun, yəni onun obyektlərinin seçilməsidir. Keyfiyyəti nəzərə alınan əsas obyekt hər bir fənnin tədrisi və tədris prosesində idarəetmə təsirinin dəyişdirilməsi planlaşdırıldığı iddia olunan

problemli sahələrdir. Buna görə məktəblərdə tədris fənlərinin keyfiyyətinin monitorinqi obyekti dövlət tədris standartında, əsas təhsil proqramında və məktəbin digər normativ sənədlərində müəyyən edilmiş tədris prosesinin təşkili üçün şagirdlərin xüsusi nailiyyətləri olmalıdır.

*Dördüncü hərəkət* izləmə metodunun seçilməsidir. Ən çox yayılmış və olduqca sadə bir üsul blank şəklində olan bir anketdir.

Beləliklə, orta məktəblərin tədris prosesinin inkişaf keyfiyyətini yüksəltmək üçün monitorinq xidmətinin olması şagird nailiyyətlərinin qiymətləndirilməsində məqsədyönlü əlavə təhsil mühitidir. Əsas odur ki, o, bu sahədə sabitlik yaradır. Məktəbdə monitorinq xidməti monitorinqin praktik əhəmiyyətini göstərir.

**Sxem 2.3.1. Məktəbdaxili monitorinq xidmətinin təxmini quruluşu.**




Sxemin məzmununu (2.3.1.) ümumiləşdirərək, belə bir nəticəyə gələ bilərik ki, monitorinq prosedurlarını hərəkətə gətirən illik dövrəlilikdir (tsikloqramdır).

Qeyd edək ki, məktəb praktikasında bu cür monitorinq zəruri məlumatların toplanması, işlənməsi, saxlanması və istifadəsinin bütün mərhələlərində müasir informasiya texnologiyalarının geniş yayılmasını əhatə edir.

Beləliklə, müvafiq prosedurları həyata keçirərək, monitorinq aşağıdakı funksiyaları yerinə yetirir:

- təhsil proqramlarına uyğun olaraq təlimdən məmnunluq yaradır, bütün fənn dərslərində psixoloji mühit yaradır, habelə şagird və müəllim, məktəb və valideynlər arasındakı qarşılıqlı təsir diaqnostikasını qoyur;

- şagirdlərin, müəllimlərin və valideynlərin təklif olunan yeniliklərlə əlaqəsini proqnozlaşdırır, həmçinin şagird nailiyyətlərində sonrakı dəyişiklikləri gözləməyə kömək edir;

- müəllim heyətinin fəaliyyətinin və idarəetmə qərarlarının təkmilləşdirilməsi ilə bağlı tövsiyələr hazırlayır;

- şagird nailiyyətində əlavə təhsil xidmətlərinə tələbatı təmsil edir, məktəbin real təkliflərinin bu nailiyyətdə müəyyən edilmiş ehtiyaclara uyğunluğunu təhlil edir.

Bununla demək olar ki, məktəb praktikasında bu cür monitorinq xidməti zəruridir. Bundan başqa, şagird nailiyyətlərinin qiymətləndirilməsində müvafiq fəaliyyətin təmin edilməsi, vəziyyətin müntəzəm izlənilməsi, mütəmadi olaraq nizamlanması və inkişafın təmin olunması prosesidir. Burada qiymətləndirmə ilə yanaşı, qiymətləndirmənin nəticələri nəzərə alınaraq keyfiyyət göstəricilərini yüksəltmək üçün müəyyən korreksiya işlərinin aparılması nəzərdə tutulur və planlı şəkildə həyata keçirilir.

Monitorinq dəstəyi nəinki məlumat toplamaq, emal etmək, təhlil etmək və saxlamaq, vəziyyəti düzəltmək və proqnozlaşdırmaq sistemi vasitəsilə hər bir şagirdin nailiyyətlərinin inkişaf səviyyəsinin davamlı izlənilməsini təmin edir, həm də müəllim öz fənninin tədris metodikasının səmərəliliyini, pedaqoji formaların ən yaxşı seçimini, şagirdlərin mənimsəmə keyfiyyətini artırmaq üçün daimi monitorinq təşkil edir. Burada güclü şagirdlər üçün monitorinq dəstəyi əlaçının reytinqini artırır. Zəif şagirdlər üçün isə monitorinq səylərin sabitliyini təmin edir, fəaliyyət prosesinin keyfiyyətinin yaxşılaşdırılmasına zəmin yaradır. Bu da məktəbdə monitorinq dəstəyinin böyük praktik əhəmiyyətini əsaslandırır.

Bunu da qeyd edək ki, monitorinq dəstəyi prosesində şagirdlərin nailiyyətlərini inkişaf etdirmək məqsədilə müəllimlərə aşağıdakı qiymət növlərindən istifadə edilməsi tövsiyə olunur. Ona görə ki, bu fərqli qiymətləndirmə növləri müəllimə öz fənninin tədrisi metodikasını təkmilləşdirməyə kömək edir (sxem 2.3.2.).

**Sxem 2.3.2 Məktəbdaxili monitorinqin qiymətləndirmə növləri.**




Beləliklə, sxem (2.3.2.) göstərir ki, məktəbdaxili monitorinqin qiymətləndirmə növləri şagirdlərin qazandıqları biliyin səviyyəsini müəyyənləşdirməkdə müəllimə kömək edir:

1) Şagirdlərin müəyyən tədris fənləri üzrə bilik səviyyəsinə dair etibarlı və adekvat göstəricilər əldə etmək (Şagirdlər materialı kifayət qədər mənimsəyirlərmi? Onlardan istifadə edə bilirlərmi? Düzgün bilik səviyyəsindədirlərmi?).

2) Müəllimə öz fənninə dair sual verərək, mövzu üzrə tədris metodikasını inkişaf etdirməyin yollarını və imkanlarını müəyyənləşdirmək (Mövzunu öyrətməyə davam etməli və ya bir hissəsində dayanıb bu hissəyə daha çox diqqət yetirməli? Şagirdlər biliklərini tətbiq edə bilirlərmi və ya əlavə təlimə ehtiyac varmı? Varsa, bu cəhətdən ən yaxşı seçim kimi bu seçimlərdən ən uyğun olanı hansıdır? Əgər belədirsə, bəzi və ya bütün şagirdlər üçün planlaşdırılan təlimi sürətlə həyata keçirmək mümkün olacaqmı?).

Bütövlükdə monitorinq xidmətinin məzmununu təhlil edərək ümumi bir nəticəyə gəlirik ki, məktəb praktikasında bunun böyük əhəmiyyəti var (vaxtaşırı qiymətləndirmə nəticələrinin monitorinqini aparır; təhsil prosesinin gözlənilən vəziyyətini proqnozlaşdırmağa imkan verir, şagirdlərin nailiyyətlərində islah və tədris fəaliyyətinin uğurlarını qiymətləndirməyə kömək edir). Əsas odur ki, bu, müxtəlif qiymətlərin köməyi ilə müəllim öz

tədris metodikasının güclü və zəif tərəflərini müəyyənləşdirir, şagird nailiyyətində tədris prosesinin təşkilini yaxşılaşdırır. Bu da monitorinqin məktəbdə praktik əhəmiyyətini ifadə edir (sxem 2.3.3.).

**Sxem 2.3.3. Məktəbdə monitorinqin praktik əhəmiyyəti.**




Sxem (2.3.3.) göstərir ki, məktəbdə monitorinqin praktik əhəmiyyəti çox böyükdür. Onun vasitəsilə şagird nailiyyətlərinin keyfiyyətinin yüksəldilməsinə əlverişli şərait yaradılır. Onun məqsədi - şagird nailiyyətlərini izləmək üçün alınan məlumatların əhəmiyyətini müəyyənləşdirməkdir. Onun əsas vəzifələri: monitorinqin istiqamətləri üzrə xüsusi material toplamaq və sistemləşdirmək; şagird nailiyyətlərinin keyfiyyətini izləmək üçün monitorinqi planlaşdırmaq və həyata keçirmək; əldə olunan məlumatları ümumiləşdirmək, perspektivli nəticələr çıxarmaq. Onun nəticəsi - xüsusən, şagirdlərin nailiyyətlərini inkişaf etdirmək məqsədilə təlim-tərbiyə prosesinin uğurunu əyani şəkildə nümayiş etdirən yaxşı təqdim olunmuş nəticələrin keyfiyyətcə təhlilidir, tədris metodikasının məzmununun tənzimlənməsini optimallaşdırmağa imkan verməkdir,

Beləliklə, bu məzmunun elmi-nəzəri və praktik əsaslarını ümumiləşdirərək, aşağıdakı nəticəyə gəlmək olar:

- məktəbdə monitorinqin praktik əhəmiyyəti ondan ibarətdir ki, o, verilən bütün dövlət tapşırıqlarının həllində mühüm rol oynayır. Monitorinq olmadan həm müəllimin, həm də bütövlükdə məktəbin fəaliyyətini, xüsusən, şagird nailiyyətlərini qiymətləndirmək çətindir. Şagird nailiyyətlərinin qiymətləndirilməsinin monitorinqinin praktik əhəmiyyəti onun mexanizminin fəaliyyətində əsaslandırılmışdır (şagirdlərin fənn biliklərini daim izləmək, məlumatları toplamaq və təhlil etmək, çatışmazlıqları müəyyənləşdirmək,

formalaşdırılmış məlumatları qiymətləndirmək, nəticələrini gözləmək, proqnoz vermək, müəllimlərə kömək etmək üçün təkliflər vermək, şagirdlərin təhsil nailiyyətlərinə dəstək vermək).

Ümumpedaqoji aspektdə aparılan araşdırmalar aşağıdakı nəticəyə gəlməyə imkan verir:

1. Pedaqoji prosesdə şagird nailiyyətlərinin qiymətləndirilməsi sistemli şəkildə həyata keçirilərək şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsi müəyyənləşdirilir, müəllimlərin hazırlıq səviyyəsi və pedaqoji fəaliyyətinə dair məlumatlar əldə edilir, təlimin məzmunu, metodları və səmərəliliyinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsi təmin olunur. Eləcə də idarəetmə texnologiyalarında yol verilən nöqsanların aradan qaldırılmasına və ya qabaqcıl təcrübələrin öyrənilərək yayılmasına, ictimaiyyətin təhsilə münasibətinin öyrənilməsinə və qərarların qəbuluna, təhsil standartlarında müəyyən dəyişikliklərin edilməsinə imkanlar yaranır.

2. Şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin məqsədi şagirdlərin deklarativ, prosedural, kontekstual biliklər səviyyəsini öyrənməklə müvəffəqiyyət və geriliyi müəyyənləşdirməyə, eləcə də geriliyin aradan qaldırılması mexanizmini izləməyə xidmət edir.

3. Şagird nailiyyətlərinin qiymətləndirilməsi məqsədəuyğunluq, qarşılıqlı dəyərləndirmə, müvafiqlik və etibarlılıq, inkişafyönümlülük, şəffaflıq və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanır. Bu prinsiplərdən irəli gələrək şagird nailiyyətlərinin qiymətləndirilməsi zamanı aşağıdakı vəzifələr həyata keçirilir:

- tam milli sistem yaradılır;
- qiymətləndirmə təlim və tədrisin ehtiyaclarını ödəyir;
- təhsilin keyfiyyəti haqqında obyektiv məlumatlar əldə edilir.

4. Qiymətləndirmə monitorinqi komponentləri qiymətləndirmə mexanizmində bir-birini tamamlayırlar. Bütövlükdə, monitorinq komponentləri şagirdlərin planlaşdırılan nailiyyətlərinə nail olmalarının keyfiyyətini qiymətləndirmək üçün qiymətləndirmə sisteminin prosedurlarından ibarətdir, biliyinin məhsuldarlığını artırmaq üçün hər bir şagirdin qazandığı nailiyyətlər barədə məlumatların təsviri, toplanması, qeydiyyatı və şərhi üçün prosedurları həyata keçirir.

5. Şagird nailiyyətlərinin qiymətləndirilməsi monitorinqinin praktik

əhəmiyyəti ondan ibarətdir ki, şagirdlərin fənlərə dair biliklərini daim izləyir və ən əsas vəzifələri yerinə yetirir, hər bir şagirdin bilik tərəqqisinin dəqiq nəticələrini izah edir, obyektiv və ətraflı qiymətləndirmə məlumatlarını təqdim edir, həmçinin, müəllimə müvafiq tədris metodikasını seçməyə kömək baxımından məlumat verir.

Tədqiqatdan irəli gələn təkliflər aşağıdakılardır:

Məktəbdə monitorinq təlim-tərbiyə işinin, xüsusən, şagird nailiyyətlərinin mövcüd vəziyyətini məqsədəuyğun təyin edir. Bu baxımdan, hər bir müəllimin öz fənni üzrə monitorinqdən tez-tez istifadə etməsi məsləhətdir. Bununla, o, fərdi qabiliyyətləri nəzərə alınmaqla şagird nailiyyətlərinin obyektiv dinamikasını müəyyənləşdirir, daim tənzimləmək və dinamikanın təhlilinə əsaslanaraq şagirdlərin uğurlarının inkişafı üçün tədris metodikasının keyfiyyət şərtlərini təyin edir.

Həmçinin, fənn üzrə həm təlim səviyyəsini, həm də öyrənmə səviyyəsini müəyyənləşdirir, bununla da şagirdin və ya bütövlükdə sinfin güclü-zəif cəhətlərini öyrənir, boşluqları doldurur, şagird nailiyyətlərinin inkişafı üzrə metodik materiallar hazırlayır.

## İstifadə edilmiş ədəbiyyat


1. Abbasov A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2010, 344 s.

2. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)// Azərbaycan məktəbi, 2007, №2, s. 5.

*3. Azərbaycan Respublikasının Təhsil Qanunu // 19 iyun 2009-cu ildə qəbul edilmişdir. – Bakı: Təhsil xəbərləri, - 2009. № 6, - s. 12-57.*

4. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. URL: *edu.gov.az/az/page/78/406 (05.12.2010).*

*5.* Bəylərov E.B. Riyaziyyat təlimi üzrə şagird nailiyyətlərinin və qiymətləndirilməsində praktik fəalyyətə dair // Kurikulum, 2008, № 2.

6. Cavadov İ.A. Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar // Azərbaycan məktəbi. Bakı, 2014, № 4, s. 37-41.

7. Cəbrayılov İ.H. Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar. Bakı: Mütərcim, 2019, 276 s.

8. Əhmədov A.Ə., Şərifov T., Abbasov E.M. Şagird nailiyyətlərinin qiymətləndirməsi: (müasir baxışlar və konseptual yanaşmalar) // "Kurikulum" jurnalı, 2008 № 1, s. 86-87.

9. Hacıyeva T. Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti. Qəzet: "Azərbaycan müəllimi", 2011, 18 mart, s.10.

*10.* Mərdanov M.C., Ağamalıyev R.A., Mehrabov A.O., Qardaşov T.B. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2003, 468 s.

11. Mikayılova K.V. Təhsil standartları və milli qiymətləndirmə sisteminin əsas mahiyyətinə dair / Doktorantların və Gənc tədqiqatçıların XV Respublika Elmi konfransının materialları. Bakı: Bakı Universiteti, 2011, s. 254-255.

12. Mikayılova K.V. Şagird naliyyətlərinin qiymətləndirilməsi təhsilin keyfiyyətinin diaqnozu və monitorinqidir //Məktəbəqədər və ibtidai təhsil, 2010, №1, s. 19-25.

13. Андреев В.И. Педагогика высшей школы. Инновационно-прогностический курс: учеб. пособие. Казань: Центр инновационных технологий, 2013, 500 с.

14. Белкин А.С. Основы педагогических технологий: Краткий словарь. Екатеринбург, 2000.

15. Бершадский М.Е., Гузеев В.В. Дидактические и психологические основания образовательной технологии. М.: Центр «Педагогический поиск», 2003, 256 с.

16. Горб В.Г. Педагогический мониторинг образовательного процесса как качество повышения его уровня и результатов // Стандарты и мониторинг в образовании. Москва, 2000, № 5, с. 33-37.

17. Кальней В.А. Технология мониторинга качества обучения в системе школьного образования. М.: Педагогическое общество России, 2000, 75 с.

18. Коваленко В.И., Решетников П.Е. Педагогический мониторинг: концептуальная модель и технологии реализации. Белгород, 2002. 151 с.

19. Корнев С.Н. Создание системы оценивания учебных достижений учащихся. Москва, 2017.

20. Кукуев А.И. Педагогический мониторинг и оценка качества образования (к вопросу о создании региональной службы).
Ростов-на-Дону: Инновационная школа, 2000, № 2, с. 88-90.

21. Майоров А.Н. Тесты школьных достижений: Конструирование, проведение, использование. СПб: Образование и культура, 2007.

22. Микаберидзе Г.В., Клепиков В.З. Народное образование в развивающихся странах // Педагогика, 1994, №3. с.11-117.

23. Профессиональный стандарт педагогической деятельности: требования к учителю и к педагогическому образованию// Вестник Образования, 2007, №7, с.66-72.

24. Сергеева Е.В., Чандра М. Ю. Системный мониторинг в управлении качеством образовательного процесса в вузе. Волгоград: Педагогические науки, 2008, № 6 (30), с. 105-110.

25. Шишов С.Е. Школа: мониторинг качества образования. М.: Педагогическое общество России, 2000, 320 с.

26. Эльконин Б.Д. Пространство учебной деятельности младшего школьника: цели и результаты / Материалы 5-й научно-практической конференции, Красноярск, 1998, с.89-94

27. Standards für Evaluation - DeGEval. URL:https:// www.degeval.org /.../ Publikationen/DeGEval-Standard*. (20.02.2015).*

28. SEVAL-Standards.URL:www.seval.ch/.../Standards/ SEVAL-Standards % 202016_d.p. *(12.02.2014).*

29. PISA - PISA - OECD. URL: www.oecd.org/pisa/*. (18.06.2016).*

30. PIRLS. URL:*https://ru.wikipedia.org/wiki/PIRLS. (01.07.2017).*

31. TIMSS və PIRLS beynəlxalq qiymətləndirmə tədqiqatları. URL: www. muallim.edu.az/www.old/arxiv/2010/ 45/16. htm*. (14.03.2016).*

# III. FƏNLƏRİN TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏNİN ÜSUL VƏ VASİTƏLƏRİ

## 3.1. Azərbaycan dili dərslərində şagirdlərin diaqnostik qiymətləndirilməsinin üsul və vasitələri

Şagirdlərin irəliləməsinin monitorinqinin ənənəvi formaları və vasitələri əsasən tədris nəticələri haqqında məlumat əldə etməyə yönəlib və şagirdlərin müəyyən səhvlərinin səbəblərini aşkarlamağa, onların akademik fəaliyyətlərinə təsir göstərən amilləri müəyyən etməyə, diaqnostik vəziyyəti tam öyrənməyə imkan vermir. Müasir qiymətləndirmə şagirdin inkişafı, onun hədəfə istiqamətlənməsi və çatması üçün hazırlanmışdır. Bu gün məktəbdaxili qiymətləndirmənin hər üç növü şagirdlərin dünənə nisbətən daha yaxşı, daha səriştəli və həyati bacarıqlara yiyələnməsini hədəfləmişdir.

Diaqnostik qiymətləndirmənin aparılması müəllimə şagirdlərin təhsil və idrak fəaliyyətini idarə etmək üçün lazımi məlumatları verdiyi üçün təhsil prosesinin təşkilində son dərəcə vacib rol oynayır. Təhsilin keyfiyyəti əsasən onun obyektivliyindən, dolğunluğundan və vaxtında olmasından asılıdır. Şagirdlərin təhsil nailiyyətlərinin diaqnostik qiymətləndirilməsi təlim prosesinin məcburi bir hissəsidir və təlim prosesinin bütün mərhələlərində aparılır.

Diaqnostik qiymətləndirmə:

• şagirdlərin bilik və təlim səviyyəsinin mənimsənilməsi səviyyəsinin ölçülməsi;

• inkişaf və tərbiyənin bəzi aspektlərinin ölçülməsi;

• alınan məlumatların işlənməsi və təhlili;

• təlim prosesinin tənzimlənməsi və şagirdlərin təhsilin növbəti mərhələlərinə yüksəldilməsi barədə ümumiləşdirmə və nəticələr;

• müəllimlərin və bütün təhsil müəssisələrinin işinin səmərəliliyi barədə nəticələri özündə əks etdirir.

Diaqnostik qiymətləndirmə müəllimə şagirdin zəif tərəflərini aşkar etməyə, öz işini planlaşdırmağa, şagirdə fərdi yanaşmağa xidmət edir. Diaqnostik qiymətləndirmə məktəbdaxili qiymətləndirmə növləri içərisində ən birinci keçirilir və bu müəllimə keçiləcək mövzu ilə bağlı şagirdlərin nə bildiklərini, hansı səviyyədə olduqlarını müəyyən etməyə imkan verir.

Diaqnostik qiymətləndirmənin aparılması üçün məqsədlərin dəqiqliyinə və aydınlığına diqqət yetirilir. Diaqnostik qiymətləndirmə zamanı "Nəyi qiymətləndirirəm?", "Şagirdlərin hansı bilik və bacarıqlarını dəyərləndirmək istəyirəm" suallarına cavab axtarılır.

"Diaqnostik qiymətləndirmə zamanı məqsədlər müəyyənləşdirilərkən fənlər üzrə təhsil proqramlarının məzmunu əsas götürülür.

Diaqnostik qiymətləndirmə vasitələri hazırlanmazdan əvvəl fənlər üzrə siniflərin sonunda gözlənilən təlim nəticələrinə uyğun təməl bacarıqlar müəyyən edilir. Həmin təməl bacarıqlara əsasən ölçülə bilən qiymətləndirmə meyarları müəyyənləşdirilir. Müəyyən edilmiş meyar və indikatorlara uyğun qiymətləndirmə vasitələri hazırlanır.

Diaqnostik qiymətləndirmənin üsul və vasitələri (şifahi və yazılı sorğu, açıq və qapalı cavablı suallar, nəzəri və praktik xarakterli tapşırıqlar, yazı işləri və s.) fənnin xarakterinə uyğun seçilir.

Şagirdlərin bilik və bacarıqları haqqında tam təsəvvürün yaranması üçün bir-biri ilə əlaqəli sual və tapşırıqlardan istifadə olunur.

V sinifdə Azərbaycan dili dərslərində diaqnostik qiymətləndirmənin aparılmasına dair **nümunə**

**V sinif**

**V sinfin sonunda gözlənilən nəticələr:**

- dinlədiyi məlumatlarda əsas fakt və hadisələri müəyyənləşdirir;
- fikrini fakt və nümunələrlə əsaslandırır;
- lüğətdən istifadə etməklə tanış olmayan sözlərin mənasını müəyyənləşdirir;
- mətni tələffüz qaydalarına uyğun oxuyur;
- mətndəki əsas fikri müəyyənləşdirir;
- mövzu ilə bağlı topladığı materialları ümumiləşdirir;
- mətnin tərkib hissələrini fərqləndirir;
- müxtəlif əməli yazılar (elan, məktub) yazır;
- cümlənin məqsəd və intonasiyaya görə növləri, sözün səs tərkibi, semantikası, tərkibi, yaranma üsulları və qrammatik mənasına (ad, əlamət, hərəkət bildirməsi) aid xüsusiyyətləri mənimsədiyini nümayiş etdirir;
- sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına əməl edir,

cümlənin sonunda və dialoqlarda durğu işarələrini tətbiq edir.

**Meyarlar:**

1. Mətni giriş, əsas və yekun hissələrinə ayırır.
2. Mətndəki hadisələrə əsaslı şəkildə münasibətini bildirir.
3. Mətndəki hadisələrin səbəb-nəticə ardıcıllığını anlayır.
4. Lüğətlərlə işləməyi bacarır.
5. Sözlərin yazılışını və tələffüzünü fərqləndirir.
6. Mətni ümumiləşdirərək planını hazırlayır.
7. Mətnin məzmununa uyğun əməli yazı nümunəsi hazırlayır.
8. Mətndəki sözləri nitq hissələrinə görə təsnif edir.
9. Nitq hissələrinin spesifik xüsusiyyətlərini bilir.
10. Mürəkkəb sözlərin düzgün yazılış qaydalarını bilir.

**Mətni oxuyun. 1-9-cu tapşırıqları yerinə yetirin.**

Babası Nurcana oyuncaq almaq üçün pul vermişdi. Atası ilə mağazaya gələn qızcığaz həyəcanla bir-birindən yaraşıqlı gəlinciklərə baxırdı. Onun yanında bir oğlan dayanmışdı. O da oyuncaq maşınları gözdən keçirirdi. Geyimi təmiz, lakin *nimdaş* idi. Pencəyi əyninə bir qədər balaca idi. Oğlan hərdən bir oyuncaq götürüb atasına baxır, o isə sakitcə başını bulayırdı: "Yox".

Nurcan öz gəlinciyini seçmişdi. Birdən gözü yanındakı oğlana sataşdı. Gördü ki, oğlan istədiyi oyuncaq maşını ala bilmədiyi üçün kiçik bir tapança götürdü.

Nurcan birdən nə düşündüsə, əlindəki gəlinciyi yerinə qoydu və oyuncaq maşınlarından birini götürdü. Kassada maşının pulunu ödəyəndən sonra o, oyuncağı kassada işləyən qadına verdi və qulağına nəsə pıçıldadı. Qadın gülümsədi və maşını kassanın altına qoydu. Bu vaxt oğlan atası ilə kassaya yaxınlaşdı. Kassir xanım üzündə təbəssüm:

- Təbrik edirəm, bu gün siz yüzüncü müştərimiz olduğunuz üçün bir hədiyyə qazandınız, - dedi və oyuncaq maşını oğlana uzatdı.

Oğlan gözlərinə inanmırdı. Bu onun istədiyi maşın idi.

Qızcığaz isə atası ilə qapının ağzında dayanıb baş verənləri izləyirdi. Onun üzündə xoşbəxt bir təbəssüm var idi. Atası Nurcandan bunu nə üçün etdiyini soruşanda o belə dedi:

-Ata, babam pul verəndə məni ən çox sevindirəcək bir şey almağımı istəmədimi?

**1. Hansı cümlə mətndəki hadisələrin ardıcıllığını pozur?**

1. Nurcan gəlincik almaq üçün mağazaya gəldi.
2. Kassir oyuncaq maşını oğlana təqdim etdi
3. Nurcan oyuncaq maşının pulunu ödədi.
4. Kassir oyuncaq maşını kassanın altına qoydu.
5. Qızcığaz bu hərəkətinin səbəbini atasına izah etdi.

A) 1 B) 2 C) 3 D) 4 E) 5

**2. Qızcığaz xeyirxahlıq etdi, çünki...**

A) babası bunu tövsiyə etmişdi.
B) qardaşına nümunə olmaq istəyirdi.
C) başqalarının diqqətini cəlb etmək istəyirdi.
D) oğlanı sevindirmək istəyirdi.
E) hər kəsin rəğbətini qazanmaq istəyirdi.

**3. Mətnin 1-ci abzasında müəllif oğlan obrazı ilə bağlı hansı cəhəti vurğulamaq istəyir?**

A) təmizkar olduğunu
B) sözəbaxan olduğunu
C) maşınlara olan həvəsini
D) imkansız ailədən olduğunu
E) yaşına görə cüssəli olduğunu

**4. Hansı birləşmədə "köhnə" sözünü mətndə fərqli yazılmış sözlə əvəz etmək *olmaz*?**

A) köhnə ayaqqabı
B) kohnə xalça
C) köhnə maşın
D) köhnə papaq
E) köhnə şalvar

**5. Mətndəki əsas fikri müəyyənləşdirin.**

A) İnsan başqasına kömək etməkdən zövq almalıdır

B) İnsan alış-veriş edərkən diqqətli olmalıdır.

C) İnsan ona pislik edənlərə də yaxşılıq etməlidir.

D) Yaxşılıq edərkən başqa insanlara nümunə olmalıdır.

E) İnsan əvvəl özünü, sonra başqalarını düşünməlidir.

**6. Mətnin ideyasına uyğun atalar sözü yazın.**

--------------------------------------------------------------------------

**7. Mətni tərkib hissələrinə ayırın.**

--------------------------------------------------------------------------

**8. Mətndə hansı müsbət keyfiyyətlər təbliğ olunur?**

--------------------------------------------------------------------------

**9. Mətnin sonuncu cümləsinə münasibətnizi qəhrəmana məktub şəklində bildirin.**

--------------------------------------------------------------------------

**10. Düzəltmə sözlərdən ibarət cərgəni müəyyənləşdirin.**

A) kövrək, sınaq, açıq

B) şirin, gəmi, əkin

C) saçaq, uşaq, qaçaq

D) çökək, Gəncəvi, çürük

E) duzlu, sınaq, qələm

**11. Hansı bənddəki sözün ilk samitini onun kar qarşılığı ilə əvəz etsək yeni söz alınmaz?**

A) dəmir

B) göz

C) dərs

D) zəif

E) zəfər

**12. Omonimlərdən biri həm isim, həm də sifət kimi işlənə bilər.**

A) buruq

B) qan

C) tut

D) don

E) qaz

**13. Mücərrəd mənalı düzəltmə isimlər cərgəsini göstərin.**

A) heyvandarlıq, soyutma, güllük

B) yorğunluq, boşluq, üzüntü

C) insanlıq, üzümlük, çəmənlik

D) dostluq, düzənlik, qazıntı

E) dağlıq, xoşbəxtlik, yaylaq

**14. Hansı söz sifət deyil?**

A) gözlük

B) sökük

C) bənövşəyi

D) ürkək

E) qorxaq

**15. Hansı söz leksik mənaya malik deyil?**

A) mühəndis

B) halbuki

C) hadisə

D) narahat

E) müəllim

**16. Tələffüzü ilə yazılışı fərqlənməyən sözü müəyyən edin.**

A) təhkiyə

B) novruz

C) saat

D) yarpaq

E) uşaq

**17. Biri mürəkkəb sözdür:**

A) kitabxana

B) ədəbiyyatşünas

C) bəstəboy

D) şöhrətpərəst

E) xeyirxah

**18. Hansı frazeoloji birləşmənin bir sözdən ibarət qarşılığı səhv göstərilmişdir?**

A) Göz verib işıq verməmək – incitmək

B) Aradan çıxmaq – qaçmaq

C) Baş sındırmaq –fikirləşmək

D) Cin atına minmək –hirslənmək

E) Ürəyinə xal düşmək – qorxmaq

**19. Hansı bənddəki sözlərdə iki müxtəlif səs eyni hərflə ifadə olunmuşdur?**

A) kolxoz, klub

B) kitab, kamal

C) kağız, kadr

D) kar, kələm

E) kərim, kənd

Diaqnostik qiymətləndirmənin test üsulu ilə aparılmış nümunəsi müəllimə şagirdlərin bilik və bacarıqları haqqında məlumat verir. Testlər müəllimə şagirdlərin zəif və güclü tərəflərini nümayiş etdirir. Hər bir testin cavabı meyar üzrə qiymətləndirilir. Bunun üçün sinifdəki şagirdlərin siyahısı tutulur və hər bir şagirdin test nəticəsi təhlil edilir.

Nəticədə fənn müəllimi illik və cari planlarda dəyişikliklər aparır, dərsin təşkili zamanı uyğun daha effektiv strategiyalar müəyyənləşdirirr. Bu nəticələrin təhlili ilə bağlı bütün qeydlər şagirdlərin fərdi qovluğuna qoyulur.

**İstifadə edilmiş ədəbiyyat**


**1.** https://www.arti.edu.az/noduploads/et_book/8324052e47acb77ac305acf26336fbc4.pdf

**2.** Təhsil İnstitutunun "Pandemiya dövrü üçün ümumi təhsil pilləsinə aid resurslar" https://www.arti.edu.az/az/resurs.php?material_tipi_id=2&kategori_id=5&sektor_id%5B%5D=1&sinif_id%5B%5D=5&fen_id%5B%5D=1&filter_f=ok


## 3.2. Ümumtəhsil məktəblərinin ədəbiyyat dərslərində diaqnostik qiymətləndirmə mexanizmləri

Qiymətləndirmə təlim-tərbiyə prosesinin mühüm komponentidir. Qiymətləndirmənin düzgün təşkili və aparılması məktəbdə təlim keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır.

Qiymətləndirmə şagirdlərin öyrənmə fəaliyyətini tənzimləmək üçün məlumatların toplanması prosesidir. Bu proses müxtəlif məqsədlərlə həyata keçirilir:

- şagirdin problemini müəyyənləşdirmək;
- şagirdlə əks-əlaqə qurmaq və ona stimul vermək;
- planlaşma aparmaq və təkliflər vermək;
- şagirdin təlim fəaliyyəti ilə bağlı mühakimə yürütmək.

Ümumilikdə qiymətləndirmə təlim və tərbiyə işinə kömək etmək, təhsilin keyfiyyətini yüksəltmək, həmçinin valideynlərə və ictimaiyyətə məlumat vermək, şagirdlərin nailiyyətlərini ümumiləşdirmək üçün aparılır. Məktəbin, müəllimin nəticələri də şagirdlərin əldə etdikləri nailiyyətlərin səviyyəsi ilə ölçülür.

Qiymətləndirilmə tədris edilən fənnə dair qəbul edilmiş standartların tələblərinə uyğun olaraq şagirdlərin bilik, bacarıq və nailiyyətlərini, onların inkişaf dinamikasını izləmək məqsədi ilə həyata keçirilən bir prosesdir.

"Azərbaycan Respublikasının ümumi təhsil sitemində Qiymətləndirmə Konsepsiyası"nın tələblərinə uyğun olaraq ölkə-

mizdə qiymətləndirmənin diaqnostik, formativ və summativ qiymətləndirmə növlərindən istifadə edilir.

Məktəbdaxili qiymətləndirmənin bu növləri hər bir fənnin məzmun

standartlarında göstərilən bilik və bacarıqların əldə olunmasına yönəlmiş fəaliyyət istiqamətlərini təmin edir.

Diaqnostik qiymətləndirmə şagirdin fəaliyyətinin ilkin diaqnostikasına əsaslanır və müəllim üçün təlim strategiyasını müəyyənləşdirməyə xidmət edir. Bir qayda olaraq, təhsil səviyyəsinin, dərs ilinin, tədris vahidlərinin əvvəlində sinifdəki şagirdlərin bilik və bacarıqları, eyni zamanda, şagird bir ümumi təhsil müəssisəsindən digərinə keçdikdə, sinfi dəyişdikdə və digər zəruri hallarda onun bilik və bacarıqları haqqında məlumat toplamaq, şagirdə fərdi yanaşmanı təmin etmək məqsədilə aparılır. Daha doğrusu, ilkin səviyyənin qiymətləndirilməsi yəni diaqnostik qiymətləndirmə şagirdin ilkin bilik, bacarıqlara hansı dərəcədə malik olduğunu müəyyən edir.

“Diaqnostik qiymətləndirmə sistemli şəkildə, məqsədə uyğun olaraq iki formada keçirilir: davamlı və qısamüddətli.

1. Davamlı diaqnostik qiymətləndirmə, adətən, təhsil səviyyəsinin və dərs ilinin əvvəlində, bir neçə dərsin müəyyən hissəsində aparılır. Məqsəd sinifdəki şagirdlərin bilik və bacarıqlarının mövcud vəziyyətini öyrənməkdir.
Davamlı diaqnostik qiymətləndirmədə müəllim şagirdin bilik və bacarıqlarının daxil olduğu inkişaf sahələrini (idraki, fiziki, sosial-emosional, hərəki) öyrəndiyinə görə müşahidə üsu- lundan və bu üsulu reallaşdıran vasitədən-müşahidə cədvəlindən istifadə edir. Şagird haqqında daha ətraflı məlumat toplamaq üçün valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq üsulundan və sorğu vasitələrindən istifadə edilir.

2. Qısamüddətli diaqnostik qiymətləndirmə, adətən, tədris vahidlərinin əvvəlində bir dərsin müəyyən hissəsində aparılır.

Qısamüddətli diaqnostik qiymətləndirmənin məqsədi şagirdin fənn üzrə zəruri bilik və bacarıqları haqqında məlumat toplamaqdır.

Qısamüddətli diaqnostik qiymətləndirmədə müəllim şagirdin hər hansı bir bəhs və bölmə üzrə bilik və bacarıqlarını yoxladığına görə tapşırıqvermə, müsahibə kimi qiymətləndirmə üsullarından və müvafiq olaraq çalışma, şifahi sual-cavab, təqdimat vasitələrindən istifadə edir” [2].

**Diaqnostik qiymətləndirmənin xüsusiyyətləri**

| Anlayış | Diaqnostik qiymətləndirmə |
|---|---|
| 1. Obyekti, məqsədi | Bilik, bacarıq, vərdiş, dəyərlər. Şəxsiyyətin inkişafına yönəlmiş şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir. |
| 2. Funksiyası | Qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır. |
| 3. Xüsusiyyətləri | Daha obyektiv, dəqiq, adekvat, sistemli. |
| 4. Meyar, göstəriciləri | Qiymətləndirmə standartlarına əsaslanır. |

Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, yazılı qeydlər sinif və şagird portfoliosunda saxlanılır. Bu zaman şagirdin müəyyən dövr ərzində dərsdəki işləri toplanır və sonra onun nəticələrinin müəyyən edilməsi və həm nailiyyətlərin, həm keyfiyyətcə təhlili aparılır. Bundan sonra şagirdin inkişafının fərdi proqramı tərtib olunur. Müəllim sonrakı fəaliyyətini diaqnostik qiymətləndirmənin nəticələrinə əsasən planlaşdırır.

Diaqnostik qiymətləndirmənin aparılmasında aşağıdakı üsul və vasitələrdən istifadə olunur:

| **Üsullar** | **Vasitələr** |
|---|---|
| Tapşırıqvermə | Çalışmalar |
| Müsahibə | Müəllimin qeydiyyat vərəqi (şagirdlə, müvafiq hallarda qrup, yaxud siniflə aparılan şifahi yoxlama zamanı müəllimin öyrənmək istədiyi məsələnin yazıldığı vərəq) |
| Valideyn və müəllimlərlə əməkdaşlıq | Söhbət və müəllimin sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |

Ədəbiyyat fənninin tədrisində diaqnostik qiymətləndirmədən istifadə formativ və summativ qiymətləndirmələrin aparılması üçün geniş zəmin yaradır.

“Diaqnostik qiymətləndirmə vasitələri hazırlanmazdan əvvəl fənlər üzrə siniflərin sonunda gözlənilən təlim nəticələrinə uyğun təməl bacarıqlar müəyyən edilir. Həmin təməl bacarıqlara əsasən ölçüləbilən qiymətləndirmə meyarları müəyyənləşdirilir. Müəyyən edilmiş meyar və indikatorlara uyğun qiymətləndirmə vasitələri hazırlanır. Diaqnostik qiymətləndirmə vasitələri çətinlik dərəcələri müxtəlif olan (asan, orta, çətin) tapşırıqlardan tərtib edilir” [3].

## V sinif

**V sinfin sonunda gözlənilən nəticələr:**

- bədii nümunələri məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir;
- şifahi və yazılı ədəbiyyat nümunələrini janrlarına görə fərqləndirir, bədii təsvir vasitələrini müəyyənləşdirir;
- bədii nümunələrin mövzusunu, ideyasını aydınlaşdırır, baş qəhrəmanları səciyyələndirir;
- öyrəndiyi yeni sözlərdən, obrazlı ifadələrdən istifadə etməklə bədii əsərlərlə bağlı fikirlərini şərh edir;
-müzakirələrdə dinlədiklərinə münasibətini bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini ardıcıl şərh edir.

**Diaqnostik qiymətləndirmə (dərs ilinin əvvəlində)**

**Meyarlar:**

- Şeirdə tanış olmayan sözlərin mənasını lüğətdən aydınlaşdırır.
- Şeirin janrını müəyyənləşdirir.
- Şeirdəki bədii təsvir vasitələrini müəyyənləşdirir.
- Bədii nümunələri müqayisə edir.
- Şeirdəki əsas fikrə münasibət bildirir.
- Şeiri məzmununa uyğun adlandırır.
- 0,5 səhifə həcmində esse yazır.

**Nümunə:**

Sən bəslədin bizləri öz qoynunda,
Sən bəslədin bizləri öz bağında.
Həm dost oldun bizə, həm də ki dayaq,
Sən ey doğma məktəb, ey ana məktəb!
***
Hər müəllim bir çıraqmış ömrümüzdə,
Al şəfəqli üfüq oldun gözümüzdə,
Sən bir günəş oldun yollarımızda,
Sağ ol, ana məktəb, ey doğma məktəb!

***

Bizləri unutma, unutma bizi,
Sən bəxş etdin bizə elmi, hünəri.
İndi ayrılıqdır, çalınır son zəng,
Əlvida, əlvida, ey doğma məktəb!
*Sakit Məmmədov*

**1. "Dayaq" və "çıraq" sözlərinin şeirdəki mənasını müəyyənləşdirib yazın.**

___________________________________________________

**2. Şeir hansı vəzndə yazılıb?**

A) Heca B) Əruz C) Sərbəst

**3. Şeirdə işlənən bədii təsvir vasitəsini müəyyənləşdirin.**

___________________________________________

**4. Heca vəzninə aid olanı seçin.**

A) Hecaların sayı çox olur

B) Hecaların sayı bərabər olur

C) Hecaların sayı az olur

D) Hecaların sayı bərabər olmur

**5. Şeirdə məktəb nə üçün "ana məktəb" adlandırılır?**

A) Ana kimi sevimlidir.

B) Ana qədər qayğıkeşdir.

C) Ana qədər bizi bağrına basır.

D) Ana qədər doğmadır.

**6. III bəndin əsas ideyası nə ilə bağlıdır?**

A) imtahanla B) ilk zənglə C) son zənglə D) tənəffüslə

**7. Şeirdə müəllim nə ilə müqayisə olunur?**

A) küləklə B) ayla C) günəşlə D) çıraqla

**8. Şeirdəki "Ey dogma məktəb" ifadəsi" nədir?**

A) bənzətmə B) rədif C) təkrir D) alliterasiya

**9. Şeiri ideyasına uyğun adlandırın.**

_________________________________________________

**10. 0,5 səhifə həcmində "Doğma məktəbim" adlı esse yazın.**

Diaqnostik qiymətləndirmə təlim strategiyalarında çevik dəyişikliklərin aparılmasına və təlimdə uğurlu nəticələrin əldə olunmasına imkan yaradır.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası, "Azərbaycan müəllimi" qəzeti, 6 fevral, 2009.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyi "Ümumtəhsil məktəblərində məktəbdaxili Qiymətləndirmənin aparılması barədə təlimat" Bakı-2012. https://www.miq.edu.az/ qanun/8.pdf

3. Xüsusi karantin rejimi dövründə ümumi təhsil müəssisələrində diaqnostik qiymətləndirmənin aparılmasına dair metodik göstərişlər.https:// www.arti.edu.az/az/resurs.php?material_tipi_id=&kategori_id=&filter_f=ok

## 3.3. İngilis dilinin tədrisində qiymətləndirmədə istifadə olunan üsul və vasitələr

İngilis dilinin tədrisində qiymətləndirmə dörd məzmun xətti üzrə aparılır:

- Dinləyib-anlama;
- Danışma;
- Oxu;
- Yazı.

Bütün siniflərdə (I və II siniflərdən başqa) dilin komponentləri 4 məzmun xətti çərçivəsində inteqrativ şəkildə tədris olunur və reseptiv, produktiv və digər bacarıqları özündə formalaşdırır.

Dinləyib-anlamanın nitq fəaliyyətinin başqa növləri (xüsusilə danışma, müəyyən dərəcədə oxu) ilə sıx bağlı olduğuna baxmayaraq, onun bu fəaliyyətdə özünəməxsus yeri, spesifikası var.

Bəzən dinləyib-anlamanı nitqin passiv növü hesab edirlər. Bu fikirlə ona görə razılaşmaq olmaz ki, dinləmə prosesində qavrama, tanıma, anlama kimi psixi proseslər fəaliyyət göstərir. Dinləyici ona təqdim olunan nitqin səs tərkibini, ritm və intonasiyasını, söz və birləşmələrini, qrammatik formalarını və cümlələrin struktur xüsusiyyətlərini qavramalı, uzunmüddətli hafizəsindəki

stereotiplərlə onları tutuşdurub tanımalı və nəticədə nitqi anlamalıdır. Deməli, dinləmə fonetik, leksik, qrammatik vərdişlərin kompleks şəkildə fəaliyyət göstərməsinə əsaslanır və onun keyfiyyəti dinləmə zamanı bu vərdişlərin avtomatlaşma səviyyəsi ilə müəyyən edilir.

Xarici dilin təlimi prosesində dinləmə həm vasitə, həm də məqsəd kimi qiymətləndirilir. Dinləmədən təlim vasitəsi kimi aşağıdakı hallarda istifadə olunur:

- Yeni tədris materialının təqdim olunmasında;
- Dil materiallarının möhkəmləndirilməsində;
- Danışma bacarığının inkişaf etdirilməsində.

Dinləyib-anlama məzmun xətti üzrə standartların mənimsənilməsini təyin edən komponentlər və ölçülə bilən rubriklər aşağıdakı kimi göstərilə bilər.

- Qrammatik və leksik cəhətdən söz və ifadələrin tanınması;
- Yeni söz və ifadələrin seçilməsi;
- Orfoqrafik qaydalara əməl olunması;
- Əsas ideyanın təyin edilməsi;
- Sözlərin kontekst və situasiyaya uyğun işlədilməsi.

Danışma məzmun xətti üzrə standartların mənimsənilməsini təyin edən komponentlər və ölçülə bilən rubriklər aşağıdakı kimi göstərilə bilər. Məs.:

- Cümlənin qrammatik cəhətdən düzgün qurulması;
- Nitqdə tələffüz qaydalarına əməl edilməsi;
- Məzmunun düzgün şərh edilməsi;
- Nitqin düzgün təşkil edilməsi;
- Axıcı nitqə malik olması;
- Nitqində lüğətdən geniş istifadə edilməsi.

Oxu məzmun xətti üzrə standartların mənimsənilməsini təyin edən komponentlər və ölçülə bilən rubriklər aşağıdakı kimi göstərilə bilər. Məs.:

- Mətnin məzmununun müəyyən edilməsi;
- Oxunulan mətndə obyektlərin tanınması;
- Mətnin hissələrinin təhlil edilməsi;
- Mətnin müxtəlif mövzularla sintez edilməsi.

Bilik və bacarıqlar müxtəlif test nümunələri vasitəsilə yoxlanılır. Xarici dilin tədrisində aşağıdakı test növlərindən istifadə etmək olar.

- Diaqnostik test və tapşırıq nümunələri

- Formativ test və tapşırıq nümunələri
- Summativ test və tapşırıq nümunələri

*Diaqnostik test və tapşırıq nümunələri* vasitəsilə şagirdin mövzu ətrafında ilkin biliklərini təyin etmək olar. Şagirdin maraq və ehtiyaclarını bilmək üçün məlumatları aydınlaşdırmaq (Eliciting information) ən yaxşı vasitələrdən biridir. Diaqnostik test hazırlayarkən müəllim mövzuya uyğun şəkilli test və obyektlərdən istifadə etməlidir ki, mövzu asan başa düşülsün və şagirdlər yeni mövzunun nədən bəhs edəcəyini qabaqcadan bilsinlər.

Diaqnostik testlər mövzuya yaxınlaşmaq üçün şagirdləri keçiriləcək mövzu haqqında xəbərdar edir və fəal təlimdə yönəldici suallar əsasında aparılır.

**8-th grade**

**Reading**

Students and Technology

When my dad was at school, there weren't any computers and the Internet didn't exist. He didn't communicate with his friends by email and he didn't make new friends in online chats.

These days the answer to almost every question is on your computer. We can find information much more easily than we could in the past. You can enter your key words in a search engine and then choose from the many websites which can give you the information you need. There are also websites which give advice and practical help with essays and other homework.

1.Read the text and answer the questions using your own words.

1. Where is the answer to almost every question?
2. What do you enter in a search engine?
3. Where can you find advice and practical help?
4. How does the writer describe studying today?

**Speaking**

2. The History of Communication

1. How did people communicate in the past when there was no Internet and phones?
2. What are the advantages of the new technology?
3. What are the disadvantages of the new technology?

**Writing**

3. Write a paragraph about your favorite writer. Give the reasons you admire him or her.

*Formativ test və tapşırıq nümunələri* şagirdin ingilis dilində hər bir təlim prosesində irəliləyişlərini izləmək, zəif və üstün cəhətlərini müəyyən etmək üçün istifadə olunur. Sinifdən-sinfə keçdikcə müəllim tapşırıqların növünü çoxalda bilər. Buraya şagirdlərin 4 məzmun xətti üzrə bacarıq səviyyələrini yoxlamaq üçün müxtəlif tipli tapşırıqlar aiddir. Müəllim hər bir fəaliyyətə əsasən müəyyən olunmuş meyarlar üzrə tapşırıqların düzgün yoxlanılması və qiymətləndirilməsini aparır.

İbtidai təhsil səviyyəsi üzrə kiçikhəcmli, ümumi orta və tam orta təhsil səviyyələri üzrə isə genişhəcmli rubriklərə əsasən qiymətləndirmə cədvəlləri, holistik sorğu vərəqləri, özünüqiymətləndirmə vərəqləri hazırlanır. Bu kimi tapşırıq və testlər şagirdlər tərəfindən yerinə yetirildikdən sonra şagird portfoliosuna yığılır, müəllim qeyd dəftərində müşahidələrinə və şagird portfoliosundakı şagirdlərin cavablarına uyğun qiymətləndirmə rubriklərinə əsasən qiymətləndirmə aparır. Şagirdlərin buraxdığı səhvlər və müəllimin bu səhvlər üzrə verdiyi məsləhətlər kiçik bir qiymətləndirmə vərəqində və ya şagirdin öz vərəqində qeyd olunur. Müəllim öz dəftərində hər bir şagirdin gündəlik səviyyəsini qeyd edir.

**Formative assessment**

**8-th grade**

**Listening**

1. Listen to the text and comment on the main content.
2. Identify the main idea of the text
3. Identify new words in the text and use in the sentence.
4. Discuss in pairs the questions about the text you are listening to.

**Speaking**

Changing lives with the İnternet

1. Create a relevant dialogue by focusing on speech etiquette and use within the situation.
2. Organize debates on the advantages and disadvantages of the Internet

**Reading**

The History of Communication

1. Group the main facts and events in the text in chronological order
2. Tell the meanings of the marked words in the text in English.
3. Create a dialogue using the text.

**Writing**

Let's Save Our Beaches

1. Write about the work you do, the events around you.
2. Make sentences with new words in the text.
3. Write questions beginning with "Wh"
4. Write a paragraph on "How to save nature"

Summativ qiymətləndirməni müəllim çoxseçimli test və tapşırıq nümunələri vasitəsilə, şagird təqdimatları, nümayişləri əsasında aparılır. Dinləyib-anlamanın qiymətləndirilməsi zamanı CD, audio-video vasitəsilə, danışma fəaliyyəti isə müsahibələr və istənilən kontekst üzrə söhbət, təqdimatlar, nümayişlər əsasında aparılır. Oxu və yazının summativ qiymətləndirilməsi kağız üzərində verilmiş mətn üzrə test, tapşırıqlar və esse yazılar əsasında aparılır.

## 8-th grade

## Small summative assessment

**Reading**

1. Read the passage and put the words from the box into the gaps (***IV səviyyə, 20 bal)***

Graduates, intimidating, podium, dull, cane, breeds

Some people consider that the Victorian school system of education is a classical model, as it gave good results. Among the names of the ……, you can find names of today's famous writers, artists, scientists, and politicians. But Victorian schools weren't the ideal places to study. First of all, the classrooms were very ……. There was a high …….. for teachers in front of the class so that the teacher could see everyone. More than eighty children had to sit up straight at desks in long, client rows. Secondly these schools had …… lessons. Children had to chat aloud lists of names, facts, weights, and measures. In addition to this, children were punished. They thought that the

…… or leather belt could work wonders. If children couldn't remember things, they had to sit by the wall. Other unkind children were encouraged to make fun of them. For all these reasons, I wouldn't like to study in this type of school.

**Listening**

Listen to the passage and fill the gaps. (***IV səviyyə, 20 bal***)

Aysel: Are you a newcomer ………?

Amir: Yeah

Ayse: How do you find it here? I hope you will adapt well to the changes.

Amir: Actually, many things are new for me here but I like changes. I think I shall …… everything very soon.

Aysel: I understand you so well. I came to this school last year and it took me a while to learn all the rules and ….. .

Amir: It is good to try new things. In my previous school, we didn't have any computers at all. The best thing here is that you can see new computers in all classrooms. We have internet access and use Web2 tools, ……. programs. At the same time, we have smart boards almost in all classrooms. I think all students can work ….. and make great success in such an environment.

Aysel: Yes you are right. So, welcome to our new world. I believe you will …. A lot from this ….. Good luck to you!

**Writing (*III səviyyə, 15 bal)***

Write a paragraph about mobile phone and its good and bad sides.

1. How important do you think the mobiles are?
2. At what age do you think children should own a mobile phone?
3. What are the advantages and disadvantages of the mobile phones?

**Speaking (*III səviyyə, 15 bal*)**

Speak about a teacher who you admire.

What makes her/him special?

İngilis dilinin təlimində qiymətləndirmə vasitələrinin hazırlanması zamanı şagirdlərdə məntiqi, tənqidi və yaradıcı təfəkkürün (təhlil, müqayisə, ümumiləşdirmə, nəticəçıxarma və s.) formalaşdırılaraq inkişaf etməsi,

vətəndaşlıq keyfiyyətlərinin, digər mədəniyyətlərə hörmət hissinin tərbiyə olunması səviyyəsini ölçməyə xidmət etməsi vacib şərtlərdən biri hesab edilir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər) - Bakı-2013, səh.8.

2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: // Təhsil xəbərləri. - 2009, № 4, -səh.5-40

3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. //Azərbaycan müəllimi, - 2013, 25 oktyabr, № 4. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. // Təhsil xəbərləri-Bakı: - 2009, № 6, - s.12-57

5. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: // Təhsil xəbərləri. - 2009, № 4, - s.5-40

6. Abbasov Ə.M., Cavadov İ.A., İbadova B.O., Quliyeva K.R., Sultanova İ. H., Cavadova S.E. Kurikulum bələdçisi (izahlar və tətbiqlər), Bakı- 2019

7. Bəylərov E. B. Məktəbdaxili qiymətləndirmə: problemlər və vəzifələr // Kurikulum jurnalı, 2014, №2, s. 47-58

8. Cavadov İ.A. Şagird nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsi: müasir yanaşmalar. Bakı: // "Azərbaycan məktəbi" jurnalı, 2014, №4.

9. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: //Mütərcim, 2007, 189 s.


## 3.4. İbtidai siniflərdə riyaziyyat dərslərində summativ qiymətləndirmə mexanizmləri

Summativ qiymətləndirmə hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır. Summativ qiymətləndirmə standart və ya standartlar qrupuna əsasən, müəyyən edilmiş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını aydınlaşdırır.

Summativ qiymətləndirmə mövzu, bəhs və bölmənin, həmçinin yarımillərin sonunda keçirilir. Bölmənin sonunda və daxilində keçirilən summativ qiymətləndirmə kiçik summativ qiymətləndirmə (KSQ), yarımillərin sonunda

keçirilən summativ qiymətləndirmə isə böyük summativ qiymətləndirmə (BSQ) adlanır.

Yeni "Qayda"da kiçik və böyük summativ qiymətləndirmələrin nəticələri maksimum 100 ballıq şkala ilə ölçülür.

| Bal aralığı | Qiymət |
|---|---|
| [0-30] | 2 (qeyri-kafi) |
| (30-60] | 3 (kafi) |
| (60-80] | 4 (yaxşı) |
| (80-100] | 5 (əla) |

Ballar "2", "3", "4" və "5" qiymətlərinə uyğunlaşdırılmışdır. Əvvəlcə ballar hesablanır, daha sonra isə qiymətə çevrilir. Nəticə sinif jurnalına və "Məktəbli kitabçası"na yazılır.

Bal aralığında 30 bal – "2" qiyməti kimi, 60 bal- "3" qiyməti kimi, 80 bal- "4" qiyməti kimi, 100 bal- "5" qiyməti kimi nəzərdə tutulur.

Summativ qiymətləndirmələr sinif jurnalında iki sütunda yazılır –soldan birinci sütunda ballar (məsələn, 35, 67, 83 və s.), ikinci sütunda isə qiymətlər ("2", "3", "4", "5") yazılır.

"Qayda"da kiçik summativ qiymətləndirmənin yarımildə ən azı 3, ən çoxu 6 dəfə və 1 dərs saatı (45 dəqiqə) keçirilməsi nəzərdə tutulur. Dərs ilinin əvvəlində təqvim planı hazırlayarkən müəllimlər əvvəlcədən kiçik summativ qiymətləndirmənin sayını müəyyənləşdirir.

Böyük summativ qiymətləndirmənin sayı xeyli azaldılmışdır. Siniflər üzrə qiymətləndirmə aşağıdakı kimi müəyyənləşmişdir.

I sinifdə - KSQ və BSQ yoxdur.

II sinifdə - KSQ bütün fənlər üzrə keçirilir, BSQ isə yoxdur.

III sinifdə -KSQ bütün fənlər üzrə keçirilir, BSQ isə yoxdur.

IV sinifdə - KSQ və BSQ bütün fənlər üzrə keçirilir.

Kiçik summativ qiymətləndirmədə qiymətləndirmə materiallarının hazırlanması, qiymətləndirmənin keçirilməsi və yoxlanması, materialların saxlanması, qiymətləndirmənin nəticələrinin, yarımillik və illik nəticələrin hesablanaraq vaxtında sinif jurnalına və məktəbli kitabçasına yazılması fənn müəllimi tərəfindən həyata keçirilir.

Hər bir fənn üzrə BSQ-nin ibtidai təhsil səviyyəsində 45 dəqiqə olmaqla keçirilməsi nəzərdə tutulmuşdur. BSQ-lərin təşkili, qiymətləndirmə vasitələrinin hazırlanması, nəzarətçilərin seçilməsi, qiymətləndirmə komissiyasının yaradılması, onlarla işin təşkili, ballar və qiymətlər yazılan siyahının (protokolun) tərtib edilməsi və jurnala yazılması üçün fənn müəlliminə verilməsi ümumi təhsil müəssisəsinin rəhbərliyi tərəfindən həyata keçirilir.

Fənn müəllimi tərəfindən BSQ-lərin nəticələri (ballar və qiymətlər), yarımillik və illik qiymətlər hesablanaraq sinif jurnalına köçürülür.

Qiymətləndirmə vasitələri 4 çətinlik dərəcəsi üzrə hazırlanır.

1-ci çətinlik dərəcəsi ən aşağı, 4-cü çətinlik dərəcəsi isə ən yüksəkdir. 1-ci çətinlik dərəcəsi və 2-ci çətinlik dərəcəsi əksər şagirdlər, 3-cü çətinlik dərəcəsi və 4-cü çətinlik dərəcəsi isə istedadlı uşaqlar üçün nəzərdə tutulmuşdur.

Summativ qiymətləndirmədə tapşırıqlar səviyyələr üzrə hazırlanır:

- 1-ci səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 20%-i (20 bal)
- 2-ci səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 30%-i (30 bal)
- 3-cü səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 30%-i (30 bal)
- 4-cü səviyyə üzrə tapşırıqlar bütün tapşırıqların 20%-i (20 bal) [3].

Summativ qiymətləndirməni aparmaq üçün müəllim aşağıda qeyd edilən bilik və bacarıqlara malik olmalıdır:

- qiymətləndirmə standartlarının mahiyyətini nümunələrlə şərh etmək;
- qiymətləndirmə standartlarından istifadə yollarını bilmək [5]

Hər bir fənn kurikulumunda məzmun standartları və onların mənimsənilməsi üçün istifadə edilən strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi məqsədi ilə müvafiq qiymətləndirmə standartlarının nümunələrindən də istifadə olunur.

Məzmun standartları inteqrativ təlim nəticələri olub, şagirdin müvafiq bilik, bacarıq və dəyərlərə nail olmaqla səviyyəcə dəyişməsini təmin edir.

Qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla, baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətvermə prosesinin qanuniliyinə zəmanət verir [6].

Summativ qiymətləndirmə vasitələri səviyyələr üzrə hazırlanmış qiymətləndirmə standartlarına görə hazırlanır. Məs.:

| Məzmun standartı | Səviy. | Qiymətləndirmə standartı |
|---|---|---|
| | | **1. Ədədlər və əməllər** |
| **1.1. Ədəd anlayışını, ədədin strukturunu, ədədlər arasındakı münasibətləri, ədədin hissəsi anlayışını başa düşdüyünü nümayiş etdirir.** | | **1.1. Q.S.1.Ədəd anlayışını, ədədin strukturunu, ədədlər arasındakı münasibətləri, ədədin hissəsi anlayışını başa düşdüyünü nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 1.1.1. 1000 dairəsində ədədləri oxuyur və yazır. | **4** | **1.1.1. Q.4**1000 dairəsində ədədləri oxuyur və yazır, müvafiq şərhlər verir. |
| | **3** | **1.1.1. Q.3**1000 dairəsində riyazi imla yazır və ədədləri oxuyur. |
| | **2** | **1.1.1. Q.2.**1000 dairəsində ədədləri oxuyur və yazır. |
| | **1** | **1.1.1. Q.1.**1000 dairəsində ədədləri oxuyur. |
| | | **2. Cəbr və funksiyalar** |
| **2.1. Riyazi ifadə anlayışlarını başa düşdüyünü nümayiş etdirir.** | | **2.1. Q.S.2 Riyazi ifadə anlayışlarını başa düşdüyünü nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 2.1.1. Mötərizəsiz və mötərizəli ədədi ifadələrin hesab- lanmasında əməllər sırasından düzgün istifadə edir. | **4** | **2.1.1. Q.4.** Mötərizəsiz və mötərizəli ədədi ifadələrin hesablanmasında əməllər sırasından düzgün istifadə edərək izahat verir. |
| | **3** | **2.1.1. Q.3.** Mötərizəsiz və mötərizəli ədədi ifadələrin hesablanmasında əməllər sırasından düzgün istifadə edir. |
| | **2** | **2.1.1. Q.2.** Mötərizəli ədədi ifadələrin hesablanmasında əməllər sırasından düzgün istifadə edir. |
| | **1** | **2.2.1. Q.1.** Mötərizəsiz ədədi ifadələrin hesablanmasında əməllər sırasından düzgün istifadə edir. |

| | | |
|---|---|---|
| **3. Həndəsə** | | |
| **3.2. Sadə həndəsi fiqurların xassələrini bildiyini nümayiş etdirir.** | | **3.2. Q.S.3.Sadə həndəsi fiqurların xassələrini bildiyini nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi** |
| 3.2.3. Sadə fəza fiqurlarının bəzi xassələrini bildiyini nümayiş etdirir. | **4** | **3.2.3. Q.4.** Sadə fəza fiqurlarının bəzi xassələrini bildiyini nümayiş etdirir. |
| | **3** | **3.2.3.Q.3.** Sadə fəza fiqurlarını təsvir edir. |
| | **2** | **3.2.3. Q.2.** Fəza fiqurlarını müstəvi fiqurlardan fərqləndirir. |
| | **1** | **3.2.3. Q.1.**Fəza fiqurlarını sadalayır. |
| **4. Ölçmə** | | |
| **4.2. Ölçü vahidlə-rindən və alətlərindən istifadə edərək kəmiyyətləri ölçür.** | | **4.2. Q.S.4. Ölçü vahidlərindən və alətlərindən istifadə edərək kəmiyyətləri ölçməsinə dair qiymətləndirmə sxemi** |
| 4.2.1. Kəmiyyətlərin vahidləri arasındakı əlaqələrdən hesab-lamalarda istifadə edir. | **4** | **4.2.1**. **Q.4**. Tutum kəmiyyətinin vahidləri arasındakı əlaqəni bilir və bu əlaqələrdən hesablamalarda istifadə edir. |
| | **3** | **4.2.1**. **Q.3.**Kütlə kəmiyyətinin vahidləri arasındakı əlaqəni bilir və bu əlaqələrdən hesablamalarda istifadə edir. |
| | **2** | **4.2.1**. **Q.2.**Tutum vahidləri arasındakı əlaqəni dərk edir və hesablamalarda istifadə edir. |
| | **1** | **4.2.1**. **Q.1.**Kütlə vahidləri arasındakı əlaqəni dərk edir və hesablamalarda istifadə edir. |
| **5. Statistika və ehtimal** | | |
| **5.1. Məlumatların təhlili üçün müvafiq metod seçir və tətbiq edir.** | | **5.1. Q.S.5. Məlumatların təhlili üçün müvafiq metod seçməsinə və tətbiq etməsinə dair qiymətləndirmə sxemi** |
| 5.1.1. Müşahidə, ölçmə və təcrübə yolu ilə məlumatları toplayır, şərhlər verir | **4** | **5.1.1. Q.4.** Müşahidə, ölçmə və təcrübə yolu ilə məlumatları toplayır və şərhlər verir. |
| | **3** | **5.1.1. Q.3.** Müşahidə, ölçmə və təcrübə yolu ilə məlumatları toplayır. |
| | **2** | **5.1.1. Q.2.** Müşahidə yolu ilə topladığı məlumatlar əsasında mühakimə yürüdür. |
| | **1** | **5.1.1. Q.1.** Məlumatlar əsasında suallara cavab verir. |

1.1.1., 2.1.1., 3.2.3., 4.2.1., 5.1.1. məzmun standartlarıdır. Q.S.1., Q.S.2., Q.S.3., Q.S.4. standartları isə bu məzmun standartlarını şagirdlərin necə mənimsəməsini ölçmək üçün müəyyən edilmiş qiymətləndirmə standartlarıdır. Qiymətləndirmə standartları 4 səviyyə üzrə qiymətləndirilir. 1-ci səviyyə ən aşağı, 2-ci səviyyə orta, 3-cü səviyyə yüksək, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Hər bir məzmun standartından 4 səviyyə üzrə qiymətləndirmə standartları hazırlanmışdır. Standartlar ən yüksək səviyyədən ən aşağı səviyyəyə doğru verilmişdir.

Müəllim summativ qiymətləndirmə zamanı müxtəlif üsullardan istifadə edə bilər. Bu üsullar test, layihə və s.ola bilər. Riyaziyyat fənnində daha çox test üsulundan istifadə olunur. Bu üsulda daha çox qapalı suallara üstünlük verilir. Bu sualların istifadəsi həmişə müsbət nəticə göstərmir. Daim qapalı sualdan istifadə şagirdlərdə fikirlərini əsaslandırma, fikirbildirmə və s. bacarıqları formalaşdırmır. Şagirdlərdə yalnız hafizə təfəkkürünü fəallaşdırır. Testlərdən əsasən şagirdlərin müəyyən faktlar, prosedurlar üzrə qısa müddət ərzində bilikləri, fərdi qabiliyyətləri qiymətləndirilərkən, qiymətləndirmə standartlarının sayı çox olduqda, həmçinin obyektiv və etibarlı qiymətləndirmə vacib olduğu zaman, əksər hallarda buraxılış imtahanları apararkən istifadə edilməsi məqsədəuyğun hesab olunur.

Suallar hazırlanarkən həm açıq, həm də qapalı suallardan istifadə daha məqsədəuyğundur. Açıq sual qapalı sualdan fərqlənməlidir. Qapalı sualda yalnız bir cavab, açıq sualda isə əlavə məlumatlar, müəyyən şərhlər olmalıdır. Açıq suallar şagirdlərin bilik və bacarıqlarını daha dəqiq və əhatəli qiymətləndirməyə kömək edir. Açıq sualın məzmununun şagirdin anlama səviyyəsinə uyğun gəlməsi, reallığı və həqiqəti əks etdirməsi, mənalı və stimulverici olması, onlarda müəyyən bacarıqların formalaşmasına, yaradıcı təfəkkürün inkişafına xidmət etməsinə gətirib çıxarır. Qapalı sualdan fərqli olaraq, açıq sual həll strategiyasını, düşünmə tərzini qiymətləndirməyə imkan yaradır. Açıq suallar şagirdləri daha adekvat qiymətləndirməyə imkan verir. Açıq sualın yoxlanılması zamanı meyar cədvəlindən istifadə olunur.

Qiymətləndirmə zamanı açıq suallardan istifadənin bəzi çətinlik törədən tərəfləri də vardır. Açıq sualların yoxlanması qapalı sualların yoxlanmasına nisbətən daha çox vaxt tələb edir. Tapşırıq düzgün, yalnız meyarlarda nəzərdə

tutulmayan üsulla yerinə yetirilə bilər. Əgər həmin tapşırığın strategiyası düzgündürsə, müəllim meyarlarda nəzərdə tutulmayan üsulla həlli nəzərə almalıdır. Açıq sualın yoxlanılmasında səhvlər üzərində iş zamanı kiçik summativ qiymətləndirmə və böyük summativ qiymətləndirmənin nəticələrinin təhlilində müəllimin nəzərindən yayınan hal olarsa şagirdin cavabı bir daha analiz edilir. Müəllim düzgün qiymətləndirməni təmin etməlidir. Bu proses şagirdin iştirakı ilə aparılmalıdır.

**II sinif**

**Kiçik summativ qiymətləndirmə**

**1-ci bölmə**

I səviyyə - 5+5+5+5=20 bal (I, II, III, IV sual)

II səviyyə - 10+10+10=30 bal (V, VI, IX sual)

III səviyyə - 15+15=30 bal (VII, X sual)

IV səviyyə - 20 bal (VIII sual)

1. Ardıcıllığa uyğun olaraq ədədləri artan sıra ilə yazın. (5 bal)

15, 20, 25, 30……

2. 2 onluğu 7 təkliyi olan ədədin ikiqatını yazın. (5 bal)

_____________________________________________

3. Verilən ədədləri tək və cüt olmaqla iki qrupa ayırın. (5 bal)

12, 32, 27, 45, 67, 89, 88, 20, 56, 51, 84, 97, 58, 99, 19, 14, 33, 62

a____________________________________________

b____________________________________________

4. Müqayisə edin. (5 bal)

| | |
|---|---|
| 34* 43 | 89*7 onluq 9 təklik |
| yetmiş üç *65 | 76*37 |
| 4 onluq 3 təklik * 43 | 25*əlli altı |
| otuz dörd*səksən bir | 4 onluq 8 təklik*qırx səkkiz |

5. Ayselin 13 qırmızı, 30 yaşıl karandaşı var. Cavidin 11 qırmızı, 45 yaşıl karandaşı var. Onların karandaşlarının sayına görə müxtəlif müqayisə ifadələri yazın. (10 bal)

6. Ədəd oxu üzərində 20 və 80 ədədləri arasında olan cüt ədədləri qeyd edin. (10 bal)




7. 4 və 7 rəqəmləri ilə düzələn mümkün ikirəqəmli ədədləri yazın. (15 bal)

______________________________________________

8. 100-lük kvadrat çəkin. 22, 36, 48, 71, 93 ədədlərinin yazıldığı xanaları və qonşusu olan ədədləri rəngləyin. (20 bal)

9. Hesablayın və bir misal əlavə edin. (10 bal)

| | |
|---|---|
| 13+6 | 18-4 |
| 24+6 | 36-4 |
| 45+6 | 41-4 |
| 7+56 | 69-4 |
| __+__ | __-__ |

10. Cəmi müxtəlif üsullarla hesablayın. (15 bal)

| | |
|---|---|
| 26+12 | 49+31 |
| 32+31 | 78+11 |
| 19+45 | 54+28 |
| 82+10 | 28+34 |

Summativ qiymətləndirmədə layihə üsulundan da istifadə edilir. Layihə üsulu meyarlar əsasında qiymətləndirilir. Summativ qiymətləndirmənin nəticələri şagirdlər üçün şərh olunmalıdır. Lakin qiymətləndirmə həmişə həvəsləndirici amil rolunu oynamalı, müvəffəqiyyətsizliyi deyil, inkişaf və tərəqqini gücləndirən stimul yaratmalıdır. Daha müvəffəqiyyətli şagirdlə müqayisə, çətin ki digər şagirddə stimul yaratsın. Bu cür müqayisə onu hətta tədris prosesindən uzaqlaşdırar, "qabiliyyətli olmadığı" barədə yanlış nəticələrə gətirə bilər.

Summativ qiymətləndirmə təlim-tədris prosesində şagirdlərin uğurlarını müəyyənləşdirməyi, çatışmazlıqlarını aşkara çıxarmağı, tədris metodlarının zəif və qüvvətli tərəflərini aydınlaşdırıb lazımi tədbirlər görməyi nəzərdə tutur.

Qiymətləndirmədə yalnız şagirdlərin nəyi öyrəndiyi deyil, öyrənmə prosesləri də izlənir, qiymətləndirilir və lazım gələrsə fəaliyyət növü dəyişdirilir. Summativ qiymətləndirmənin əsas məqsədi şagirdlərin oxumağa, öyrənməyə həvəslərini və məsuliyyətlərini artırmaqdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Qəhrəmanova N.M., Əsgərova C.S., Qurbanova L.X. Riyaziyyat -3. Bakı: //Radius, 2018.

2. Qəhrəmanova N., M Əsgərova C. S., Qurbanova L. X., Rəhimova M. Riyaziyyat -3. Metodik Vəsait. Bakı: //Radius, 2018.

3. "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası"nın tətbiqinə dair tövsiyələr. ARTN. 2019.

4. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı://Təhsil, 2008.

5. https://azkurs.org/derslik-ve-muellim-ucun-metodik-vesait-haqqnda.html?page=3

6. http://edu.gov.az/upload/file/umtehsil-sisteminde-qiymetlendirme-konsepsiyasi.pdf

## 3.5. Ümumtəhsil məktəblərində fizika fənnindən summativ qiymətləndirmə mexanizmləri

Fizika kifayət qədər mürəkkəb və maraqlı fəndir. Müəllimdən şagirdləri ümumi təlim nəticələri əsasında bilik, bacarıqların qazanılmasına istiqamətləndirməkdə kifayət dərəcədə böyük pedaqoji ustalıq tələb olunur.

Ümumtəhsil məktəblərində fizika fənninin tədrisi prosesində qiymətləndirmə qaydalarının düzgün reallaşdırılması məktəbdaxili qiymətləndirmə növlərinin məqsədlərinə uyğun qiymətləndirmə resurslarının seçilməsindən əsaslı dərəcədə asılıdır. Hazırlanmış qiymətləndirmə resurslarının elmi-metodik səviyyəsinin məqsədəuyğunluğunun şagirdlərdə müasir elmi dünyagörüşün formalaşdırılmasında, həyati bacarıqların aşılanmasında, fiziki təfəkkürün inkişafında, müəllimlərin isə metodoloji mədəniyyətlərinin yüksəlməsində əhəmiyyəti az deyildir. Göstərilən bacarıqların formalaşdırılması çox

ağır pedaqoji-psixoloji problemlərlə bağlı olsa da, yeni qiymətləndirmə qaydalarının tələblərini nəzərdə tutmaqla bu mürəkkəb prosesin düzgün qurulmasına xüsusi diqqət yetirmək lazımdır.

Qiymətləndirmə zamanı elə bir məqamları, səriştə və bilikləri qiymətləndirməliyik ki, onların şagirdin gələcək karyerasında əhəmiyyəti olsun.

Qiymətləndirmə zamanı situativ xarakterli məsələlərə daha çox yer ayırmaq lazımdır ki, bu da şagirdlərdə ənənəvi tipli suallarla müqayisədə bir sıra mühüm səriştələri inkişaf etdirsin. Buna misal olaraq 7-ci sinifdə keçirilən "Təzyiq. Arximed qanunu" mövzularına dair şagirdlərin qiymətləndirilməsi zamanı aşağıdakı suallardan istifadə etmək olar:

1. Hava nasosunun şüşəsinin altına azca şişirdilmiş və bağlanmış top yerləşdirilir. Şüşənin altından havanı çəkib çıxardıqda top şişirilir (şəklə bax).



**1-Bu hadisənin səbəbini izah edin**

**2-Topun içərisində havanın həcmi, təzyiqi və sıxlığı necə dəyişər?**

*<u>Hər bir kəmiyyət üçün onun dəyişməsinin müvafiq xarakterini müəyyənləşdirin:</u>*

1) artacaq;

2) azalacaq;

3) dəyişməyəcək.

| Topdakı havanın həcmi | Topdakı havanın təzyiqi | Topdakı havanın sıxlığı |
|---|---|---|
| | | |

2. Aşağıda sadalanan hansı hallar göstərilən təzyiqin təmas səthinin sahəsindən asılı olmadığına aid nümunələrdir:

1-qarda batmamaq üçün xizək geyinmək.

2-eyni kütləli ördəyin və toyuğun bataqlıq ərazidə hərəkət etdiyi zaman toyuğun daha çox batması.

3-ucu itilənmiş mismarın taxta lövhəyə daha asan batması

4-idman velosipedlərinin şinlərinin daha incə olması

3. Şəkildə göstərilən deşikli qab qismən su ilə doldurulub. Vaxt keçdikcə su 2-ci qaba deyil, 1-ci qaba vurmağa başlayır. Səbəbini izah edin.



4. Yaya bərkidilmiş cism suya batırılıb. Əgər su, sıxlığı 2 dəfə çox olan başqa bir maye ilə əvəz olunsa yayın uzadılması və cismə təsir edən ağırlıq qüvvəsi necə dəyişəcək. Cavabınızı izah edin.




Bu suallar şagirddə dərketmə, düşünmə, analizetmə, təhlil etmə, həyati bacarıqları, özünüifadə etmə kimi bacarıq və vərdişləri inkişaf etdirir.

Şagirdlərin bilik və bacarıqlarını 4 çətinlik səviyyəsi üzrə qiymətləndirmək və bu səviyyələri aşağıda göstərilən kimi *şərti olaraq* alt səviyyələrə bölmək qiymətləndirmə prosesini geniş və hərtərəfli aparmağa, ənənəvi qiymətləndirmə üsulundan differensial qiymətləndirməyə keçməyə imkan verir.

Yazılmış alt səviyyələr və gözlənilən nəticələr müəllim tərəfindən tədrisinə başlayacağı bölümün (fəslin) tədrisi zamanı «nəyi öyrətməliyəm» və tədrisin sonunda qiymətləndirmə zamanı «nəyi öyrədə bildim» suallarına cavab kimi istifadə oluna bilər.

**1-ci çətinlik dərəcəsi:**

1.1.-tədris müddətində alınmış məlumatın yada salınmasını tələb edən faktoloji materialı əks etdirən suallar;

1.2.-terminlərlə bağlı biliklərin üzə çıxarılması ilə əlaqədar suallar;

1.3.-hazır nümunələr və alqoritmlər əsasında məsələlərin həlli.

**Gözlənilən nəticələr:**

• Şagird anlayışları, tərifləri, terminləri, fiziki kəmiyyətləri və onların ölçü vahidlərini, cihazları, onların istifadə məqsədlərini və iş prinsiplərini bilir

və onları ifadə edir.

• Qanunları, düsturları və onların qrafiki təsvirini bilir.

• Tipik məsələləri həll edərkən mövcud bilikləri müstəqil şəkildə tətbiq etmək bacarığına malikdir: sadə məsələlərin həlli üçün alqoritmləri bilir və onların əsasında sadə hesablamalar aparır.

Açar sözlər: Nədir? Necə (ifadə olunur/yazılır)? Harada? Nə zaman (Hansı şərtlərdə)? Hansı ildə? Kim? Hansı?

Sadala. Düsturu yaz. Qrafikin asılılığını (diaqram) çək. Yada sal.

**2-ci çətinlik dərəcəsi:**

2.1.-çoxlu sayda terminlərdən istifadə tələb edən suallar;

2.2.-mənimsənilmiş materialın əsasında aparılan ümumiləşdirməni əks etdirən suallar;

2.3.-müəyyən hadisə və qanunauyğunluqların qəbulu və onlar arasında səbəb-nəticə əlaqəsinin müəyyənləşdirməsi (izahatvermə bacarığı) ilə bağlı suallar;

2.4.-təhlil, məntiqi düşünmə, məntiqi nəticəçıxarma qabiliyyəti, əsas ideya və əlamətlərini üzəçıxarma qabiliyyəti ilə bağlı suallar;

2.5.-dəyişmiş situasiyalarda məsələlərin həlledilməsi ilə bağlı suallar.

**Gözlənilən nəticələr:**

• Şagird anlayışları, tərifləri, terminləri, fiziki kəmiyyətləri bilir, onların mənasını açıqlaya bilir və öz sözləri ilə ifadə edir.

• Biliklərini təsnif edir.

• Mövcud bilikləri müqayisə edir, qarşılaşdırır və ümumiləşdirir.

• Əks keyfiyyətləri (xüsusiyyətləri), ziddiyyətləri tapır.

• Hadisələr arasında səbəb-nəticə əlaqəsini qurur.

• Ayrı-ayrı hadisələri (hadisənin təbiəti, səbəbi) təsvir edir.

• Əsas fikri müəyyənləşdirir (vurğulayır).

• Mövcud bilikləri sxemlər, qrafiklər, diaqramlar, cədvəllər şəklində şərh edir.

• Qeyri-standart hallarda əldə edilmiş məlumatları tətbiq edir.

• Dəyişmiş vəziyyətlərdə məlum alqoritmləri tətbiq edir.

• Prosedural biliklərə malikdir.

**Açar sözlər:** Niyə? Necə baş verib? Necə izah etmək olar? Necə təsvir edə bilərsiniz? Nə üçün (nə məqsədlə)? Necə göstərmək olar? Əsas fikir (ideya) nədir? Hansı şəraitdə (şərtlərdə)? Hansı faktlar və (və ya) hadisələr, işarələr təsdiqi / inkarı göstərir? Nə deməkdir? Haqqında nə demək olar? Funksiyaları hansılardır? Nəticəsi nədir? Quruluşu (iş prinsipi) nədir?

Yada sal. Verilmişlərin içindən seç. Sadala. Buraxılmış sözləri əlavə et. Fikri tamamla. Əlaqəni (qarşılıqlı əlaqəni) təyin et və izah et. Səhvləri tap. Müqayisə et. Öz sözlərinlə ifadə et. Diaqramı (sxemi, qrafiki) izah et. Cədvəli, diaqramı doldur. Təqdim olunan materialları (məlumatları) diaqram və ya sxem şəklinə çevir.

**3-cü çətinlik dərəcəsi:**

3.1.-çoxlu sayda terminlərdən istifadə tələb edən suallar;

3.2.-mənimsənilmiş materialın əsasında aparılan ümumiləşdirməni əks etdirən suallar;

3.3.-müəyyən hadisə və qanunauyğunluqların qəbulu və onlar arasında səbəb-nəticə əlaqəsinin müəyyənləşdirməsi (izahatvermə bacarığı) ilə əlaqəli suallar;

3.4.-təhlili, məntiqi düşünmə, məntiqi nəticəçıxarma qabiliyyəti, əsas ideya və əlamətlərini üzəçıxarma qabiliyyəti ilə bağlı suallar;

3.5.-dəyişmiş situasiyalarda məsələlərin həlledilməsi ilə bağlı suallar.

**Gözlənilən nəticələr:**

• Şagird konkret vəziyyətlərdə və yeni şəraitdə qaydaları, nəzəriyyələri, üsulları tətbiq edir.

• Bütün (vahid) strukturdan ayrı-ayrı elementləri seçir.

• Hadisələr, proseslər, faktlar arasında qarşılıqlı əlaqəni (xarakterini, səbəbini, mümkün nəticələri) müəyyənləşdirir.

• Vahid strukturun hissələri arasındakı qarşılıqlı əlaqənin məntiqini müəyyən edir.

• Faktlar və nəticələr arasındakı fərqləri ayırır.

• Bir sıra əlamətlərə görə elementləri əlaqələndirir.

• Məlumatların dəyərini qiymətləndirir.

• Materialları, diaqramları, qrafikləri bir ifadə formasından digərinə çevirir.

• Hər hansı bir mürəkkəblik səviyyəsinin materialını şərh edir.

• Hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyənləşdirir və qənaətini əsaslandırır.

**Açar sözlər**: Hansı nəticəyə gəlmək olar? Hansı sübutlar (dəlillər, isbatlar) göstərilə bilər? Hansı xüsusiyyətlərə görə təsnif edilə bilər? Hansı əməliyyatları və ya tədbirləri yerinə yetirmək lazımdır ki, ....? Hansı nəzəriyyə (qayda, fakt) bu hadisəni izah etməyə (təkzib etməyə) imkan verir? Bu modelin (prosesin) strukturu nədir ....? ... (baş verməsi üçün) nə dəyişdirilə bilər? ... baş versə nə dəyişəcək? Bunun (...) üçün tətbiq etmək olarmı?. Tətbiq məqsədini izah et. Bu məsələni (problemi) bir neçə yolla həll et. Onların arasında ən rasional olan üçün alqoritm təklif et. Verilənə (mövcüd olana) alternativ tap. Nəticə çıxart. Əsas xüsusiyyətləri (əlamətləri) müqayisə et və sistemləşdir. Sxemləri, qrafikləri şərh et. İfadəni dəyişdir (yeni şərhini, izahını ver). Qruplaşdır. Ardıcıllığı (iyerarxiyanı) təyin et.

**4-cü çətinlik dərəcəsi:**

4.1.-çətin terminlərdən istifadə;

4.2.-müəyyən hadisə və qanunauyğunluqlara müvafiq izahetmə qabiliyyəti;

4.3.-bir-biri ilə bilavasitə əlaqəsi olmayan cisim və hadisələr arasındakı səbəb-nəticə əlaqəsini başa düşmə qabiliyyəti;

4.4.-proqnozlaşdırma qabiliyyəti;

4.5.-yaradıcı təfəkkürə əsaslanaraq biliklərin yeni kontekstdə istifadəsi;

4.6.-müxtəlif vəziyyətlərdə əldə edilmiş biliklərin yaradıcı şəkildə tətbiqi və yeni orijinal üsullarla məsələ həlli;

4.7.-təqdim olunmuş problem xarakterli məlumata əsasən sual və problemi ifadəetmə bacarığı;

4.8.-yeni situasiyada hesablamaları aparma qabiliyyəti tələb edən tapşırıqlar.

**Gözlənilən nəticələr:**

• Şagird materialın və ya düşüncənin təqdimatı zamanı elmi üsluba riayət edir.

• İstənilən mürəkkəblik səviyyəsində olan materialı şərh edir (biliyini dolayı yolla-sübutla, müqayisə ilə nümayiş etdirir).

• Şagird peşəkar tədqiqat və yaradıcılıq işlərini həyata keçirir.

• Əvvəllər öyrənilmiş (toplanmış) informasiyanı, onu dəyişməklə, təkmilləşdirməklə və məntiqi inkişafını davam etdirməklə tətbiq edir.

• Yeni hadisələri və faktları izah edə bilir, müəyyən məlumatlara əsaslanaraq ən yaxşı həlli yollarını tapmaq üçün axtarışlar aparır.

• Şagird yeni materialı öyrənərkən, onu müəyyən xüsusiyyətlərinə görə hissələrə ayırır.

•Təqdim olunmuş tətbiqi məsələni ayrı-ayrı tipik məsələlərə bölür.

• Əldə etdiyi nəticəni (cavabı, qərarı, həlli) əsaslandırır və əldə olunmuş nəticələrin tətbiqi sahəsini göstərir.

• Hipotezləri irəli sürür və onları təsdiqləmək üçün sübut tapır.

• Müqayisəli təhlil apara bilir, materialları, diaqramları, qrafikləri bir formadan digərinə təsnif etmək və şərh etməklə çevirir.

• Fəaliyyətinin nəticələrini cədvəl, şəkil, diaqram və s. şəklində təqdim edir.

• Fənlərarası inteqrasiya aparır.

• Hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, öz qənaətini əsaslandırır.

**Açar sözlər**: Komponentlərin tərkib hissələri hansılardır? Bir-biri ilə necə əlaqəlidir? Haqqında nə düşünürsən? Mahiyyəti (mövzusu) nədir? Səbəbləri nədir? Hissələrini göstər. Haqqında nə təxmin edə bilərsən? Hansı nəticəyə gəlmək olar? Necə təsnif etmək olar (bölüşdürmək, kateqoriyalara ayırmaq)? Müəyyən edə bilərsənmi? Hansı sübutları göstərə bilərsən? Hər hansı bir fərqləri göstərmək olarmı? Funksiyaları hansılardır? Hansı faktlar təsdiq edir? Problemin həlli zamanı nəticəni yaxşılaşdırmaq üçün hansı dəyişikliklərin edilməsi lazımdır? Əgər olarsa, nə baş verər? Arqumentlər gətir. Başqa nə deyə bilərsən? Düşün-ixtira et-quraşdır. (...) yaratmaq üçün (...) necə tətbiq etmək olar?

**Hazır nümunələr və alqoritmlər əsasında həll olunan məsələlərin qiymətləndirmə meyarları:**

1. Kəmiyyətlərin işarələrini bilir.
2. Zərurət yarandıqda BS sistemindən düzgün istifadə etməyi bacarır.
3. Bilinməyən kəmiyyətin dəyərini tapmaq üçün düzgün düsturdan istifadə edir.
4. Hesablamaları düzgün aparır.
5. Müvafiq ölçü vahidini göstərməklə düzgün cavab verir.

**Dəyişmiş situasiyalarda həll olunan məsələlərin qiymətləndirmə meyarları:**

1. Verilmiş məlumatların cəmini müəyyənləşdirir, qısa şəkildə bunları qeyd formasında tərtib edir, zərurət olduqda BS-dən istifadə edir - tərtib mərhələsi.

2. Məsələnin şərtini başa düşür, əsas fikri ayırd edir, məsələnin şərtində göstərilən hadisələri və prosesləri (açıq və ya dolayısı ilə) təsnif edir- anlama mərhələsi.

3. Məsələnin mahiyyətini və onun həlli alqoritmini əks etdirmək üçün fizika qanunlarını və qanunauyğunluqlarını tətbiq edir (bu mərhələdə analitik, qrafik (sxemlər, diaqramlar) və riyazi üsullar tətbiq oluna bilər) - tətbiq mərhələsi.

4. Məsələnin həlli mərhələlərini ardıcıl olaraq yerinə yetirir- tətbiq mərhələsi.

5. Riyazi hesablamaları düzgün aparır və ya cavabı əsaslandırır - tətbiq mərhələsi.

6. Cavabı düzgün şəkildə yazır - tətbiq mərhələsi.

Şagirdlərin bilik, bacarıq və fəaliyyətlərinin qiymətləndirilməsi zamanı tələb olunan fiziki biliklərin əsas elementləri kimi aşağıdakıları göstərmək olar:

**Fiziki hadisə:**

1. Müəyyən edilmiş hadisənin əlamətlərini sadalayın.
2. Hadisənin başvermə şərtlərini göstərin.
3. Bu hadisənin digərləri ilə əlaqəsini göstərin.
4. Elmi nəzəriyyəyə əsaslanaraq hadisənin mahiyyətini, səbəb-nəticə əlaqəsini izah edin
5. Təcrübədə hadisənin tətbiqi nümunələrini (ya da təbiətdəki təzahürləri) göstərin.

**Fiziki təcrübə:**

1. Təcrübənin məqsədi.
2. Təcrübənin sxemi (strukturu).
3. Təcrübənin aparılması şərtləri.
4. Təcrübənin gedişi.
5. Eksperimentin nəticəsi (onun təfsiri).

**Fiziki kəmiyyət:**

1. Kəmiyyətin adı və onun şərti işarəsi.

2. Nə xarakterizə edir (hadisəni, xüsusiyyətlər, proses)

3. Tərifi.

4. Bu kəmiyyəti başqaları ilə əlaqələndirən düstur.

5. Ölçü vahidi (törəmə və əsas vahidlər vasitəsilə ifadə olunmuş).

6. Kəmiyyətin ölçmə metodları.

**Fiziki qanun:**

1. Qanunun şifahi ifadəsi.

2. Qanunun riyazi ifadəsi.

3. Bu qanunun düzgünlüyünü təsdiq edən eksperimentlər və ya digər faktlar.

4. Praktikada qanunun tətbiqi sahəsi və nümunələri.

5. Qanunun tətbiq şərtləri.

**Fiziki nəzəriyyə:**

1. Nəzəriyyənin təcrübəli əsaslandırılması.

2. Nəzəriyyədə əsas anlayışlar, müddəalar, qanunlar, prinsiplər.

3. Nəzəriyyənin əsas nəticələri.

4. Nəzəriyyənin praktik tətbiqi.

5. Nəzəriyyənin tətbiq edilməsinin sərhədləri.

**Cihaz, mexanizm, qurğu.**

1. Cihazın təyini.

2. Sxematik quruluşu.

3. Cihazın iş prinsipi.

4. Cihazın tətbiqi və istifadə qaydaları.

**Düstur:**

1. Riyazi ifadəsi.

2. Hansı kəmiyyətlərin əlaqəsini yaradır (onlar arasında hansı fiziki asılılıq var?)?

3. Düsturdan irəli gələn qrafiklər.

**Fiziki ölçmələr:**

1. Bir bölgünün qiymətini və cihazın ölçmə hədlərini müəyyən edin.

2. Cihazın mütləq ölçmə xətasını müəyyənləşdirin.

3. Lazımi cihazı seçin və düzgün quraşdırın.

4. Cihazın göstəricilərini alın və onların mütləq ölçmə xətalarını nəzərə alaraq qeyd edin.

5. Nisbi ölçmə xətalarını müəyyənləşdirin.

Fizika fənninin xüsusiyyətlərini nəzərə almaqla summativ qiymətləndirmə vasitələrinin hazırlanmasında verilən tələbləri aşağıdakı şəkildə təqdim etmək mümkündür:

• Summativ qiymətləndirmə nümunələri şagirdlərin, göstərilmiş səviyyələr üzrə müxtəlif xarakterli (yaradıcı, konstruktiv, həyati) bacarıqlarının inkişaf etdirilməsinə imkan yaratmalıdır.

• Summativ qiymətləndirmə vasitələrinin məzmunu şagirdlərin məntiqi, yaradıcı və tənqidi təfəkkürünün inkişaf etdirilməsinə və yoxlanılmasına imkan verməlidir.

• Tərtibatda elə tapşırıqlar tərtib etmək olar ki, həmin tapşırıqda qiymətləndirmənin 4 səviyyəsini də yoxlamaq mümkündür.

• Qiymətləndirmə vasitələrinin hazırlanmasında fəndaxili və fənlərarası əlaqə nəzərə alınmalıdır.

• Summativ qiymətləndirmə vasitələri idraki, kommunikativ və praktik təlim bacarıqlarının izlənilməsinə imkan verməlidir.

• Qiymətləndirmə vasitələri şagirdləri məntiqi əməliyyatlara- müqayisə, təhlil, ümumiləşdirmə, təsnifat aparmağa istiqamətləndirməlidir.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı, 2009.

2. "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası"nın tətbiqinə dair tövsiyələr. ARTN. 2019.

3. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007, 189 s.

### 3.6. Ümumtəhsil məktəblərində kimyanın tədrisi zamanı diaqnostik qiymətləndirmənin mexanizmi

Təhsilin keyfiyyətinin mühüm göstəricisi təhsilalanların mövcud şəraitdə yiyələndiyi bilik, bacarıq və vərdişlərinin səviyyəsi, onlardan praktik işlərdə nə dərəcədə istifadə edə bilməsidir.

Təlim-tərbiyə işinin gedişini, inkişafını və keyfiyyətini izləmək, onu vaxtında, düzgün istiqamətləndirmək üçün şagirdlərin cari fəaliyyətinin və nailiyyətlərinin qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Obyektiv aparılan məktəbdaxili qiymətləndirmə təlim prosesində əks-əlaqəni təmin edir, məktəbdə təlim işinin keyfiyyətini və ayrı-ayrı şagirdlərin təlim fəaliyyətindəki çatışmazlıqları görməyə imkan verir, onların fəallaşmasına, şəxsi keyfiyyətlərinin formalaşmasına təsir göstərir.

Qiymətləndirmə həmçinin müəllimi öz sonrakı pedaqoji fəaliyyətini necə planlaşdırmağa, optimal tədris-təlim texnologiyaları axtarmağa yönəldir, valideynləri, məktəb rəhbərləri və idarəedici başqa təhsil orqanlarını təhsilin keyfiyyətinin mövcud vəziyyəti barədə müntəzəm olaraq məlumatlandırmağa imkan yaradır.

Qiymətləndirmə meyarlar əsasında aparılmalıdır. Məsələn, kimya fənnindən praktik məşğələ dərslərində bilik və bacarıqların qiymətləndirilməsi aşağıdakı kriteriyalar əsasında aparıla bilər:

Şagirdin:

- aparılan praktik işlərin (kimyəvi təcrübələr, molekul modellərinin quraşdırılması və s.) məzmununu nəzəri olaraq mənimsəmə səviyyəsi;
- praktik işləri (cihazın quraşdırılması və kipliyinin yoxlanması, maddənin tərəzidə çəkilməsi və həll edilməsi, maddələr və kimyəvi qablarla davranma qaydalarına əməl olunması və b.) yerinə yetirmə bacarığının səviyyəsi;
- kimyəvi təcrübələri apararkən təhlükəsizlik texnikası qaydalarına əməletmə səviyyəsi;
- kimyəvi təcrübələr və başqa praktik işləri qurtardıqdan sonra iş yerində səliqə-səhman, təmizlik yaratma bacarığı;
- apardığı praktik işlərin nəticəsini qeyd etmək (hesabat yazmaq) bacarığı.

Kimyanın tədrisində müstəqil şəkildə yerinə yetirilən başqa praktik işlər aşağıdakılardır: verilmiş suallar əsasında maddələrin formullarını yazmaq; tələb olunan reaksiyaların tənliklərini yazıb onları əmsallaşdırmaq; qrafiklər və diaqramlar qurmaq; hesablama məsələləri həll etmək; cədvəllər tərtib etmək, atom və molekulların modellərini quraşdırmaq.

Praktik məşğələ dərslərindən fərqli olaraq göstərilən bu işlərin yerinə yetirilməsinə ayrıca dərs saatı verilmir. Onlar müxtəlif tipli dərslərin gedişində icra olunur. Bu cür praktik işlərin qiymətləndirilməsi bal yazılmaqla qeyd olunmur, onlar ümumi dərs prosesində şagird fəaliyyətinin bir növü kimi nəzərə alınır.

Müasir tələblərə görə təlim məqsədindən və təlimin hansı mərhələdə aparılmasından asılı olaraq məktəbdaxili şagird qiymətləndirilməsinin üç: diaqnostik, formativ (və ya cari-formalaşdırıcı) və summativ qiymətləndirmə növləri tətbiq olunur.

Diaqnostik qiymətləndirmə-şagirdlərin zəif və güclü tərəflərini müəyyənləşdirmək və sonrakı fəaliyyət dövründə ondan istinad kimi istifadə etmək məqsədi ilə şagirdlər haqqında sistematik məlumatlar toplanması prosesidir. Diaqnostik qiymətləndirmə yeni dərs ilinin əvvəlində və yeni bölmənin tədrisindən əvvəl, şagirdlərə yeni biliklər və bacarıqlar öyrədildikdə, ayrı-ayrı şagirdlər, qruplar və ya bütün sinif təlimdə çətinlik çəkdikdə həyata keçirilir.

Məktəblərimizdə diaqnostik qiymətləndirməyə demək olar ki, əhəmiyyət verilmir. Bəzi müəllimlər təəssüf ki, hələ də öz yanaşması ilə, təxmini olaraq şagirdlərin ancaq bilik və nailiyyətlərini miqdarca qiymətləndirir. Təlimin nəticələrinin müəyyənləşdirilməsində mühüm olan şagirdin fərdi təlim keyfiyyətlərinin necə inkişaf etməsi isə diqqətdən kənarda qalır.

Şagird qiymətləndirilməsinin ən mühüm məsələlərindən biri onun fərdi təlim keyfiyyətlərinin diaqnostikasıdır. Diaqnostik qiymətləndirmədə miqdarca qiymət yazmağa ehtiyac yoxdur, çünki burada müəllim prosesin, səviyyənin ümumi mənzərəsini özü üçün aydınlaşdırır.

Diaqnostik qiymətləndirmə fənn üzrə təlimin hər hansı bir mərhələsində şagirdlərin ilkin bilik və bacarıq səviyyəsinin qiymətləndirilməsidir. Diaqnostik qiymətləndirmə adından da məlum olduğu kimi şagirdə və ya bütöv sinfə qoyulan diaqnozdur. Şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit

haqqında məlumat almağa imkan verir. Bu qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində və portfolio qovluğunda öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri məlumatlandırılır.

Diaqnostik qiymətləndirmədə istifadə olunan metod və vasitələr bunlardır:

- Müsahibə
- Söhbət
- Müşahidə
- Tapşırıqların yerinə yetirilməsi
- Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq

Diaqnostik qiymətləndirmə həm də şəraitə görə təlim məqsədləri və strategiyalarda çevik dəyişikliklər aparılmasına imkan yaradır.

Diaqnostik qiymətləndirməyə aid bir nümunəyə baxaq.

1. Yeni dərs ilinin başlanğıcında "İlk kimyəvi anlayışlar" tədris vahidi (bölməsi) öyrənilərkən şagirdlərin ən mühüm kimyəvi anlayışlar barədə məlumatlarının səviyyəsi yoxlanılır. Bu məqsədlə şifahi və ya yazılı sorğu aparılır:

a) Hansı kimyəvi maddələri tanıyırsınız?

b) Oksigen barədə bildiklərinizi danışın;

c) Karbon qazı barədə nə bilirsiniz?

d) Hansı metalları tanıyırsınız?

e) Kömür və kükürd barədə nə bilirsiniz?

ə) Müxtəlif maddələrdən ibarət olan hansı təbii qarışıqlar vardır?

Suallara və tapşırığa dair cavablar dinlənilir, ehtiyac olduqda cavablar dəqiqləşdirilir və genişləndirilir. Müəllim bölmənin materiallarının tədrisi zamanı şagirdlərin yiyələndiyi bilik səviyyəsini nəzərə alaraq sonrakı təlim işini planlaşdırır.

2. "İlk kimyəvi anlayışlar" tədris vahidi öyrənildikdən sonra yeni bölmənin tədrisinə başlamazdan əvvəl diaqnostik qiymətləndirmə aparılır. Bu zaman bütün sinif şagirdlərinin bölmənin əsas materiallarını hansı səviyyədə mənimsədiyini öyrənmək məqsədilə kiçik summativ qiymətləndirmədən əvvəl siniflə söhbət aparılır və kiçik qruplarda tapşırıqlar həll edilir. Söhbət və tapşırıqların məzmununda şagirdlərin saf, bəsit və mürəkkəb maddə, qarışıq, atom və molekul, onları təşkil edən hissəciklər haqqında ilkin məlumat,

kimyəvi element, nisbi atom nisbi molekul kütləsi, maddə miqdarı, molyar kütlə, molyar həcm və onlara aid hesablamalara dair bilik və bacarıqların necə, hansı səviyyədə mənimsənilməsi məsələləri durmalıdır.

Səviyyələr üzrə təsvirlərin hazırlanması üçün təlimat:

• Qısa və sadə tərzdə olmalıdır. Şagirdin anlayacağı sadə dildən istifadə edilməlidir.

• Müqayisəli və ya normativ dildən fərqli olaraq deskriptiv (təsviredici) dildən istifadə edin. Pis, orta, kafi, yaxşı və ya əla kimi qeyri - müəyyən deskriptorlardan uzaq durulmalıdır.

• Səviyyə deskriptorları müşahidə oluna bilən davranışlar və ya nəticənin xüsusiyyətləri baxımından mümkün dərəcədə ifadə edilməlidir.

• Qiymətləndirmə səviyyələri arasında sərhəd aydın olmalıdır, üst-üstə düşməməlidir.

• Şkala şagird nailiyyətləri intervalını tam əhatə etməlidir.

• Təsvirlərin məzmunu nailiyyət səviyyələri üzrə eyni formalı tərtib edilməlidir.

• Fəaliyyət səviyyələri bütün aspektlər üzrə uyğun olmalıdır (məs: Bir aspekt üzrə "4" qiyməti digər aspekt üzrə "4" qiyməti ilə müqayisə oluna bilməlidir)

• Əvvəlcə "ən yüksək", sonra isə "ən aşağı" səviyyəni təsvir edin, sonda "aralıq" səviyyələri təsvir edin.

• Ən yüksək səviyyə: yüksək tələbkarlığa malik, lakin bununla yanaşı real olmalıdır.

• Ən aşağı səviyyə: yalnız çatışmazlıqları deyil, həmçinin minimal nailiyyətin xüsusiyyətlərini əks etdirməlidir.

## İstifadə edilmiş ədəbiyyat

1. "Ümumtəhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə istisna olmaqla) aparılması Qaydası" (Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 28.12.2018-ci il tarixli 8/1 nömrəli qərarı).

2. Əliyev A.H., Əliyev A.B. Müasir tələblər baxımından şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi haqqında // Sənətkar, 2001, № 5, səh.45-49.

3. Mehrabov A.O. Əliyev A.H. Təhsil sistemində qiymətləndirmənin reallaşdırılması yolları // Təhsil, mədəniyyət, incəsənət. 2002, № 3, səh.3-14.

4. Mehrabov A.O. Əliyev A.H., Təhsil sistemində qiymətləndirmə problemi və onun reallaşdırılması imkanları // Təhsil, mədəniyyət, incəsənət. 2002, № 2, səh.11-19.

5. Зяблова Е.В. Рейтинговая система оценки знаний при изучении органической химии // Химия: методика преподования. 2005, № 4, стр. 64-71.

## 3.7. Coğrafiya fənni üzrə məktəbdaxili qiymətləndirmə mexanizmləri

Təhsildə qiymətləndirmə şagirdləri bir-birindən fərqləndirmək üçün deyil, onların mənimsəmə səviyyəsini, problemlərini üzə çıxarmaq üçün ölçü vasitəsidir. Yəni, şagirdin şəxsi keyfiyyətləri deyil, onun fəaliyyəti qiymətləndirilməlidir. Qiymətləndirmə ilk növbədə şagirddə müsbət emosiyalar yaratmalıdır. Təlimdə müəllim ən çox şagirdin səhvlərini deyil, nailiyyətlərini vurğulamalı, cəzadan çox dəstək verməyə çalışmalıdır.

Hal-hazırda təhsil sistemində "qiymətləndirmə", "qiymət vermə" və "qiymət" kimi anlayışlar eyni cür anlaşılır və izah olunur. Lakin bu anlayışları araşdırarkən onların fərqli olduqları üzə çıxır.

Şagirdlər tədris fəaliyyəti prosesində keyfiyyətli nəticələrə nail ola bilsinlər deyə, müasir qiymətləndirmə aşağıdakı məsələlərə cavab verməlidir: prosesin bütün iştirakçılarına (şagird, müəllim, idarəedənlər, valideynlər) aydın, elastik, rahat, çoxtərkibli, çoxvasitəli, obyektiv, adekvat və s.

Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin üç növündən istifadə olunur: diaqnostik, formativ və summativ qiymətləndirmə.

Diaqnostik qiymətləndirmə ilin, tədris vahidinin, mövzuların əvvəlində şagirdin ilkin bilik və bacarıqlarına qoyulan qiymətləndirmədir. Qiymətləndirmənin bu növü müəllimə şagirdləri tanımağa, onların potensial imkan və səviyyələrini, ehtiyaclarını müəyyən etməyə imkan yaradır. Bu qiymətləndirmənin əsas məqsədi şagirdlərin öyrənmə prosesində qarşılaşdıqları problemləri tez müəyyən etmək və onun həll edilməsinə görə planlaşdırma aparmaqdır.

**Nümunə:**

**IX sinif.**

**Mövzu 21. Avropanın daxili suları**

1. Bakıdan İstanbula gedən gəminin hansı su hövzələrindən keçdiyini ardıcıl yazın.

Formativ qiymətləndirmə fasiləsiz olaraq şagirdi dərs prosesində müşahidə etməyə imkan yaradır, onun irəliləmə və geriləməsinin müəyyənləşdirilməsində müəllimə yol göstərir. Formativ qiymətləndirmə sayəsində şagird gündəlik təlim fəaliyyəti ərzində rəqəmli qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır. Bu qiymətləndirmə şagirdin problemlərini aradan qaldırmaq və onu istiqamətləndirmək üçün aparılır. Formativ qiymətləndirmə şagirdin fərdi kompetensiyalarına görə qiymətləndirilərkən daha effektli olur.

Formativ qiymətləndirmə zamanı meyarlar elə müəyyənləşdirilməlidir ki, hər bir şagirdin fərdi keyfiyyətlərinə uyğun gəlsin. Həmçinin müəyyənləşdirilmiş meyarlar aydın ifadə olunmalıdır ki, şagird və valideyn üçün mümkünsüz görünməsin.

Formativ qiymətləndirmə prosesində müəllimin əsas vəzifələrindən biri şagirdlərlə səmərəli əks-əlaqə yaratmaqdan ibarətdir. Əks-əlaqə müəllimə təlim-tədris prosesinin necə getməsi, şagirdin nailiyyət səviyyəsi və problemləri barədə məlumat verən, tədrisin vəzifələrini təyin edən bir alət kimi də başa düşülə bilər.

Müəllimin səmərəli əks-əlaqə yaratması onun şagirdin nəyi yaxşı səviyyədə yerinə yetirdiyini qeyd etməsi, buraxdığı səhv və nəticələri yaxşılaşdırmaq barədə konkret təkliflər verməsi ilə təyin olunur.

Ümumtəhsil pilləsində müəllim və şagirdlər arasında əks-əlaqənin şifahi – (verbal) və yazılı formalarından istifadə edilir.

**Şifahi əks-əlaqə**. Şagirdin yerinə yetirdiyi tapşırığın və onun fəaliyyətinin müəllim tərəfindən müşahidəsinin yekunlarına əsasən şifahi şəkildə (sözlə) verilən tövsiyələr şifahi əks-əlaqə adlanır. Şifahi əks-əlaqə şagirdin tədris fəaliyyətinin inkişaf dinamikasını açmaq, bilik və bacarıqlarını təhlil etmək, ona lazımi köməkliyin göstərilməsi üçün imkanlar yaradır. Bu əks-əlaqə bütün hallarda müəllimin şagirdə optimist münasibətini əks etdirib onun həvəsləndirilməsinə, onda özünəinam və təhsil səviyyəsinin yüksəldilməsinə (təhsilalma və öyrənmə) pozitiv münasibət formalaşdırmağa xidmət edir.

**Yazılı əks-əlaqə**. Sözlə əks-əlaqədən fərqli olaraq yazılı əks-əlaqə zamanı şagirdin yazılı şəkildə yerinə yetirdiyi formativ qiymətləndirmə vasitələrinin yoxlanılmasından sonra ona yazılı şəkildə konkret tövsiyələr verilir. Bu əks-əlaqə digər maraqlı tərəflərə vaxtında və dəqiq məlumatlar verməyə imkan yaradır.

**Nümunə:**

**IX sinif**

**Mövzu 3. Avropanın relyefi**

**I səviyyə.** Avropa neçə regiondan ibarətdir? Regionlar hansılardır?

**II səviyyə. Şərqi Avropa regionuna aid olan xüsusiyyətləri təyin edin:**

1. Şimalında buzlaq relyef formaları üstünlük təşkil edir.
2. Fəaliyyətdə olan vulkanlar geniş yayılmışdır.
3. Cənubunda Krım və Qafqaz dağları yerləşir.
4. Eol-akkumlyativ relyef formaları geniş yayılmışdır.
5. Yalnız Paleozoy yaşlı dağlara rast gəlinir.
6. Ukrayna, Belarus və Rusiya ərazilərini əhatə edir.

**III səviyyə.** Avropanın regionlarının fərqli və oxşar cəhətlərini (coğrafi mövqe, təbiət, reylef, iqtisadiyyat cəhətdən) müəyyənləşdirin.

**IV səviyyə.** Fiziki xəritəyə əsasən şimaldan cənuba doğru Avropada regionların ərazisinin hündürlüyünün necə dəyişdiyini müəyyən edin. Regionun hündürlüyünü nəzərə alaraq, Avropanın hansı regionu geoloji yaşına görə daha cavan və ya yaşlı ola bilər?

Bu gün bir çox müəllimləri düşündürən məsələlərdən biri də “kiçik qrupla iş” forması zamanı formativ qiymətləndirmənin aparılmasıdır.

Qrup işinin təşkili zamanı müəllim əvvəlcədən qrup işinin məqsədini, öyrəniləcək mövzunu, qiymətləndirmə meyarlarını, tapşırığı həll etmək üçün qoyulan vaxtı və s. elan edir.

Müəllim əvvəlcədən meyar cədvəli hazırlayır və şagirdləri meyarlarla tanış edir. Məsələn, aşağıdakı kimi bir meyar cədvəli hazırlamaq olar:

| Meyarlar / Qruplar | Əməkdaşlıq (qrup daxilində vəzifə bölgüsünə əməl etmək) | Davranış (digər qruplara işləməyə mane olmamaq) | Tapşırığın cavabını izah və təqdim etmək | Digər qrupları dinləmək, sual vermək və əlavələr etmək | Yekun |
|---|---|---|---|---|---|
| I | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| II | | | | | |
| III | | | | | |
| IV | | | | | |

Cədvəldə göstərilən meyarların hamısı eyni vaxtda qiymətləndirilmir. Tapşırıq qruplara paylanıb, vaxt elan olunduqdan sonra müəllim əməkdaşlıq və davranış sütunlarına müvafiq olaraq + və ya – işarəsini qoyur. 3-cü və 4-cü meyarlar isə qrup nümayəndələrinin təqdimatı zamanı qiymətləndirilir.

Qrup işlərinin nəticəsi müəllimə qərar qəbul etməyə köməklik göstərir: əgər nəticə müsbətdirsə müəllim mövzunun öyrənilməsinə davam edir, yox əgər nəticə çox zəifdirsə, bu zaman müəllim əlavə tapşırıqlar verir. Əlavə tapşırıqlar verərkən müəllimin təlim formasını dəyişməsi məsləhət görülür. Müəllim əlavə tapşırıqları fərdi və ya cütlərlə verə bilər.

Məktəbdaxili qiymətləndirmənin üçüncü növü summativ qiymətləndirmədir. Artıq bu zaman şagirdlərin əldə etdikləri kompetensiyalar qiymətləndirilir. Ənənəvi təhsildə əgər şagirdlərin faktları, düsturları, hadisələri, formulları, tarixləri və s. yadda saxlayıb, danışmaları qiymətləndirilirdisə, səriştəyə əsaslanan yeni təhsil proqramında şagirdlərin daha yüksək bacarıqları qiymətləndirilməlidir. Summativ qiymətləndirmə zamanı müxtəlif vasitələrdən istifadə etmək vacibdir. Müəllimlərin summativ qiymətləndirmə zamanı istifadə etdikləri testlər şagirdin şəriştəsini yoxlamağa imkan yaratmır. Testlər deklarativ biliklərin yoxlanılması üçün daha əlverişlidir. Lakin şagirdin yalnız bilmə və anlama səviyyəsinin yoxlanılması təhsilin və təhsilalanın inkişafına xələl gətirir. Summativ qiymətləndirmə vasitələri hazırlayarkən müəllim bir neçə sual üzərində düşünməlidir:

-Şagird mövzunu necə mənimsəyib?

-Mənimsədiyini tətbiq edə bilirmi?

-Daha irəli getmək üçün potensialı nə qədərdir?

Summativ qiymətləndirmələr tədris vahidlərinin sonunda kiçik (KSQ), yarımillərin sonunda isə böyük (BSQ) olaraq aparılır. Summativ qiymətləndirmə zamanı rəqəmlərdən istifadə olunur. 5 ballıq qiymətlə bərabər, həm də 100 ballıq şkaladan istifadə olunur. Sinif jurnalında summativlər üçün 2 sütun ayrılır birinci sütunda ballar, ikinci sütunda isə qiymət yazılır.

Coğrafiya fənni üzrə 6,7,8 və 10-cu siniflərdə də BSQ aparılmır. Yarımildə ən azı 3, ən çoxu isə 6 KSQ keçirilir.

Summativ qiymətləndirmə vasitələri çətinlik dərəcəsinə görə 4 səviyyədə hazırlanır.

- 1-ci səviyyə üzrə suallar - 20%
- 2-ci səviyyə üzrə suallar - 30%;
- 3-cü səviyyə üzrə suallar - 30%;
- 4-cü səviyyə üzrə suallar - 20%.

1-ci çətinlik səviyyəsinə daha asan, yaddaşa əsaslanan, fakt- lar və terminlərlə bağlı suallar aid edilir. Bu səviyyə üzrə sualların cəmi 20 bal olmalıdır.

2-ci çətinlik səviyyəsinə asana daha yaxın, orta səviyyəli sual və tapşırıqlar daxildir. Bu suallar izahvermə, ümumiləşdirmə xarakterli olur. 2-ci səviyyə üzrə sualların cəmi 30 baldır.

3-cü çətinlik səviyyəsinə çətinə yaxın orta səviyyəli suallar və tapşırıqlar aiddir. Bu tapşırıqlar səbəb-nəticə əlaqələrinin qurulması, qanunauyğunluqlar, təhlil, məntiqə əsaslanan olmalıdır. 3-cü səviyyə üzrə sualların cəmi 30 bal olmalıdır.

4-cü çətinlik səviyyəsinə çətin sual və tapşırıqlar aiddir. Bu tapşırıqlar yaradıcı təfəkkür, proqnozlaşdırma, məsələlərə orijinal yanaşma, analiz etmə, problemi müəyyən edib, onu həll etmə bacarıqlarını yoxlamaq xarakterində olmalıdır. 4-cü səviyyə üzrə sualların cəmi 20 bal müəyyənləşdirilmişdir.

**Nümunə:**

**IX sinif**

***Böyük summativ qiymətləndirmə 1***

**1.** Şimali Amerikada relyef vahidlərinin qərbdən şərqə doğru düzgün ardıcıllıqla verildiyi sıranı müəyyən edin: (10 bal)

A) Sahil sıra dağları, Qayalı dağlar, Böyük düzənliklər, Meksika yaylası

B) Missisipi ovalığı, Qayalı dağlar, Böyük düzənliklər, Sahil sıra dağları

C) Böyük hövzə, Böyük düzənliklər, Meksika yaylası, Missisipi ovalığı

D) Sahil sıra dağları, Böyük hövzə, Qayalı dağlar, Böyük düzənliklər

E) Sahil sıra dağları, Qayalı dağlar, Böyük hövzə, Böyük düzənliklər

**2.** Dağın mütləq hündürlüyü 1090 m-dir. Kəsmə yüksəkliyi 100 m olarsa, həmin dağın ətəyindən 480 m hündürlükdəki nöqtə ilə zirvə arasından neçə horizontal keçirmək olar? (5 bal)

A) 11 B) 6 C) 16 D) 5 E) 4

**3.** Kiçik Qafqaz, Böyük Qafqaz və Kür tektonik zonalarına uyğun gələn relyef vahidlərinin müvafiq ardıcıllığını müəyyən edin. (5 bal)

A) Talış dağları, Qanıx-Əyriçay vadisi, Lənkəran ovalığı

B) Qarabağ silsiləsi, Yan silsilə, Şollar düzü

C) Şərqi Göyçə dağları, Şollar düzü, Qarabağ düzü

D) Murovdağ silsiləsi, Qobustan alçaq dağlığı, Qanıx-Əyriçay vadisi

E) Zəngəzur silsiləsi, Bozdağ silsiləsi, Şirvan düzü

**4.** İfadələrin hansı regiona aid olduğunu tapın və cədvəli dəftərinizdə tamamlayın (5 bal).

1. Şərabçılıq regionun aparıcı sahələrindən biridir.
2. Ölkələrin əksəriyyəti yaxın zamana qədər sosialist blokuna daxil olmuşdur.
3. İsrail və Livan bu regiona daxildir.
4. Zəngin neft və qaz yataqlarına malikdir.
5. Mineral ehtiyatlarla zəif təmin olunmuşdur.

| | |
|---|---|
| Cənubi Avropa | |
| Şimali Afrika | |
| Cənub-Şərqi Avropa | |
| Cənub-Qərbi Asiya | |

**5**. Ekvatordan eyni məsafədə Şimal və Cənub yarımkürəsində yerləşmiş A və B məntəqələrində Günəşin minimum düşmə bucağı 56,5° olarsa, orta miqyaslı qlobusda bu məntəqələr arasındakı məsafəni hesablayın. (10 bal)

A) 4,44 sm B) 4,81 sm C) 2,41 sm

D) 11,1 sm E) 48,3 sm

**6**. Şimal yarımkürəsində tropik iqlim qurşağının pozulduğu ərazilər və bunun səbəbi:(5 bal)

A) Cənubi, Cənub-Şərqi Asiya; mussonların təsiri

B) Cənub-Qərbi və Cənubi Asiya; alçaq təzyiq sahəsi

C) Şimali və Qərbi Afrika; şimal-şərq passatları

D) Meksika yaylası, Antil adaları; tropik hava kütlələri

E) Mərkəzi və Şimali Asiya; okeanların yumşaldıcı təsiri

**7.** Bakıda saat 5:23 dəqiqədir. Ondan cənub-qərbdə yerləşən, yay gündönümündə günəş şüalarının günorta 29,5° bucaq altında düşdüyü *A* məntəqəsində isə saat 21:47 dəqiqədir. *A* məntəqəsinin yerləşdiyi saat qurşağını və onun coğrafi koordinatlarını müəyyən edin. (10 bal)

A) XIX;77° şm.e.; 88° q.u.

B) XX; 37° c.e.; 64° q.u.

C) XX;40° şm.e.; 118° q.u.

D) V;35° c.e.; 68° ş.u.

E) VIII;30° şm.e.; 118° q.u

**8.** Tanqanika, Nyasa, Viktoriya, Rudolf gölü sahilində yerləşən ölkələri müvafiq ardıcıllıqla tapın:(15 bal)

1. Mozambik, Malavi, Tanzaniya

2.Keniya, Efiopiya

3.Uqanda, Tanzaniya, Keniya

4.Burundi, Konqo DR, Tanzaniya, Zambiya

A) 4,1,3,2; B) 3,2,4,1; C) 3,2,1,4; D) 4,2,1,3 E) 1,2,4,3

**9.** Cədvələ əsasən düzgün verilmiş sıraları seçin. (15 bal)

| № | Çayın adı | Mənsəb forması | Mənsəbi | Keçdiyi ölkə |
|---|---|---|---|---|
| 1. | Mekonq | delta | Cənubi Çin dənizi | Tailand, Vyetnam |
| 2. | Orinoko | delta | Atlantik okeanı | Kolumbiya, Venesuela |
| 3. | Parana | estuari | La-Plata körfəzi | Boliviya, Uruqvay |
| 4. | Reyn | delta | Şimal dənizi | Almaniya, Niderland |
| 5. | İravadi | estuari | Andaman dənizi | Çin, Myanma |
| 6. | Hind | delta | Ərəbistan dənizi | Hindistan, Pakistan |

A) 1,2,6   B) 1,3,4   C) 1,4,5   D) 3,5,6   E) 2,3,5

Məsələ həlli üçün ayrılmış yer:

**10.** Suvarma kanalı → başladığı yer → suvardığı ərazi ardıcıllığı üzrə doğru sıraları təyin edin: (20 bal)

1. Əzizbəyov → Mil-Muğan su qovşağı → Muğan düzü

2. Yuxarı Qarabağ → Mingəçevir su anbarı → Qarabağ, Mil düzləri

3. Baş Mil → Bəhramtəpə su qovşağı → Mil düzü

4. Samur-Abşeron → Samur çayı → Abşeron yarımadası

5. Baş Muğan → Bəhramtəpə su qovşağı → Muğan düzü

6. Boztəpəarx → Köndələnçay → Qarabağ düzü

Qiymətləndirmə vasitələri fənnin məzmun standartlarına uyğun və keyfiyyətli hazırlanmalıdır. Məktəb rəhbərliyi qiymətləndirmə vasitələrinin hazırlanmasına və nəticələrin təhlil olunub, müvafiq qərar çıxarılmasına nəzarət etməlidir.

Məktəbdaxili qiymətləndirmə dərs ili ərzində tətbiq olunan fənn üzrə məzmun standartlarının əsasında yaradılmış müvafiq qiymətləndirmə standartlarını ölçmək üçün hazırlanmış qiymətləndirmə vasitələri ilə şagirdin fəaliyyətini izləyir, müşahidə edir, nailiyyətlərini qiymətləndirir, nəticələrin təhlili əsasında şagirdə, müəllimə, valideynə, müvafiq təhsil idarəetmə orqanlarına həlli vacib olan problemlər və onların icra edilmə yolları barədə təkliflər verir.

### İstifadə edilmiş ədəbiyyat


1. "Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası". Bakı, 2009.
2. "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu.
3. Afət Süleymanova "Təhsilin əsasları". Bakı, 2014.
4. Оценивание учебных достижений учащихся. Шакиров Р. Х., Буркитова А. А., Дудкина О. И. Бишкек 2012.
5. Бардин К.В. Как научить детей учиться. Москва, 1987.


## 3.8. Texnologiya fənninin tədrisində formativ qiymətləndirmə mexanizminin hazırlanması

Formativ qiymətləndirmə məzmun standartlarının tələblərinə uyğun bilik və bacarıqların əldə olunması sahəsində şagirdlərin irəliləyişlərinin monitorinqidir. Monitorinqlər həm müşahidələr əsasında, həm də şagirdin təlim nəticələrini izləyib müvafiq qeydlər aparmaqla, yaxud digər bir uyğun formadan istifadə etməklə həyata keçirilir. Burada əsas məqsəd texnologiya müəlliminin, əsasən, aşağıdakı suallara düzgün və obyektiv cavab müəyyənləşdirməsindən ibarətdir:

– Şagirdin texnologiya fənnindən geri qalması hansı səbəbdəndir və bunu aradan qaldırmaq üçün nə etməliyəm?

– Şagirdlərin bilikləri tətbiqetmə bacarıqları tələbləri ödəyir, yoxsa əlavə tədbirlərə ehtiyac vardır?

– Şagirdlərin texnoloji bilik və bacarıqlarının inkişafı üçün istifadə olunan metod və üsulları dəyişmək, yoxsa onları təkmilləşdirmək zərurəti yaranmışdır?

– Texnologiya fənninə maraq yaratmaq üçün hansı tədbirləri görməliyəm?

– İstedadlı şagirdlərlə iş sahəsində hansı yenilikləri etməliyəm?

Formativ qiymətləndirmə monitorinq və müşahidələrin nəticələrinə əsaslansa da, müəllim tərəfindən onun nəticələrinin qeydiyyatı aparılmalı, bunun üçün hər bir müəllim formativ qiy-mətləndirmə dəftəri tərtib etməlidir.

Şagirdlərin bilik, bacarıq və vərdişlərinin meyarlar üzrə qiymətləndirilməsi texnologiyası təlimin aktual metodikalarından biri olduğu üçün o, müasir təhsilin bir çox problemlərinin həll olunmasına köməklik edə bilər.

Texnologiya dərslərində şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi meyarları aşağıdakı növlərə ayrılır:

1. Şagirdlərin şifahi cavablarının qiymətləndirilməsi meyarları;
2. Şagirdlərin praktik işlərinin qiymətləndirilməsi meyarları;
3. Şagirdlərin təqdim edəcəkləri layihələrin qiymətləndirilməsi meyarları.
4. Şagirdlərin bilik və bacarıqlarının test üzrə qiymətləndirilməsi meyarları.

**Texnologiya fənnində şagirdlərin şifahi cavablarının qiymətləndirilməsi meyarları.** Texnologiya fənnindən verilmiş mövzu üzrə hər bir şagirdin şifahi cavabı bir-biri ilə əlaqəli, məntiqi cəhətdən ardıcıl məlumat formasında olmalı, konkret hallarda qanun və qanunauyğunluqları tətbiq etmək bacarığını əks etdirməlidir.

Şagirdlərin **şifahi cavablarının** qiymətləndirilməsi zamanı aşağıdakı ümumi meyarlar əsas götürülməlidir:

– cavabın düzgünlüyü və tamlığı;

– öyrənilən materialın başa düşülmə və dərkedilmə dərəcəsi;

– cavabın dil baxımından səlisliyi.

Metodik ədəbiyyatda belə qəbul olunmuşdur ki, qiymət müəllim və şagird arasında belə demək olarsa, «əks əlaqəni» ifadə edir. Başqa sözlə desək, qiymətləndirmə təlim prosesinin elə bir mərhələsidir ki, bu mərhələdə müəllim

sanki şagird tərəfindən, öyrənilən mövzunun nə dərəcədə səmərəli olması haqqında müəyyən məlumat əldə edir. Şagirdlər isə onu başa düşməlidirlər ki, müəllim daimi olaraq onların müvəffəqiyyətini, əldə etdikləri biliklərin keyfiyyətini nəzarətdə saxlayır.

Texnologiya fənnindən şagirdlərin şifahi cavablarının qiymətləndirilməsi aşağıdakı meyarlar üzrə aparılır:

IV səviyyə - şagird öyrənilən nəzəri materialı tam şərh edir, öz mülahizələrini əsaslandırır, biliklərini praktikada necə tətbiq edəcəyini şərh edir, nəinki dərslikdə verilən materialdan, eləcə də müstəqil tədqiq etdiyindən misal çəkir, ədəbi dil normaları nöqteyi-nəzərindən materialı ardıcıl və düzgün şərh edir.

III səviyyə - şagird IV səviyyənin tələblərinə cavab verir, lakin 1–2 səhv buraxaraq onu eyni zamanda düzəldir, materialın şərhi zamanı onun ardıcıllığında cüzi səhvlərə yol verir.

II səviyyə **-** şagird öyrənilən materialda əsas bilikləri təyin edə bilir, lakin materialı tam şərh edə bilmir, anlayışların və qaydaların ifadə və təyin edilməsində qeyri-dəqiqliyə yol verir, öz mülahizələrini əsaslandırmaqda və dərslikdəkindən fərqli misallar gətirməkdə çətinlik çəkir, materialı qeyri-ardıcıl şərh edir və şərh zamanı ədəbi dil nöqteyi-nəzərindən səhvlərə yol verir.

I səviyyə - şagird öyrənilən materialın böyük bir hissəsini bilmir, qaydaları və bir çox fikirləri ifadə edərkən onların mənasını təhrif edən çoxlu sayda səhvlərə yol verir, materialı inamsız və sistemsiz şərh edir.

**Texnologiya dərslərində şagirdlərin praktik işlərinin qiymətləndirilməsi meyarları.** Texnologiya dərslərində şagirdlərin praktik işlərinin qiymətləndirilməsində müəllim tərəfindən nəzərə alınacaq texnoloji tələblər aşağıdakılardır:

– şagirdlərin yerinə yetirdikləri praktik işin keyfiyyəti;

– praktik işin yerinə yetirilmə müddəti;

– praktik işin icrası zamanı müxtəlif texnologiyaların yerinə yetirilmə səviyyəsi;

– praktik işi icra etdikdə təhlükəsizlik texnikası və sanitariya-gigiyena qaydalarına əməl etmələri.

Praktik işlərin yerinə yetirilməsində müəllim tərəfindən nəzərə alınacaq texnoloji tələblər üzrə şagirdlərin bilik və bacarıqları aşağıda göstərilmiş meyarlara əsasən aparılmalıdır:

Şagirdin yerinə yetirdiyi praktik işin keyfiyyəti üzrə meyarlar:

IV səviyyə - şagirdin hazırladığı məmulat çertyoja tam uyğundur, bütün ölçülər dəqiqdir, məmulatda tamamlama işləri nümunədə göstərilənə tam uyğundur.

III səviyyə - şagirdin hazırladığı məmulat çertyoja tam uyğundur, bütün ölçülər dəqiqdir, lakin məmulatda tamamlama işlərinin keyfiyyəti tələb olunandan aşağıdır.

II səviyyə -şagirdin hazırladığı məmulat çertyoja bəzi kənara çıxmalarla uyğundur, məmulatda aparılan tamamlama işləri kafidir.

I səviyyə- şagirdin hazırladığı məmulat çertyoja uyğun deyil, məmulatın keyfiyyəti nümunədə göstərilənə uyğun deyil, hətta məmulatın üzərində aparılacaq əlavə iş onun yararlı olmasını təmin etmir.

Praktik işin yerinə yetirilməsində işin yerinə yetirilmə müddəti də şagird fəaliyyətinin qiymətləndirilməsində əsas rol oynayır.

**Praktik işin yerinə yetirilmə müddəti üzrə meyarlar:**

IV səviyyə **–** şagird praktik işin yerinə yetirilmə müddətinə tam riayət etmişdir və ya tələb olunan müddətdən az müddət sərf etmişdir;

III səviyyə – şagird praktik işin yerinə yetirilməsinə ayrılan müddətdən artıq vaxt sərf etməmişdir.

II səviyyə **–** şagird praktik işin yerinə yetirilməsinə ayrılan müddətdən artıq vaxt sərf etmişdir, lakin bu vaxt ümumi vaxtın 25%-dən artıq deyil.

I səviyyə **–** şagirdin praktik işin yerinə yetirilməsinə sərf etdiyi vaxt normaya görə ayrılan vaxtı 25%-dən çox üstələyir.

Praktik işin icrası zamanı müxtəlif texnologiyaların yerinə yetirilmə səviyyəsi üzrə meyarlar:

IV səviyyə **–** praktik iş əməliyyatların icrası ardıcıllığına uyğun olaraq yerinə yetirilmişdir.

III səviyyə **–** praktik iş texnologiyalara uyğun yerinə yetirilmişdir; iş prosesində göstərilən ardıcıllıqdan kənara çıxmalar prinspial məna daşımır.

II səviyyə **–** praktik iş tələb olunan texnologiyalardan kənara çıxmalarla yerinə yetirilmişdir, lakin bu kənara çıxmalar sonda məmulatın tam yararsız olmasına gətirib çıxarmır.

I səviyyə – praktik iş məmulatın (detalın) emalı texnologiyalardan kobud kənara çıxmalarla yerinə yetirilmiş, nəzərdə tutulmayan əməliyyatlar tətbiq edilmiş və sonda məmulat zay (keyfiyyətsiz, nöqsanlı, yararsız) alınmışdır.

**Praktik işi icra etdikdə təhlükəsizlik texnikası və sanitar-gigiyena qaydalarına əməl edilməsi tələbi üzrə meyarlar**

Yerinə yetirilən praktik işin məzmunundan asılı olmayaraq təhlükəsizlik texnikası və sanitariya gigiyena qaydalarına riayət etmək bütün şagirdlər üçün mütləqdir. Bu qaydaların pozulması yolverilməzdir!

**Texnologiya dərslərində layihələrin təqdimatının qiymətləndirilməsində aşağıdakı meyarlar əsas götürülür.**

1. Layihənin ideya və mövzusunun orijinallığı.

2. Konstruksiya parametrləri (məmulatın quruluşunun uyğunluğu; möhkəmliyi; davamlı olması; istifadədə rahatlılığı).

3. Texnoloji meyarları (sənədlərin uyğunluğu; tətbiqinin orijinallığı və materialların uyğunluğu; təhlükəsizlik texnikası qaydalarına riayət edilməsi).

4. Estetik meyarlar (kompozisiya bitkinliyi, məmulatın dizaynı; xalqın mədəniyyət ənənələrində istifadəsi).

5. İqtisadi meyarlar (məmulata tələbatın olması; iqtisadi əsaslandırılması, istifadədə olması, kütləvi istehsal imkanlarının olması).

6. Ekoloji meyarlar (məmulatın istehsalı zamanı onun ətraf mühitə vuracağı zərərin nə dərəcədə olması, ikinci xammaldan və ya istehsalat tullantılarından istifadə imkanının olması, ekoloji təhlükəsizliyi).

7. İnformasiya meyarları (layihə sənədlərinin standarta uyğunluğu, əlavə məlumatdan istifadə).

Bəyənilmiş işlər dərslərdə bir vəsait kimi istifadə edilə, texniki və dekorativ-tətbiqi yaradıcılıq sərgilərinə göndərilə bilər. Həmçinin bu işlər şəxsi məqsədlərə: evi bəzəməyə, valideynlərə hədiyyə və s. xidmət edə bilər.

Layihələrin təqdimatının məktəblərdə əsl bayrama çevrilməsi arzuolunandır. Layihələrin təqdimatı müəllim və şagirdləri məmnun salmalı, təqdimatdan sonra şagirdlər fikirlərində yeni yaradıcılıq ideyaları tutmalı, növbəti layihənin daha maraqlı və bitkin alınması üzərində çalışmağa hazır olmalıdırlar.

**Şagirdlərin bilik və bacarıqlarının test üzrə qiymətləndirilməsi meyarları**

Şagirdlərin bilikləri mənimsəmələrinin keyfiyyət əmsalı aşağıdakı düstur üzrə hesablanır: $K = \frac{a}{p}$.

Burada **K** – mənimsənilmə səviyyəsi (qiymət); **a** – düzgün cavabların miqdarı; **p** – tapşırıqların ümumi sayıdır.

K > 0,7 olduqda şagirdlərin verilmiş mövzu (və ya tədris vahidi) üzrə bilikləri mənimsəmələri prosesini bitmiş hesab etmək olar, yəni, şagird göstərilən səviyyədə müstəqil işə hazırdır.

K = 0,9 – 1,0 olduqda şagirdin qiymətləndirilməsi "5" qiymətə uyğundur;

K = 0,8 – 0,9 olduqda şagirdin qiymətləndirilməsi "4" qiymətə uyğundur;

K = 0,7 – 0,8 olduqda şagirdin qiymətləndirilməsi "3" qiymətə uyğundur;

K= 0,7 olduqda şagirdin qiymətləndirilməsi "2" qiymətə uyğundur.

Texnologiya dərslərində şagirdlərin bilik və bacarıqlarının formativ qiymətləndirilməsinə aid dərs nümunələrinə nəzər yetirək.

**III sinif**

**Mövzu: Müşahidə əsasında yapma. Kiçik heykəl (2 saat)**

**Standart:** 1.1.1.; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.2.4.; 1.3.1.; 1.3.3.; 1.3.4.; 1.3.5.; 1.3.6.

**Dərsin məqsədi:**

**Şagird:**

1. Şagird müxtəlif emal texnologiyalarına aid iş proseslərini mərhələlər üzrə izah edir.
2. Hazırlanacaq məmulata görə iş yerini təşkil edir.
3. Kiçik heykəli hazırlamaq üçün uyğun emal vasitələri seçir.
4. Kiçik heykəlin hazırlanması ardıcıllığını müəyyənləşdirir.
5. Kiçik heykəlin materialına uyğun emal texnikası seçir.
6. Kiçik heykəlin detallarını hazırlayır.
7. Heykəlin hazırlanmasında sadə tərtibat bacarığı nümayiş etdirir.
8. Heykəlin qrup tərəfindən hazırlanması prosesində birgə fəaliyyət və əməkdaşlıq bacarığı nümayiş etdirir.
9. Heykəlin hazırlanmasında müvafiq təhlükəsizlik və gigiyena qaydalarına əməl edir.
10. Heykəli təqdim edir.

**Qruplar üzrə qiymətləndirmə cədvəli**

| Meyar / Qruplar | I qr. | II qr. | III qr. | IV qr. |
|---|---|---|---|---|
| Yapma texnologiyasına aid iş proseslərini izahetmə | | | | |
| Kiçik heykəlin detallarını hazırlama | | | | |
| Heykəlin hazırlanmasında sadə tərtibat bacarığı nümayiş etdirmə | | | | |
| Birgə fəaliyyət və əməkdaşlıq bacarıqları nümayişetdirmə | | | | |

Hər bir şagirdin formativ qiymətləndirilməsi tapşırıqlar əsasında səviyyələr üzrə aşağıdakı kimi aparıla bilər:

| Tapşırıqlar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| Kiçik heykəlin hazırlanmasını mərhələlər üzrə izah edin. | Kiçik heykəlin hazırlanmasını mərhələlər üzrə izah edə bilmir. | Kiçik heykəlin hazırlanmasını köməkçi suallar əsasında izah edir. | Kiçik heykəlin hazırlanmasını cüzi səhv buraxmaqla izah edir. | Kiçik heykəlin hazırlanmasını mərhələlər üzrə düzgün izah edir. |
| Kiçik heykəlin detallarını hazırlayın. | Kiçik heykəlin detallarını hazırlaya bilmir. | Kiçik heykəlin detallarını müəllimin köməyi ilə hazırlayır. | Kiçik heykəlin detallarını cüzi səhv buraxmaqla hazırlayır. | Kiçik heykəlin detallarını düzgün hazırlayır. |
| Kiçik heykəli hazırladıqda tərtibat bacarıqları nümayiş etdirin. | Kiçik heykəli hazırladıqda düzgün tərtibat bacarıqları nümayiş etdirə bilmir. | Kiçik heykəli hazırladıqda tərtibat bacarıqlarını müəllimin köməyi ilə nümayiş etdirir. | Kiçik heykəli hazırladıqda cüzi səhv buraxmaqla tərtibat bacarıqları nümayiş etdirir. | Kiçik heykəli hazırladıqda düzgün tərtibat bacarıqları nümayiş etdirir. |
| Təhlükəsizlik və gigiyena qaydalarına əməl edin. | Təhlükəsizlik və gigiyena qaydalarına əməl etmir. | Təhlükəsizlik və gigiyena qaydalarına müəllimin köməyi ilə səhv buraxmaqla əməl edir. | Təhlükəsizlik və gigiyena qaydalarına əməl edir. Lakin cüzi səhvlərə yol verir. | Təhlükəsizlik və gigiyena qaydalarına düzgün və ciddi əməl edir. |

**VIII sinif**

**Mövzu: Ağac üzərində bədii yandırma texnologiyası**

**Standart:** 1.1.1.; 1.2.1.; 1.2.2.; 1.2.3.; 1.3.1.; 1.3.2.; 1.3.3.; 1.3.4.

**Dərsin məqsədi:**

**Şagird:**

1. Ağac üzərində bədii yandırma texnologiyasını izah edir.
2. İş yerini təşkil edir.
3. Ağac üzərində bədii yandırmanın yerinə yetirilməsi ardıcıllığını müəyyənləşdirir.
4. Ağac üzərində bədii yandırma işlərini yerinə yetirmək üçün emal texnologiyaları seçir.

5. Ağac üzərində bədii yandırma texnologiyasından istifadə edərək məmulat hazırlayır.

6. Məmulat hazırladıqda tərtibat bacarıqları nümayiş etdirir.

7. Qrup tərkibində birgə fəaliyyət bacarıqları nümayiş etdirir.

8. Ağac üzərində bədii yandırma işlərini yerinə yetirərkən təhlükəsizlik qaydalarına əməl edir.

**Qruplar üzrə qiymətləndirmə cədvəli**

| Meyarlar / Qruplar | I qr. | II qr. | III qr. | IV qr. |
|---|---|---|---|---|
| Bədii yandırma texnologiyasını izah etmə | | | | |
| İş ardıcıllığını müəyyənləşdirmə | | | | |
| Tərtibat bacarıqları nümayişetdirmə | | | | |
| Birgəfəaliyyət bacarıqları nümayişetdirmə | | | | |
| Təqdimetmə | | | | |

Hər bir şagirdin formativ qiymətləndirilməsi tapşırıqlar əsasında səviyyələr üzrə aşağıdakı kimi aparıla bilər:

| Tapşırıqlar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| Bədii yandırma texnologiyalarını izah edin. | Bədii yandırma texnologiyalarını izah edə bilmir. | Bədii yandırma texnologiyaların ı sualların köməyi ilə izah edir. | Bədii yandırma texnologiyaların ı cüzi səhvlərlə izah edir. | Bədii yandırma texnologiyaların ı düzgün izah edir. |
| İş ardıcıllığını müəyyənləşdirin. | Bədii yandırma texnologiyaların ın adıcıllığını müəyyənləşdirə bilmir. | Bədii yandırma texnologiyalarının ardıcıllığını müəllimin köməyi ilə müəyyənləşdirir. | Bədii yandırma texnologiyalarının ardıcıllığını cüzi səhvlərlə müəyyənləşdirir. | Bədii yandırma texnologiyaların ın adıcıllığını düzgün müəyyənləşdirir. |
| Tərtibat bacarıqları nümayiş etdirin. | Bədii yandırmada tərtibat bacarıqları nümayiş etdirə bilmir | Tərtibat bacarıqlarının nümayişində müəllimin köməyindən istfadə edir | Tərtibat bacarıqlarını cüzi səhvlərlə nümayiş etdirir. | Düzgün tərtibat bacarıqları nümayiş etdirir. |

Formativ qiymətləndirmə hər bir şagirdin inkişafında hərəkətverici amildir və öyrənmənin həlledici komponentlərindən biridir. Müəllim bu cür nəzarət vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin materialın uğurlu mənimsənilməsinə doğru irəliləməsini təmin edir, eyni zamanda tələb olunan səviyyədə nailiyyətlər göstərməyən şagirdlərin ehtiyaclarını öyrənə-

rək onlara əlavə yardım göstərir. Bu mənada müəllimlərin faktiki fəaliyyətinin nəticələri müəllimin özü üçün tədrisin effektivliyinin real göstəricilərinə çevrilir.

## İstifadə edilmiş ədəbiyyat


1. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: 2008.

2. Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. Bakı: 2010

3. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları). Bakı: 2010.

4. Mehrabov A.O., Cavadov İ.A. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: 2007.

5. Cavadov İ.A, Cavadova S.E., Hüseynli T.N, Ələkbərova C.M, Nəcəfova S.A. Ümumi təhsildə şagird nailiyyətlərinin formativ qiymətləndirilməsi. Bak: 2018

7. Mahmudov N.M. Ümumi təhsil pilləsində qiymətləndirmə. Bakı: 2012

8. http://www.myshared.ru/slide/1010654/

9. https://nsportal.ru/shkola/tekhnologiya/library/2012 /11/21/kriterii-otsenki-znaniy-i-umeniy-uchashchikhsya

10. Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Kollegiyasının 28.12.2018-ci il tarixli 8/1 nömrəli qərarı: “Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası".


## 3.9. Musiqi dərslərində şagirdlərin fəaliyyətlərinin formativ qiymətləndirilməsi

Formativ qiymətləndirmə şagirdlərin məzmun standartlarının mənimsənilməsi ilə əlaqədar irəliləyişlərin monitorinqidir. Monitorinqlər müşahidələr əsasında şagirdlərin nəticələrini izləyib müvafiq qeydlər aparmaqla həyata keçirilir. Burada əsas məqsəd müəllimin aşağıdakı suallara düzgün və obyektiv cavab müəyyənləşdirməsindən ibarətdir:

1. Şagirdin geri qalması hansı səbəbdəndir və onları aradan qaldırmaq üçün nə etmək lazımdır?

2. Şagirdlərin tətbiqetmə bacarıqları tələbləri ödəyirmi, yoxsa əlavə tədbirlərə ehtiyac varmı?

3. Şagirdlərin inkişafı üçün mövcud metod və üsullar yetərlidirmi, yoxsa onları təkmilləşdirmək zərurəti yaranmışdırmı?

4. Fənnə maraq yaratmaq üçün hansı tədbirləri görmək lazımdır?

5. İstedadlı şagirdlərlə iş sahəsində hansı yenilikləri etmək lazımdır?

Formativ qiymətləndirmə summativ qiymətləndirməyə aparan yoldur. Formativ qiymətləndirmənin nəticələri rəqəmlərlə deyil, sözlə ifadə olunur və nəticədə şagird qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır.

Musiqi fənni şagirdlərin emosiya və duyğu dünyasını inkişaf etdirir, hadisələri anlamağı, qəhrəmanlara şəfqət göstərməyi öyrədir, öz dünyagörüşünün formalaşmasına kömək edir. Şagirdlərin müxtəlif növ musiqi fəaliyyətləri (oxumaq, musiqi dinləmək, yaradıcılıq, musiqi haqqında düşünmək, musiqi dili vasitələrini öyrənmək və s.) vasitəsilə öyrəndikləri hər şey musiqi mədəniyyətinin formalaşmasına kömək edir.

Musiqi mədəniyyətinin keyfiyyət aspektini qiymətləndirmək üçün meyarlar musiqi təcrübəsinin mövcudluğunun göstəriciləri ola bilər:

- şagirdlərin müxtəlif musiqi fəaliyyətlərində iştirakı;
- musiqinin emosional təcrübəsinin olması;
- musiqiyə müsbət münasibəti.

Məktəb təcrübəsində bəzən şagirdlərin musiqi fəaliyyətini qiymətləndirmək çətindir. Şagirdlərin musiqidən irəli gələn daxili hiss və həyəcanlarını ifadə edə biləcəkləri bir sıra texnikalar vardır.

**“Tərif” üsulu**

Adətən, 7-8 yaş arası uşaqların fəaliyyətlərinin müəllim tərəfindən qiymətləndirilməsinə çox güclü tələbat olur. Məsələn, 1-ci sinifdə formal olaraq uğurlu şifahi qiymətləndirmə üsulu kimi “Tərif” üsulundan istifadə etmək məqsədəuyğundur:

-Yaxşı!, Əla!

-Mən sənin ifanı sevirəm!

-Səni dinləmək xoş oldu!

-Səndə hər şey alınacaq!

Bütün bunlar şagird fəaliyyətini yaxşı stimullaşdırır. Bu texnika dərsin bütün mərhələlərində, şagird fəaliyyətinin hər növündə istifadə edilə bilər və edilməlidir. Bundan əlavə, müəllim bu üsuldan istifadə etməklə şagirdlər arasında nüfuz qazanır, şagirdlər utancaq olmaqdan yayınır, daha sərbəst və rahat olmağa, müəllimlə çox inamlı və güvənli münasibət qurmağa başlayırlar [2].

**"Söz toplama" üsulu**

İbtidai siniflərdə musiqi dərslərində uğura müvəffəq olmaq üçün uşaqlar hər dəfə bir və ya iki hərf götürür və sonra sözü yığırlar. Sözlər belə ola bilər: "Afərin!", "Ağıllı qız!", "Əla!" "Yaxşı!" və s. "Söz toplama" üsulu dərs boyunca tətbiq edilir. Bu üsul şagirdlərdə təlimə maraq yaradır, tapşırıqları yerinə yetirmə sürətini artırır. Müəllim növbəti dərslərdə yeni sözlərdən istifadə etməklə şagirdləri həvəsləndirə və maraqlandıra bilər [2].

**"Sehrli notlar" üsulu**

Uşaqların emosional vəziyyətinin qiymətləndirmə bacarığını inkişaf etdirmək üçün "Sehrli notlar" metodundan istifadə etmək maraqlı olar, məsələn, bunu hər hansı bir musiqini dinlədikdən sonra etmək məqsədəuyğundur. Texnikanı dərsin son mərhələsində də istifadə etmək olar.

Müəllim hər şagird üçün not dəftərindən bir parça hazırlayıb onlara təqdim edir. Şagirdlər həmin parçalara notların səsdüzümünün köməyi ilə dinlədikləri musiqidən aldıqları duyğu və emosiyaları və ya ümumiyyətlə dərsdən aldıqları təəssüratları qeyd edirlər. Məsələn, simvolik olaraq aşağıdakı kimi: do- kədər, re-qəzəb, mi – cansıxıcılıq, fa – maraq, sol-heyranlıq, lya – təəccüb, si sevincdir. Bu üsul müəllimə hər bir şagirdin musiqi dinlədikdən sonra onların emosional vəziyyətini görməyə və qiymətləndirməyə imkan verir.

Eyni zamanda, müəllimin işini müəyyən bir şagirdlə tənzimləməsinə də şərait yaradır [2].

**"İşıqfor" üsulu**

"İşıqfor" üsulu şagirdlərə rəng siqnallarından istifadə edərək tapşırıqların icrasını qiymətləndirməyə imkan verir:

qırmızı - köməyə ehtiyacım var.

sarı - edə bilərəm, amma əmin deyiləm.

yaşıl - özüm edə bilərəm.

**Şagirdlərin kollektiv qiymətləndirmə fəaliyyəti**

Musiqi dərslərində mətn biliklərini və mahnıların düzgün intonasiyasını yoxlamaq üçün alətdə şagirdlərin solo (qrup) oxumasından istifadə etmək olar. Bütün digər şagirdlər isə ekspert-dinləyici rolunda olurlar. Onlara tapşırıq verilir ki, sinif yoldaşının fəaliyyətini qiymətləndirsinlər. Uşaqlar üçün belə bir sual qoyulur: Onu nə üçün tərifləyərdiniz?

Bir tapşırığın daxilində müxtəlif meyarlar üzrə qiymətləndirmə aparıla bilər. Adətən əsas elementar meyarlardan biri seçilir. Məsələn:

- oxuma qaydalarına riayət etmək;
- intonasiyanın təmizliyi;
- mətn haqqında məlumat;
- emosionallıq.

Qarşılıqlı qiymətləndirmə dərsdəki qiymətləndirmə fəaliyyətinin ən vacib komponentidir, çünki bu fəaliyyət şagirdi təhlil etməyə, müqayisə etməyə, qiymətləndirməyə, nəticə çıxarmağa, daha yaxşı işləməyə səy göstərməyə təşviq edir.

Müəllim üçün qarşılıqlı qiymətləndirmə köməkçi vasitədir, şagirdlər tapşırığın yerinə yetirilməsini qiymətləndirmək üçün müəllimə "kömək edir", eyni zamanda sinif yoldaşının fərdi yoxlanması zamanı "kənar işlərlə" məşğul olmur [2].

**Qarşılıqlı yoxlama**

Dərslərdə həm ibtidai sinif şagirdləri, həm də yuxarı sinif şagirdləri üçün qarşılıqlı yoxlamadan istifadə etmək olar. Bu texnika yalnız öz hərəkətlərini idarə etmək qabiliyyətinin formalaşmasına kömək etmir, həm də dürüstlük və doğruluq, kollektivlə işləmə, nizam-intizam və s. kimi keyfiyyətləri inkişaf etdirir.

Musiqi dərsində bu üsuldan test tapşırıqlarını qiymətləndirmək üçün uğurla istifadə etmək olar, eyni zamanda bu üsul tapşırıqların yoxlanmasına sərf olunan vaxta qənaət etməyə kömək edir.

Yuxarıda göstərilən formalaşdırıcı qiymətləndirmə üsulları sinifdə öyrənməyə və idrakı stimullaşdırmağa, hər bir şagirdin təhsil müvəffəqiyyətini artırmağa və ən uğurlu şagirdlərlə öyrənməkdə çətinlik çəkən şagirdlər arasındakı uçurumu aradan qaldırmağa imkan verir [2].

Formativ qiymətləndirmədə tapşırıqvermə üsulundan da istifadə oluna bilər. Tapşırıqlar məzmun xətləri üzrə hazırlanır. Məsələn:

**IX sinif**

***Musiqi aləmi***

Mövzu: "Şahsənəm" operası və rus bəstəkarı R.M. Qliyer [1, səh. 49].

**Tapşırıq**

1. Azərbaycan mövzusunda yazılmış ilk klassik tipli operanın adını və müəllifini qeyd et.

2. "Şahsənəm" operası ilə Azərbaycanda yeni opera mədəniyyətinin əsası qoyuldu" fikrinin kimə aid olduğunu de.

3. R.M. Qliyerin "Şahsənəm" operasının üverturasında istifadə etdiyi Azərbaycan musiqilərinin adlarını söylə.

4. Adətən yaşlıların ifa etdiyi Azərbaycan milli rəqsinin yaranma tarixini, harada yarandığını və hansı tempdə olduğunu de.

***Emosional dəyərləndirmə***

Mövzu: Kamança və simfonik orkestr [1, səh.16].

**Tapşırıq**

1. Ş.Q. Axundovanın "Mehriban olaq" mahnısının xarakterini müəyyənləşdir.

2. H. Xanməmmədovun "Kamança və simfonik orkestr üçün konsert"in dərslikdə qeyd olunmuş parçasının melodiyası və ritmi (xüsusən də triollar) haqqında fikrini bildir.

3. Solo alətdə, trioda və simfonik orkestrdə ifa olunan eyni musiqinin yaratdığı emosional təsir haqqında fikrini izah et.

4. H.Xanməmmədovun "Kamança və simfonik orkestr üçün konsert"ini dinləyərkən yaranan təəssüratlarını qeyd et.

***Musiqi fəaliyyəti***

Mövzu: Azərbaycan Dövlət Akademik Musiqili Teatrı [1, səh. 68].

**Tapşırıq**

1. Ü.Hacıbəyovun "O olmasın, bu olsun" tamaşasından "Məşədi İbadın mahnısı"nı solo ifa et.

2. "Məşədi İbadın mahnısı"nı xor tərkibində ikisəsli (unison) ifa et.

3. "Məşədi İbadın mahnısı"ndan bir parçanı alətdə ifa edərək oxu.

4. “Məşədi İbadın mahnısı”nı öz ifana müxtəlif cür (azı 2 cür) ritmik müşayiət yaratmaqla ifa et [1].

Bütün dərslərdə olduğu kimi, musiqi dərsində də formativ qiymətləndi-rilmənin aparılması mütləqdir. Uşaqlar musiqi dərsində öz bacarıq və qabiliy-yətlərini maksimum dərəcədə nümayiş etdirməyə çalışırlar. Bu hal əsasən, onların xorla mahnı ifa edərkən digərlərindən fərqlənmək üçün daha uca səslə oxumağa çalışmalarında özünü büruzə verir. Bununla sanki özlərinin səs imkanlarının daha geniş olduğunu göstərmək istəyirlər. Eyni zamanda, müəllim yeni mahnı öyrədərkən ya alətdə ifa edib uşaqlardan onu təkrar etməyi tələb edən zaman uşaqlar tez reaksiya verərək ən birinci qavradıqlarını göstərməyə çalışırlar. Belə hallar adətən aşağı sinif şagirdləri arasında müşahidə olunur. Yuxarı sinif şagirdləri adətən daha səbirli və təmkinli olurlar. Hər 2 halda formativ qiymətləndirmənin aparılması, yəni dərsin sonunda muəllimin şagirdin “Məktəbli kitabçası”nda öz qeydlərini aparması qanunauyğunluqdan əlavə, şagirdlər üçün bir stimulverici xarakter daşıyır. Nəzərə alsaq ki, musiqi dərsi həftədə cəmi 1 saat tədris edilir, belə halda tövsiyə olunur ki, müəllim hər dərsdə maksimum vaxtı düzgün bölməyə çalışsın və dərsin sonunda fəal iştirak edən hər bir şagirdin “Məktəbli kitabçası”nda formativ qiymətləndirmə üzrə qeydlərini aparsın.

## İstifadə edilmiş ədəbiyyat

1. O.Rəcəbov, N.Kazımov, R.Qasımov. Musiqi, dərslik 9-cu sinif; Təhsil, Bakı-2020

2.https://infourok.ru/metodicheskaya-sistema-formiruyuschee-ocenivanie - na-urokah-muziki-2990357.html

*Kitab “CN POLİGRAFİYA” Məhdud Məsuliyyətli Cəmiyyətində səhifələnmiş və çap olunmuşdur.*

________________________________________

Çapaimzalanıb: 01.12.2022

Format: 70x100 1/16. Həcmi: 6,25 ç.v. Tiraj: 965.

Sifariş *№ 40*.

AZ 1006, BAKI, Nərimanov rayonu, K. Rəhimov küçəsi 865,

bina 22c, mənzil 3

Tel./faks: (012)4652471

*e-mail: cn_poliqraf@mail.ru*